Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 215 (7942) ÇƏRŞƏNBƏ, 26 sentyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

# 29 ölkə, 224 şirkət...



## "ADEX 2018" Beynəlxalq Müdafiə Sərgisi Azərbaycanın hərbi sənayesinin qüdrətini növbəti dəfə nümayiş etdirir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bakı Ekspo Mərkəzində açılan "ADEX 2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı əvvəlcə mərkəzin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxdı.

Müdafiə naziri Zakir Həsənov və müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev Prezident İlham Əliyevə məlumat verdilər ki, bu il sərgidə dünyanın 29 ölkəsini təmsil edən 224 şirkət iştirak edir. Regionda ən böyük silah və hərbi texnika ekspozisiyalarından ibarət olan genişmiqyaslı bu tədbir müasir silah və avadanlıqların, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücü və qüdrətinin nümayişi üçün geniş imkanlar açır. Azərbaycanın hərbi sənaye kompleksinin geniş təmsil olunduğu sərgidə "Matador", "Marauder" və digər zirehli hərbi texnikalar, o cümlədən tank əleyhinə raket kompleksi böyük maraqla qarşılanır.

Hava hücumundan müdafiə silahlarının və hərbi texnikaların servis xidməti mərkəzinin stendi ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, Azərbaycan-Belarus birgə müəssisəsi əsasən silahlanma sistemlərinin təkmilləşdirilməsi və modelləşdirilməsi, hərbi elmi-tədqiqat işi, yeni silahlanma sistemlərinin inkişafı, qoşun və silahlanmada nəzarət sistemləri üçün texniki və proqram vasitələrinin təminatının hazırlanması ilə məşğuldur.

Belarus Respublikası artıq Azərbaycan beynəlxalq müdafiə sərgisinin fəal iştirakçıları arasındadır. Sərgiyə 10 şirkətlə qatılan Belarus müxtəlif hərbi məhsullarla yanaşı ağır hərbi texnika da nümayiş etdirir. "Belspetsvneshtechnika" Dövlət Xarici Ticarət Unitar Müəssisəsi yüksək texnoloji məhsulların ixracı sahəsində ixtisaslaşan, hərbi tətbiqlər üzrə texnologiyalar sahəsində intensiv biliyə malik olan aparıcı müəssisədir.

Türkiyənin "Aselsan" şirkəti də artıq üçüncü dəfədir sərgidə iştirak edir və onun təqdim etdiyi məhsullar da maraqla qarşılanır.

Təkərli zirehli texnikanın istehsalı sahəsində ixtisaslaşan Rusiyanın Hərbi Sənaye Şirkəti isə müdafiə, hüquq mühafizə və terrora qarşı mübarizə sahələrində silsilə tapşırıqların həllinə görə zirehli texnikaları tədarük etməklə 50-dən çox ölkədə dövlət orqanları ilə və özəl şirkətlərlə əməkdaşlıq edir.

İsrailin "Elbit Systems" şirkəti də sərgiyə böyük maraq göstərir və o, dünyada müdafiə, milli təhlükəsizlik və kommersiya təyinatlı silsilə proqramların hazırlanması ilə məşğul olan beynəlxalq şirkətdir.

*Ardı 2-ci səh.*





## Krasimir KARAKAÇANOV:

## "İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan bütün sahələrdə böyük nailiyyətlər əldə edib"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bolqarıstanın Baş nazirinin ictimai asayiş və təhlükəsizlik üzrə müavini, müdafiə naziri Krasimir Karakaçanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Bolqarıstanın Baş nazirinin ictimai asayiş və təhlükəsizlik üzrə müavini, müdafiə naziri Krasimir Karakaçanov ilk dəfə Azərbaycanda 10 il bundan qabaq olduğunu qeyd edərək ötən dövr ərzində Bakıdakı çox böyük inkişafın onlarda dərin təəssürat yaratdığını dedi. Krasimir Karakaçanov bildirdi ki, Azərbaycanda Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə bütün sahələrdə böyük nailiyyətlər əldə edilib və o, bu münasibətlə dövlət başçısına təbriklərini çatdırdı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev son illər Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksələrək strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğuladı. Ölkələrimizin bir çox sahələrdə fəal əməkdaşlıq həyata keçirdiyini bildirən dövlət başçısı yüksəksəviyyəli səfərlərin bu işdə rolunu qeyd etdi. Enerji sahəsində strateji əməkdaşlığın mövcud olduğunu deyən Prezident İlham Əliyev digər sahələrdə də əlaqələrin genişləndirilməsinin zəruriliyini bildirdi.

Görüşdə "ADEX 2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin əhəmiyyətinə toxunuldu, Krasimir Karakaçanovun bu tədbirdə iştirakı ikitərəfli münasibətlərimizin inkişafının yaxşı göstəricisi kimi dəyərləndirildi, onun Azərbaycana səfərinin əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

## İqtisadi inkişaf səviyyəsi və əlverişli biznes mühitinə görə Azərbaycan sərmayə qoyuluşu üçün cəlbedicidir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudak Bakıda əməkdaşlığımızın gələcək imkanlarının müəyyənləşdirilməsi ilə bağlı keçiriləcək görüşlərin əhəmiyyətini qeyd etdi. Daha sonra qonaq Azərbaycanın həyata keçirdiyi TAP və TANAP layihələrinin önəmini vurğuladı.

Dövlət başçısı TAP və TANAP layihələrinə verdiyi maliyyə dəstəyinə görə Avropa İnvestisiya Bankına təşəkkürünü bildirdi. Prezident İlham Əliyev artıq TANAP layihəsinin rəsmi açılış mərasiminin keçirildiyini, TAP layihəsi üzərində isə işlərin davam etdirildiyini vurğulayaraq bunları əməkdaşlığımızın çox yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlət başçısı bildirdi ki, Azərbaycan iqtisadiyyatının inkişafının hazırkı səviyyəsi və mövcud olan əlverişli biznes mühiti ölkəmizi sərmayə qoyuluşu üçün cəlbedici edib. Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı ilə bağlı geniş planların olduğunu deyən Prezident İlham Əliyev ölkəmizin Avropa İnvestisiya Bankı ilə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu dedi.

Söhbət zamanı infrastruktur, alternativ enerji, kənd təsərrüfatı, ekologiya, özəl sektor, sənaye zonalarının fəaliyyəti ilə bağlı əməkdaşlıq ətrafında fikir mübadiləsi aparıldı.



## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliyaya rəsmi səfərə gəlib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva İtaliya Respublikasına rəsmi səfərə gəlib.

## Maria Elisabetta Alberti Kasellati:

## "Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini yüksək dəyərləndirirəm"

### İtaliya Senatının sədri Azərbaycanın Birinci vitse-prezidentinə mədəni və humanitar sahələrdə layihələr həyata keçirdiyinə görə minnətdarlığını bildirdi

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva sentyabrın 25-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Senatın sədri Maria Elisabetta Alberti Kasellati Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı səmimiyyətlə salamladı, Azərbaycan-İtaliya münasibətlərini, o cümlədən parlamentlərarası əlaqələri yüksək qiymətləndirdi. Senatın sədri son illərdə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, qanunvericilik, mədəniyyət, elm-təhsil sahələrində çox böyük nailiyyətlərin əldə olunduğunu vurğuladı.

Maria Elisabetta Alberti Kasellati Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı İtaliya Senatında keçirilən konfransın əhəmiyyətinə toxunaraq qeyd etdi ki, Azərbaycan ötən əsrin əvvəllərində demokratiya, mütərəqqi ideyaların daşıyıcısı kimi mühüm addımlar atıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini yüksək dəyərləndirən Maria Elisabetta Alberti Kasellati dedi ki, Heydər Əliyev Fondu İtaliyada mədəni və humanitar sahələrdə, o cümlədən mədəni abidələrin bərpası ilə bağlı bir sıra layihələr həyata keçirir. Bütün bu işlərə görə Mehriban Əliyevaya minnətdarlığını bildirən Senatın sədri bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva səmimi görüşə görə təşəkkürünü bildirdi, Maria Elisabetta Alberti Kasellatini bu yaxınlarda Senatın sədri kimi fəaliyyətə başlaması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Mehriban Əliyeva Azərbaycan-İtaliya əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirdi. Azərbaycanın Birinci vitse-prezidenti Heydər Əliyev Fondunun fəaliyyətinə verdiyi yüksək qiymətə görə İtaliya Senatının sədrinə minnətdarlığını ifadə etdi. Görüşdə vurğulandı ki, İtaliya Prezidentinin bu ilin iyulunda Azərbaycana səfəri əlaqələrimizin səviyyəsinin göstəricisidir. Bu səfər çərçivəsində aparılan səmərəli danışıqlar əlaqələrimizin inkişafına mühüm töhfə verəcək.

Söhbət zamanı İtaliya şirkətlərinin Azərbaycanda bir sıra iqtisadi layihələrdə uğurla iştirak etdiyi bildirildi. Qeyd edildi ki, rəsmi Roma Azərbaycanın Avropanın, o cümlədən İtaliyanın enerji təhlükəsizliyindəki rolunu yüksək dəyərləndirir. Vurğulandı ki, xalqlarımız arasındakı münasibətlərin yaxınlaşmasına töhfə verən İtaliya ilə Azərbaycan arasındakı mədəni əlaqələr də inkişaf edir.



# 29 ölkə, 224 şirkət...







*Əvvəli 1-ci səh.*

"Elbit" və onun törəmə müəssisələri aerokosmik, quru və donanma sistemləri, komanda, nəzarət, kommunikasiya, kompüter, məlumattoplama, müşahidə və kəşfiyyat, pilotsuz uçuş sistemlərinin istehsalı üzrə fəaliyyət göstərir.

Sonra Prezident İlham Əliyev Baku Ekspo Mərkəzinin daxili pavilyonlarındakı stendlərlə tanış oldu.

Qeyd edildi ki, bir sıra ölkələr əvvəlki illərlə müqayisədə milli ekspozisiyaların sahəsini böyüdüblər. Təmsil olunan şirkətlərin sayının çoxluğuna görə ilk dördlüyə Türkiyə, Rusiya, İsrail və Belarus daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir. Pavilyonlarda müasir silah və texnikalar nümayiş olunur. Bu sərgidə Türkiyə 41 şirkətlə təmsil olunur. Türkiyə şirkətlərinin ümumi təşkilatçısı olan "Müdafiə Sənayeləri Alt Katibliyi" qurumunun məqsədi özəl sahibkarlıq qismində beynəlxalq tərəfdaşlarla balanslaşdırılmış əməkdaşlığa imkan yaradan müdafiə sənayesini formalaşdırmaqdır.

Türkiyənin 30 illik təcrübəyə malik "Roketsan" şirkəti də sərgiyə məhsullarının geniş çeşidi ilə qatılıb. Şirkət həm yerli, həm də xarici istifadəçilərə özünü təcrübədə doğrultmuş etibarlı həll variantları təklif edir.

ABŞ-ın "Vertex International" şirkəti hərbi və hüquq mühafizə sahələri üçün həll variantları, eləcə də digər sahələrlə yanaşı, müdafiə sektorunda istismar olunan məhsulların təchizatçısıdır və 200-dən çox brendi təmsil edir.

1991-ci ildən fəaliyyət göstərən Türkiyənin "STM" şirkəti sistem mühəndisliyi, texnoloji təkmilləşdirmə və logistika xidmətləri təqdim edir.

Ukrayna Müdafiə Sənayesi Təşkilatı hərbi və texniki avadanlıqların istehsalı, satışı, təmiri, modernləşdirilməsi və ixracı sahələri üzrə fəaliyyət göstərən və 100-dən çox şirkəti birləşdirən bir qurumdur. Builki sərgidə isə 7 şirkətlə təmsil olunan Ukrayna hərbi-sənaye kompleksi müxtəlif məhsullarını qonaqlara təqdim edir.

Serbiya da sərginin maraqla qarşılanan iştirakçıları arasındadır. Bu ölkədən olan "Yugoimport" şirkəti sistem inteqratoru kimi kompleks döyüş sistemlərinin işlənib hazırlanması və istehsalı üzrə ixtisaslaşıb.

Ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan "Azərsun Holding" də "ADEX 2018" Beynəlxalq Müdafiə Sərgisində iştirak edir. Ziyarətçilərin böyük marağına səbəb olan stenddə "Əsgər payı" quru ərzaq dəsti, konserv və digər qida məhsulları sərgilənir. Bundan əlavə, ziyarətçilərə hazır yeməklər təqdim olunur.

Bu il sərgidə ilk dəfə iştirak edən İtaliyanın "Leonardo" şirkəti helikopterlər, aeronavtika, elektronika, müdafiə və təhlükəsizlik sistemləri sahəsində fəaliyyət göstərir. O, ən səmərəli hərbi hazırlıq avadanlıqları, "M345" və "M346", eləcə də "C27J" seriyalı hava gəmiləri





ilə döyüş təlimi üzrə lider olan bir şirkətdir.

Ukraynanın "Motor SİCH" şirkəti qaz-turbin avadanlıqlarının və helikopterlərin istehsalı, əsaslı təmiri və yenilənməsi xidmətlərini təqdim edir.

Prezident İlham Əliyev İran İslam Respublikasının pavilyonunda da oldu. Burada "İran Electronics Industries" şirkəti, Avionika Sənayesi və Dəniz Sənayesi təşkilatları təmsil olunur.

Dövlət Sərhəd Xidmətinin 2015-ci ildə təsis edilən "Gəmi İnşası və Təmiri Mərkəzi" gəmilərin inşası, bütün növ üzən qurğuların təmiri və onlara texniki qulluq işləri ilə məşğuldur. Zavod müasir struktura və qabaqcıl tərsanəyə malikdir. Şirkət indiyədək "Şahdağ" və "Tufan" tipli çoxlu patrul gəmiləri inşa edib.

Dövlət başçısı Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. Qeyd edildi ki, nazirliyin tabeliyinə verilən müəssisələrdə qısa müddətdə yenidənqurma işləri aparılıb, son illərdə həmin müəssisələrin maşın və avadanlıq parkı yenilənib, bu məqsədlə dünyanın inkişaf etmiş ölkələrindən ən son texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə sıx əməkdaşlıq qurub. 2009-cu ildən başlayaraq nazirliyin müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən beynəlxalq müdafiə sərgilərində də nümayiş olunur.

Müasir silah və texnikanın, habelə milli müdafiə sahəsində Azərbaycanın gücünün və qüdrətinin böyük nümayişinə çevrilən sərgidə son illərdə ölkəmizdə istehsal olunan yüngül və ağır hərbi texnikalar nümayişə çıxarılıb. Atıcı silahlarla təchiz olunan universal "Gürzə" avtomobili, müxtəlif çaplı atıcı silahlar, raket başlıqları, pilotsuz uçuş aparatları və digər hərbi texnikalar sərginin maraq doğuran eksponatları sırasındadır.

Sərginin fəal iştirakçılarından olan "Aselsan" şirkəti sifarişçilərinə hərbi rabitə vasitələri, radiolokasiya stansiyaları, radioelektron mübarizə avadanlığı, elektron və optik cihazlar, çoxfunksiyalı məlumat idarəetmə sistemi, yerüstü, hava, dəniz və kosmik tətbiqlər üçün yüksək texnologiyalı sistem variantlarını təqdim edir.

Hərbi dəniz donanması sahəsində 135 illik təcrübəyə malik olan "Damen" şirkəti istehsal etdiyi keşikçi katerlərini, patrul və döyüş gəmilərini, dəniz desantına dəstək, köməkçi dəniz və bir çox sahilyanı gəmiləri sərgi ziyarətçilərinə təqdim edir.

Dünyada hərbi sənaye kompleksinin inkişafı ilə diqqət çəkən ölkələrdən biri olan İsrail Bakıda keçirilən sərgiyə 14 şirkətlə qatılıb. Bu şirkətlər hava gəmiləri, zirehli texnika, donanma platformaları, havada və kosmosda ən son texnikanın, kibertexnologiyaların tətbiqi ilə yanaşı, müasir müdafiə sistemlərinin işlənib hazırlanması və istehsalını, o cümlədən hərbi donanma və kosmik sistemlər üçün innovativ həll variantlarını təklif edir. Bu ölkənin "Rafael Advanced Defense Systems Ltd" şirkəti bütün dünyada sifarişçilər üçün hava, quru, donanma və kosmik tətbiqlər üzrə yüksək texnoloji müdafiə sistemlərinin geniş çeşidini layihələndirir, hazırlayır və istehsal edir.

"Azərbaycan silahının təkamülü" adı altında çıxış edən Azərbaycan Hərb Tarixi Muzeyi sərgidə qədimdən müasir dövrədək ölkəmizin ərazisində mövcud olmuş dövlətlərin döyüşlərdə istifadə etdikləri texnikalar və silahlar, həmçinin geyim nümunələri də daxil olmaqla 50-dək eksponat nümayiş etdirir.

Dünyada nüfuzlu hərbi sənaye kompleksinə malik olan Rusiyanı sərgidə 25 şirkət təmsil edir. Bu ölkənin "Rosoboronexport" şirkəti qlobal silah bazarının liderlərindən biridir və Rusiyanın illik silah satışının 85 faizdən çoxunu əhatə edir.

Fransa Respublikasını təmsil edən "Naval Group" şirkəti hərbi-dəniz müdafiəsi sahəsində Avropa lideridir. Şirkət əsasən sualtı qayıqları və gəmiləri layihələndirir və inşa edir.

Dövlət başçısına məlumat verildi ki, Belarusun "Belspetsvneshtechnika" şirkəti hazırda sistem inteqratoru kimi xidmət edir və bu ölkədə müdafiə sektorunun müxtəlif sənaye sahələrində ixtisaslaşmış 20-dən artıq təşkilatı bir araya gətirən Dövlət Hərbi Sənaye Komitəsinin ixtiralarından yararlanır.

Fransanın sərgidəki digər iştirakçısı isə "Thales" şirkətidir. Şirkət sərgidə hava hərəkətinin idarə olunması, hava müşahidə sistemləri, zirehli maşınlar, təlim və simulyasiya üzrə məhsul və xidmətlərini təqdim edir.

AMEA-nın Yüksək Texnologiyalar Parkı da sərgidə ilk dəfə iştirak edir. Stenddə hərb sahəsində müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiyayönümlü yeni texnologiyaların hazırlanması, işlənilməsi və təkmilləşdirilməsi məqsədilə görülən işlər nümayiş etdirilir.

Prezident İlham Əliyev Pakistan İslam Respublikasının pavilyonunda da oldu. Bildirildi ki, ölkəmizlə hərbi əməkdaşlığa malik Pakistan da bu sərgiyə hərbi sənaye məhsullarının geniş çeşidi ilə qatılıb. Bu ölkədə istehsal olunan hərbi məhsullar hərbi sənaye kompleksinin bütün istiqamətlərini əhatə edir.

Çinin "CETC International" şirkəti elektron informasiya sahəsi üçün innovativ və xüsusi həll variantları ilə sərgi ziyarətçilərinin qarşısına çıxıb. Qeyd edək ki, bu il müdafiə və xüsusi təyinatlı məhsulları, hərbi nəqliyyat vasitələrini və texnikanı, eləcə də silah və sursatları təqdim edən yerli eksponentlərin sayı artıb.

Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki struktur və zavodlar, o cümlədən Müdafiə Nazirliyi və ANAMA agentliyi sərgidə fəal iştirak edir.

Ümumilikdə sərgidə quru qoşunları və hərbi hava qüvvələrinin texnika və silahları, hərbi aviasiya silahları, hava hücumundan müdafiə sistem və vasitələri, xüsusi təyinatlı əmlak və vasitələr, informasiya texnologiyaları, kosmik texnologiyalar, ordunun inzibati və texniki təchizatı ilə bağlı yeniliklər nümayiş olunur.

Beləliklə, "ADEX" sərgisi dünyanın silah bazarında ixrac üçün təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq imkanı yaradır. Bu sərgi ən son silah nümunələrinin nümayiş olunması və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələrin imzalanması üçün artıq əla platformaya çevrilib.

## Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarına

Hörmətli sərgi iştirakçıları və qonaqlar!

Sizi "ADEX 2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin açılışı münasibətilə salamlayıram.

Artıq ənənəvi xarakter almış "ADEX" sərgisi beynəlxalq hərbi-texniki əməkdaşlığın inkişafı, ən müasir silah və texnologiyaların nümayiş etdirilməsi üçün mühüm tədbirə çevrilmişdir. Sərgi dünyanın tanınmış hərbi sənaye müəssisələrini, nüfuzlu xarici şirkət və təşkilatları, o cümlədən rəsmi nümayəndə heyətlərini və mütəxəssisləri eyni məkanda toplayaraq işgüzar əlaqələrin qurulması və yeni müqavilələrin imzalanması üçün səmərəli platformaya çevrilmişdir.

Ərazisinin 20 faizi işğal altında olan Azərbaycan Respublikası müdafiə qabiliyyətinin artırılmasına və Silahlı Qüvvələrinin maddi-texniki təchizatının gücləndirilməsinə daim xüsusi önəm verir. Azərbaycan hərbi-texniki sahədə dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, güclü müdafiə sənayesi yaratmışdır və bu sərgi müdafiə sənayemizin əldə etdiyi nailiyyətlərin tanıdılması baxımından da mühüm əhəmiyyət kəsb edir.

Əminəm ki, "ADEX 2018" sərgisi faydalı təcrübə mübadiləsinin aparılmasına və yeni əməkdaşlıq əlaqələrinin yaradılmasına imkanlar açacaq, eləcə də milli müdafiə sənayemizin elmi-texnoloji potensialının artırılmasına töhfə verəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2018-ci il*



## Xüsusi Olimpiya Hərəkatının yubiley forumu Bakıda təşkil olundu

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Xüsusi Olimpiya Komitəsinin sədri Timoti Şriverin başçılıq etdiyi və dünya şöhrətli idmançılar Bart Konner, Nadya Komaniç və Vladimir Qribiçin daxil olduğu nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin XX Qlobal Forumunun Azərbaycanda təşkilindən məmnunluğunu ifadə etdi və qonaqların ölkəmizlə yaxından tanış olması üçün bu tədbirin yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi.

Nümayəndə heyətinin üzvləri ölkəmizdə gedən inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını vurğuladılar və təbriklərini çatdırdılar. Xüsusi Olimpiya Hərəkatının 50 illik tarixə malik olduğunu və dünyanın 172 ölkəsini əhatə etdiyini deyən Timoti Şriver Xüsusi Olimpiya Hərəkatının 50-ci ildönümünə həsr olunan forumun Bakıda təşkil edilməsinə göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, Azərbaycanın mötəbər beynəlxalq idman yarışlarına, o cümlədən "Formula-1" və hazırda Bakıda keçirilən cüdo üzrə dünya çempionatına və eləcə də digər mühüm yarışlara evsahibliyi etməsini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Xüsusi Olimpiya Hərəkatına və Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin XX Qlobal Forumuna ölkəmizin verdiyi töhfədən məmnunluğunu bildirdi, Xüsusi Olimpiya Hərəkatının 50 illiyi və əldə olunan nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. Dövlət başçısı bütün dünyanı əhatə edən və özündə 5 milyona yaxın insanı birləşdirən bu hərəkatın əqli və fiziki imkanları məhdud insanların cəmiyyətə inteqrasiya olunması işinə verdiyi dəstəyin önəmini qeyd etdi və Azərbaycanda bu istiqamətdə mühüm tədbirlərin, o cümlədən bir sıra sosial proqramların həyata keçirildiyini vurğuladı.

Sonda xatirə şəkli çəkdirildi.

## Azərbaycan müasir və keyfiyyətli hərbi təyinatlı məhsulların istehsalçısı kimi dünyada tanınır





Sentyabrın 25-də Bakı Ekspo Mərkəzində "ADEX 2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi açılıb. Sərginin açılış mərasimində dövlət və hökumət rəsmiləri, Azərbaycandakı diplomatik korpusun, beynəlxalq təşkilatların təmsilçiləri, xarici ölkələrin müdafiə nazirləri və digər əlaqədar qurumların nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov Prezident İlham Əliyevin sərgi iştirakçılarına təbrik məktubunu oxuyub *(Məktub qəzetin bugünkü nömrəsində dərc olunur).*

Müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev diqqətə çatdırb ki, "ADEX 2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi regionda ən böyük silah və hərbi texnika ekspozisiyalarından biri olmaqla yanaşı, müasir silah və avadanlıqların, o cümlədən Azərbaycanın müdafiə sənayesi kompleksinin gücü və qüdrətinin nümayişidir.

Qeyd edilib ki, bu gün ölkəmiz müasir və keyfiyyətli hərbi təyinatlı məhsulların istehsalçısı kimi dünyada tanınır. Qazanılan nailiyyətlər istehsal edilən rəqabətədavamlı məhsulların dünya bazarına çıxarılmasına şərait yaradıb. Məmulatlar Silahlı Qüvvələrimizlə yanaşı, bir sıra xarici ölkələrin ordularının da silahlanmasında qəbul edilir.

"ADEX 2018" sərgisində Azərbaycan, Belarus, Çin, Fransa, İsrail, Pakistan, İran, Rusiya, Serbiya, Türkiyə və Ukraynanın aparıcı şirkətləri 11 stendlə təmsil olunur. Şirkətlərin sayına görə ilk dördlüyə Türkiyə (41 şirkət), Rusiya (25 şirkət), İsrail (14 şirkət) və Belarus (10 şirkət) daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir.

"ADEX 2018" sərgisində hava hücumundan müdafiə və raket əleyhinə müdafiə sistemləri, hərbi gəmiqayırma, silah sistemlərinin hazırlanması və modernləşdirilməsi, hərbi-elmi tədqiqat, PUA sistemləri, robot-texniki kompleksləri, atıcı silahlar, döyüş sursatları və təchizatları, demilitarizasiya sistemləri, raket və artilleriya silahları, reaktiv yaylım atəşi sistemi, optik-elektron və lazer texnikası, zirehli texnika, sualtı qayıqlar və digər müasir silah, texnika və avadanlıqlar təqdim olunur.

# *Mehriban ƏLİYEVA:* "İtaliya-Azərbaycan münasibətləri müsbət dinamika ilə inkişaf edir"

## Azərbaycanın Birinci vitse-prezidentinin iştirakı ilə Romada Xalq Cümhuriyyətinin 100 illiyinə və iki dövlət arasında strateji tərəfdaşlıq münasibətlərinə dair konfrans keçirilib









Sentyabrın 25-də Romadakı Custiniani sarayında "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri" adlı konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva və İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati konfransın açılışında iştirak ediblər.

Konfransı açan İtaliya Senatında İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri xanım **Rossana Boldi** Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı keçirilən bu tədbirin əhəmiyyətindən bəhs edib. O, İtaliya-Azərbaycan əlaqələrinin çox yüksək səviyyədə inkişaf etdiyini bildirib və ikitərəfli strateji əməkdaşlığın önəmini qeyd edib. İki ölkə arasında əlaqələrin hər bir sahədə inkişaf etdiyini deyən Rossana Boldi Azərbaycan-İtaliya münasibətlərinin inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın rolunu xüsusi vurğulayıb. O, Heydər Əliyev Fondu tərəfindən İtaliyada həyata keçirilən layihələrin bu ölkənin mədəni irsinin qorunması baxımından önəmli olduğunu söyləyib.

İtaliyada bu cür əhəmiyyətli konfransın keçirilməsinin önəmini qeyd edən İtaliya Respublikası Senatının sədri **Maria Elisabetta Alberti Kasellati** deyib: "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin İtaliyada qeyd olunması bizim üçün bir şərəfdir. Bu tədbirin burada keçirilməsinin çox böyük önəmi var. Çünki bu binada İtaliyanın Konstitusiyası imzalanıb. Bu il biz konstitusiyanın imzalanmasının 70 illiyini qeyd edirik".

100 il bundan əvvəl Azərbaycan Respublikasının parlamentində ilk dəfə olaraq seçkilərin keçirildiyini, qadınlara tam seçki hüququnun verildiyini qeyd edən Senatın sədri bildirib ki, bu, regionun tarixində önəmli bir addım idi. Həmçinin Azərbaycan parlamentində bir çox millətlərin nümayəndələrinin təmsil olunması mürəkkəb bir dövrdə ölkənin tarixində əhəmiyyətli bir iz buraxıb.

Azərbaycan-İtaliya əlaqələrinə toxunan Maria Elisabetta Alberti Kasellati ölkələrimiz arasındakı münasibətlərin qədim tarixinin olduğunu bildirib.

Heydər Əliyev Fondunun İtaliya üçün çox xüsusi əhəmiyyətə malik tarixi-mədəni abidələrin bərpası ilə bağlı həyata keçirdiyi layihələrdən bəhs edən Senatın sədri Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya iki ölkə arasında mədəni əlaqələrin inkişafındakı roluna görə təşəkkür edib.

Azərbaycanın "Milan Expo 2015" beynəlxalq sərgisindəki pavilyonunun ən çox ziyarət olunan və yüksək dəyərləndirilən pavilyonlardan biri olduğunu qeyd edən Maria Elisabetta Alberti Kasellati deyib: "Bu gün Azərbaycan Qafqaz ölkələrindən biri kimi həm siyasi, həm də iqtisadi baxımdan Aralıq dənizi ölkələrinin həyatında çox böyük rol oynayır. İtaliya Azərbaycandan enerji idxal edən birinci ölkələrdəndir. Bu gün İtaliya Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində çox önəmli rol oynayır və xüsusilə də neft sənayesinin inkişafına təkan verir".

Senatın sədri İtaliya şirkətlərinin Azərbaycandakı fəaliyyətlərinin daha da genişlənəcəyinə əminliyini ifadə edib. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolundan bəhs edən Maria Elisabetta Alberti Kasellati qeyd edib ki, bu gün iki ölkənin gəncləri arasında da çox gözəl münasibətlər formalaşır, universitetlər və digər mədəniyyət mərkəzlərinin əlaqələri getdikcə dərinləşir.

Maria Elisabetta Alberti Kasellati terrorizmin və ekstremizmin cərəyan etdiyi bir dövrdə təhlükəsizliyin təmini üçün ölkələr və xalqlar arasındakı əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətindən danışaraq Qərb ilə Şərq arasında körpü rolunu oynayan, Avropa İttifaqının önəmli tərəfdaşı, İtaliyanın tarixi dostu olan Azərbaycanın bu istiqamətdəki rolunu xüsusi vurğulayıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva konfransda çıxış edib.

## Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı

- Hörmətli İtaliya Respublikası Senatının sədri xanım Kasellati.

Hörmətli tədbir iştirakçıları, xanımlar və cənablar, əziz dostlar.

Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram. İlk növbədə İtaliya Senatında Azərbaycana həsr olunmuş tədbirin keçirilməsində bizə dəstək göstərdiyinizə görə, xanım sədr, Sizə dərin minnətdarlığımı bildirirəm.

Bugünkü konfrans ölkəmizin taleyində çox əhəmiyyətli bir hadisəyə həsr olunub. 100 il bundan əvvəl müsəlman aləminin ilk demokratik respublikası - Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti cəmi iki il davam etdi. Biz fəxr edirik ki, hələ XX əsrin əvvəllərində Azərbaycan xalqı mütərəqqi və azadlıq ideyalarına əsaslanaraq öz müstəqilliyini əldə etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti qısa zamanda ölkəmiz üçün çox vacib olan addımlar atdı. Azərbaycanda demokratiya institutları formalaşmağa başladı, çoxmillətli parlament fəaliyyətə başladı, ölkə üçün 200-dən çox vacib qanun qəbul edildi, o cümlədən Azərbaycan qadınlarına səsvermə hüququ verildi. Müsəlman qızları üçün ilk dünyəvi məktəb açıldı, Azərbaycanın dövlət bayrağı təsis olundu, Milli Ordumuz yarandı. Əfsuslar olsun ki, gənc respublika cəmi 23 ay yaşadı. Ölkəmiz ciddi geosiyasi problemlərlə üzləşərək müstəqilliyini itirdi.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdi və Azərbaycan xalqı öz ölkəsinə, öz taleyinə sahib oldu. Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin dövlətçiliyinin əsaslarının təməlini qoyub. Bu gün Azərbaycan dövləti və Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır, ölkəmizdə və Azərbaycana tərəfdaş olan ölkələrdə 100 illik yubileyə həsr olunmuş tədbirlər keçirilir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra İtaliya-Azərbaycan əlaqələri çox uğurla inkişaf edir. Parlamentlərarası dostluq qrupları, hökumətlərarası komissiya fəaliyyət göstərir. 2014-cü ildə İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə qəbul edilmişdir. Siyasi dialoq çox yüksək səviyyədə inkişaf edir, Azərbaycan Respublikasının Prezidenti dəfələrlə İtaliyada rəsmi səfərdə olmuşdur. Bu ilin iyul ayında İtaliya Respublikasının Prezidenti cənab Mattarella Azərbaycanda səfərdə olmuşdur. Bu, tarixi bir hadisədir. Çünki İtaliya-Azərbaycan əlaqələrinin tarixində ilk dəfə idi ki, İtaliya Respublikasının dövlət başçısı ölkəmizdə səfərdə olmuşdur. Səfər çox uğurla keçdi və əminəm ki, ikitərəfli münasibətlərimizin möhkəmlənməsinə öz töhfəsini verməkdədir.



Ölkəmizdə səfərdə olan zaman cənab Prezident Mattarella məni Böyük Xaç Kavaleri ordeni ilə təltif etdi. Bu, mənim üçün böyük şərəfdir və fürsətdən istifadə edərək bir daha cənab Prezidentə öz dərin minnətdarlığımı çatdırmaq istəyirəm.

İqtisadi əlaqələrimiz çox gözəl müsbət dinamika göstərir. İtaliya Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır. Azərbaycanda 95 İtaliya şirkəti fəaliyyət göstərir. Onlar müxtəlif sahələrdə həm özəl sektorla, həm dövlət qurumları ilə əməkdaşlıq edir, xidmət, ticarət, nəqliyyat, kənd təsərrüfatı, şərabçılıq və digər sahələrdə çox uğurlu iş birliyi yaradılıb.

Bu ilin iyul ayında Azərbaycan və İtaliya prezidentlərinin iştirakı ilə Sumqayıtda "SOCAR Polimer" layihəsi çərçivəsində polipropilen zavodunun açılışı olmuşdur. Bu zavodun tikintisinin podratçısı İtaliyanın "Maire Tecnimont" şirkətidir. Cari ilin fevral ayında "Maire Tecnimont" şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun modernləşdirilməsi və yenidən qurulması haqqında müqavilə bağlanmışdır. Təkcə bu layihələrin ümumi dəyəri 2,5 milyard dollar təşkil edir. "Maire Tecnimont" şirkətinin bu layihələrdə payı 1,3 milyard dollardır. Bu rəqəmlər bir tərəfdən Azərbaycan ilə İtaliya arasında olan iqtisadi əlaqələrin miqyasını, digər tərəfdən ölkəmizdə mövcud olan iqtisadi inkişafın dinamikasını və miqyaslarını göstərir.

Azərbaycanda son 15 ildə iqtisadiyyat 3,2 dəfə artmışdır. Ölkəyə 250 milyard dollar investisiya qoyulmuşdur. Bu investisiyaların təxminən yarısı xarici investorlar tərəfindən ölkəmizə gətirilmişdir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 20 faizini təşkil edir. Biz sosialyönümlü siyasət aparırıq. Son illər ölkəmizdə işsizliyin səviyyəsi kəskin şəkildə enmişdir və cəmi 5 faiz təşkil edir. Yoxsulluq təxminən 50 faizdən 5,4 faizə düşmüşdür. Davos Dünya İqtisadi Forumu Azərbaycanın iqtisadiyyatını rəqabət qabiliyyətinə görə 35-ci yerə layiq görmüşdür. İnklüziv İnkişaf İndeksinə görə Azərbaycan inkişaf edən ölkələr arasında 3-cü yerdədir. Bütün bu göstəricilər onu göstərir ki, Azərbaycanda həm iqtisadi, həm siyasi baxımdan çox sabit vəziyyət yaranıb, investisiyalar üçün çox gözəl mühit var. Biz İtaliya şirkətlərini ölkəmizə dəvət edirik, mövcud olan şəraitdən istifadə etmək üçün bütün qapılar açıqdır.

Azərbaycan regionun aparıcı dövlətidir. Bütün irimiqyaslı layihələr Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilir. Ötən ilin oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı oldu və bu dəmir yolu istifadəyə verildi. Bu, Avropa ilə Asiyanı bağlayan ən qısa yoldur.

Ölkəmiz Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Azərbaycan tərəfdaş ölkələrlə "Cənub qaz dəhlizi" layihəsini uğurla icra edib. Bu ilin may ayında layihənin Bakıda rəsmi açılışı oldu. Layihənin böyük hissəsini təşkil edən TANAP boru kəmərinin açılışı bu ilin iyun ayında Türkiyənin Əskişəhər şəhərində olmuşdur. Ümumi dəyəri 40 milyard dollar olan bu layihə Azərbaycan qazını Avropaya nəql edəcəkdir.

Azərbaycan sülhsevər, qədim sivilizasiyaya, qədim mədəniyyətə və tarixə malik olan bir ölkədir. Ölkəmizdə dini və ya milli zəmində heç zaman heç bir qarşıdurma olmayıb və bu gün də yoxdur. Əsrlər boyu Azərbaycanda müxtəlif dinlərin, mədəniyyətlərin, millətlərin nümayəndələri sülh, qarşılıqlı hörmət şəraitində yaşayıblar. Təsadüfi deyil ki, bu gün də Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Ölkəmizdə mütəmadi şəkildə multikulturalizmə həsr olunmuş beynəlxalq forumlar, mədəniyyətlərarası dialoq forumu keçirilir. Azərbaycanın bu təşəbbüsü BMT, UNESCO, ISESCO kimi mötəbər beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və dəstəklənir. 2008-ci ildə Bakıda Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin mədəniyyət nazirlərinin görüşü keçirilmişdir. Bu təşəbbüsə "Bakı Prosesi" adı verilmişdir. "Bakı Prosesi" bu il 10 illiyini qeyd edir. Bu proses davam edir, millətlər və xalqlar arasında səmərəli dialoqun qurulmasına xidmət edir.

Azərbaycan sülhsevər ölkədir. Biz qonşularımızla və digər dövlətlərlə siyasətimizi qarşılıqlı maraq və qarşılıqlı hörmət əsasında qururuq. Lakin təəssüf hissi ilə qeyd etməliyəm ki, artıq 25 ildən çoxdur Azərbaycan xalqı qonşu Ermənistanın işğalçı siyasətindən əziyyət çəkir. Bu siyasət nəticəsində ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal altındadır, 1 milyon soydaşımız məcburi köçkün və qaçqın vəziyyətində yaşayır. Təkcə Xocalı faciəsi nəticəsində bir gecə ərzində 600-dən çox günahsız insan, o cümlədən qadınlar, uşaqlar, yaşlılar vəhşicəsinə öldürülmüşdür. Mindən çox insan itkin düşmüşdür. On dörd ölkə Xocalı faciəsini rəsmən soyqırımı kimi tanıyıb. BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamə erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Lakin Ermənistan beynəlxalq hüququn normalarını kobudcasına pozaraq işğalçı siyasətini davam etdirir. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan sülhsevər ölkədir, biz danışıqlar aparırıq. Biz hesab edirik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn normaları əsasında öz həllini tapmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, Dağlıq Qarabağ və ətrafında yerləşən 7 rayon işğaldan azad olunmalıdır, bütün qaçqınlar və məcburi köçkünlər öz doğma yurdlarına qayıtmalıdır. Ümidvaram ki, İtaliya ATƏT-in fəaliyyətdə olan sədri kimi münaqişənin həllində böyük rol oynayacaq.

Əziz dostlar, mən bir daha qeyd etmək istəyirəm ki, sizin gözəl Roma şəhərində yenidən olmağımdan çox şadam. Mən böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, bizim əlaqələrimiz - siyasi, iqtisadi və humanitar əlaqələrimiz çox yüksək səviyyədə inkişaf edir. Mən xüsusən humanitar sahədə olan əlaqələri qeyd etmək istəyirəm. Xanım sədr bu haqda söylədi, hesab edirəm ki, insanları və xalqları bir-birinə daha yaxın edən, daha dost mühit yaradan məhz humanitar sahədir, elmdir, mədəniyyətdir, təhsildir və bu sahələrdə biz böyük nailiyyətlər əldə etmişik. Mən bir daha böyük məmnuniyyətlə qeyd etmək istərdim ki, İtaliya-Azərbaycan münasibətləri müsbət dinamika ilə inkişaf edir. Əminəm ki, xalqlarımız arasında olan dostluq münasibətləri bundan sonra da güclənəcəkdir.

Mən sizin hər birinizə bu tədbirdə iştirak etdiyinizə, qonaqpərvərliyinizə görə bir daha dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun.

* * *

Sonra konfrans işini panel iclaslarla davam etdirib. Çıxışlarda tədbirin əhəmiyyəti xüsusi qeyd edilib. Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddət ərzində atdığı mütərəqqi addımlardan ətraflı bəhs olunub. Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizdə dövlətçilik ənənələrinin formalaşmasında mühüm rol oynayıb. Yüz il bundan əvvəl formalaşan Azərbaycan parlamentində müxtəlif millətlərin nümayəndələrinin təmsil olunması mühüm addım kimi qiymətləndirilib.

Çıxışlarda İtaliya-Azərbaycan əlaqələrinin müxtəlif sahələrdə inkişaf etdiyi bildirilib. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu xüsusi vurğulanıb. Heydər Əliyev Fondunun ikitərəfli münasibətlərin inkişafına töhfəsi qeyd edilib.

Sonda Azərbaycan Xalq Cümhuriyyəti haqqında qısa film nümayiş olunub.

## İtaliya Senatının sədri tərəfindən Azərbaycanın Birinci vitse-prezidentinin şərəfinə rəsmi nahar verilib

Sentyabrın 25-də Romada Custiniani sarayında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın şərəfinə İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati tərəfindən rəsmi nahar verilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva saraydakı "Konstitusiya", "Qırmızı" və "Güzgülü" zallarında olub. Qeyd edək ki, bu bina İtaliyanın paytaxtı Roma şəhərinin ən qədim və tarixi tikililərindəndir. İtaliyanın ilk konstitusiyası məhz burada imzalanıb.

Sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın şərəfinə İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati tərəfindən rəsmi nahar verildi.





# Romada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi ziyafət verilib







Sentyabrın 25-də Romada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi ziyafət verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi ziyafətdə iştirak edib.

Əvvəlcə İtaliyanın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban ƏLİYEVA tədbirdə çıxış etdi.

Birinci vitse-prezident qonaqları salamlayaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixinə nəzər saldı. Diqqətə çatdırdı ki, həmin dövrdə ölkəmiz üçün çox vacib addımlar atıldı: Azərbaycanda demokratiya institutları formalaşmağa başladı, azad seçkilər nəticəsində çoxmilli və çoxpartiyalı parlament yaradıldı, ölkəmiz üçün bir sıra vacib qanunlar qəbul edildi, milli ordumuz yarandı. "Biz ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşırıq. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi Azərbaycanda və tərəfdaş ölkələrdə geniş şəkildə qeyd olunur", - deyən Birinci vitse-prezident belə bir gecənin Azərbaycana dost olan İtaliyada, bu ölkənin gözəl paytaxtında - Romada keçirilməsindən məmnunluğunu ifadə etdi.

Bu gün Azərbaycanın zəngin, qədim tarixə və mədəniyyətə malik olduğunu, Şərqlə Qərb arasında - qədim İpək Yolu üzərində yer-






ləşdiyini deyən Mehriban Əliyeva əsrlər boyu burada müxtəlif sivilizasiyaların, mədəniyyətlərin, dinlərin, millətlərin nümayəndələrinin sülh, qarşılıqlı hörmət şəraitində yaşadıqlarını vurğuladı. "Biz fəxr edirik ki, bu ənənələr bu gün də qorunub saxlanılır. Azərbaycanda multikulturalizm, dözümlülük, qarşılıqlı hörmət artıq həyat tərzidir", - deyən Birinci vitse-prezident bu gün ölkəmizin dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınmasının təsadüfi olmadığını, Azərbaycanda millətlərarası dialoqun qurulmasına həsr olunan bir sıra beynəlxalq tədbirlərin keçirildiyini və belə tədbirlərin BMT, UNESCO, ISESCO kimi mötəbər beynəlxalq təşkilatlar tərəfindən dəstəkləndiyini vurğuladı.

Ölkəmizin müstəqillik illərində qazandığı nailiyyətlərdən danışan Mehriban Əliyeva müxtəlif sahələrdə əldə edilən uğurları qeyd etdi. Azərbaycanın beynəlxalq arenadakı nüfuzunun artdığını deyən Birinci vitse-prezident 2011-ci ildə ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildiyini, Azərbaycanın həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvü olduğunu, 2008-ci ildə Bakı şəhərində Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin görüşünün təşkil olunduğunu, bu təşəbbüsə "Bakı Prosesi" adının verildiyini bildirdi. Vurğuladı ki, "Bakı Prosesi" xalqlar və millətlər arasında səmərəli dialoq qurmağa xidmət edir.

İtaliya-Azərbaycan münasibətlərindən danışan Mehriban Əliyeva bildirdi ki, əlaqələrimiz strateji tərəfdaşlıq əsasında inkişaf edir, həm siyasi, həm də iqtisadi sahədə uğurlu əməkdaşlıq qurulub. Bu gün Azərbaycanda çox sağlam investisiya mühitinin mövcudluğunu bildirən Birinci vitse-prezident İtaliyanın iş adamlarını ölkəmizə dəvət etdi.

Humanitar sahədəki əlaqələrə xüsusi toxunan Birinci vitse-prezident son illər Azərbaycandan İtaliyaya təhsil almaq üçün gedən tələbələrin sayının artdığını xoş hal kimi dəyərləndirdi. Həm Azərbaycanda, həm də İtaliyada qarşılıqlı mədəniyyət günlərinin keçirildiyini, müxtəlif sərgilərin, konsertlərin, görüşlərin baş tutduğunu söylədi. "Mən qeyd etmək istəyirəm ki, Romanın məşhur "Villa Borghese" parkında dahi Azərbaycan şairi Nizami Gəncəviyə ucaldılan abidə Azərbaycan xalqı tərəfindən çox böyük hörmətlə qarşılanır və çox yüksək qiymətləndirilir", - deyən Mehriban Əliyeva bu sahədə gələcəkdə də əməkdaşlığın möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

Azərbaycanın Birinci vitse-prezidenti "Milan Ekspo" sərgisində Azərbaycan pavilyonunun ən çox ziyarət edilən pavilyonlardan biri olduğunu qeyd edərək bildirdi ki, ölkəmiz "Ekspo-2025" Ümumdünya Sərgisinə evsahibliyi etməsi üçün Bakı şəhərinin namizədliyini irəli sürüb. "Bizim bu sahədə böyük təcrübəmiz var. Bakıda, paytaxtımızda dəfələrlə böyük beynəlxalq tədbirlər keçirilib və ümidvaram ki, əgər bizim namizədliyimiz qalib gəlsə, biz gözəl bir beynəlxalq tədbir keçirməyə nail olacağıq", - deyən Mehriban Əliyeva İtaliyanın bu sahədəki təcrübəsinin əhəmiyyətini də vurğuladı.

İtaliyanın iqtisadiyyat və maliyyə naziri Covanni TRİAN ziyafətdə çıxışında maddi və mədəni zənginliyə malik Odlar Yurdu Azərbaycanın böyük təbii ehtiyatlarının olduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, Azərbaycan bu təbii ehtiyatlardan səmərəli istifadə edərək ölkənin sürətli inkişafına nail ola bilib və dünya iqtisadiyyatında mühüm rol oynayır.

Bu gün Azərbaycanda təhsilə, elmə böyük diqqətin ayrıldığını bildirən nazir cari ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edilməsinin əhəmiyyətinə toxundu. O, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycanın böyük inkişaf yolu keçdiyini, bu uğurların əsasında Azərbaycan rəhbərliyinin insan kapitalına böyük diqqət yetirdiyinin durduğunu dedi. Nazir "Ekspo-2025"ə Bakının namizədlik üçün seçdiyi mövzunun "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" olduğunu xatırladaraq onun əhəmiyyətini vurğuladı.

Azərbaycan-İtaliya əlaqələrindən bəhs edən Covanni Trian 2017-ci ildə ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünün qeyd olunduğunu bildirdi və bu gün ölkələrimiz arasında əlaqələrin genişləndiyini məmnunluqla vurğuladı. O qeyd etdi ki, Azərbaycan Cənubi Qafqaz regionunda çox mühüm ölkədir. Asiya ilə Avropa arasında körpü rolunu oynayan Azərbaycan sabitlik məkanıdır, qədim İpək Yolunun mərkəzindədir. Nazir bildirdi ki, bu gün Azərbaycan zəngin mədəniyyətinə, qədim adət-ənənələrinə əsaslanaraq yeni təşəbbüslərlə çıxış edir. Bu təşəbbüslər mədəniyyətlər və xalqlar arasında əlaqələrin genişlənməsinə xidmət edir.

Heydər Əliyev Fondunun İtaliyada mədəni irsin qorunması istiqamətində həyata keçirdiyi layihələrdən danışan nazir bunlara görə Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını ifadə etdi. O, Azərbaycan ilə İtaliya arasında qarşılıqlı sərmayə qoyuluşu sahəsində əməkdaşlığın genişləndirildiyini bildirdi, Azərbaycanın Avropanın, o cümlədən İtaliyanın enerji təhlükəsizliyində mühüm rol oynadığını vurğuladı. "Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi və müasirləşdirilməsi istiqamətində mühüm addımlar atır. Bizim strateji tərəfdaşlığımız ticari əlaqələrimizin möhkəmlənməsinə töhfə verir. Biz sənaye sahələrinə qarşılıqlı sərmayələr yatırırıq, biz birgə çalışırıq", - deyə nazir Covanni Trian vurğuladı.

Sonra Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə dair sənədli film nümayiş etdirildi.

Ziyafət Azərbaycan musiqilərindən ibarət konsert proqramı və milli mətbəximizin nümunələrinin təqdimatı ilə davam etdirildi.

Tədbir çərçivəsində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan sərgi maraqla qarşılandı.

Sərgidə Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi tarixi yol, onun yaradıcıları və qazandığı uğurlar barədə məlumat verilir. Burada, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti, diplomatik uğurları, o dövrdə hərbi, mədəni, sənaye sahələrində həyata keçirilən islahatlar barədə də geniş məlumatlar yer alıb. Sərgidə, eyni zamanda, Azərbaycanın müstəqilliyinin bərpası, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, ölkəmizin qazandığı nailiyyətlərlə bağlı məlumatlar təqdim olunur.

Sərgidə Heydər Əliyev Fondunun ölkəmizlə bağlı nəşrləri də nümayiş etdirilir.

# FAO-nun Romadakı baş ofisində "Azərbaycan otağı"nın açılışı olub







Sentyabrın 25-də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Romadakı baş ofisində "Azərbaycan otağı"nın açılışı olub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri Leyla Əliyeva açılışda iştirak edib.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktorunun müavini Laurent Tomas Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanı qarşıladı.

Əvvəlcə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktorunun müavini Laurent Tomas ilə görüşü oldu.

Görüşdə Heydər Əliyev Fondunun və IDEA İctimai Birliyinin BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə əməkdaşlığı yüksək qiymətləndirildi, əlaqələrin daha da genişləndirilməsi ilə bağlı müzakirələr aparıldı.

Baş direktorun müavininə IDEA, FAO və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə həyata keçirdiyi layihə çərçivəsində Azərbaycanın 11 rayonunda aztəminatlı ailələr üçün salınmış meyvə bağları barədə məlumat verildi.

Söhbət zamanı "Sıfır aclıq" Konsepsiyasının icra vəziyyəti ilə bağlı, həmçinin münaqişədən əziyyət çəkən ölkələrdə və Afrika ölkələrində aclığın aradan qaldırılması üçün mümkün əməkdaşlığa dair fikir mübadiləsi aparıldı. Dünyada 870 milyon insanın hələ də aclıq və azqidalanmadan əziyyət çəkdiyi bir vaxtda ərzaq məhsullarının üçdəbir hissəsinin tullantıya getməsinin qəbuledilməz olduğu vurğulandı.

Sonra "Azərbaycan otağı"nın açılışı oldu.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktorunun müavini Laurent Tomas otağın rəmzi açılışını bildirən lenti kəsdilər.



FAO ilə Azərbaycanın birgə layihəsi olan bu gözəl otaqda təşkilatın fəaliyyəti üçün bütün şəraitin mövcud olduğunu deyən Laurent Tomas bildirdi ki, burada təşkilatın əməkdaşları ən müasir imkanlardan istifadə edə biləcəklər. "Otaqda ən qabaqcıl texnoloji avadanlıqla yanaşı, Azərbaycanın qədim mədəniyyətini əks etdirən əşyalar da var. Bu mənada otağın alov formalı divarları Odlar diyarını təcəssüm etdirir", - deyən Laurent Tomas otaqda buta naxışını xatırladan dizaynı da qeyd etdi. İclas otaqlarından gözəl mənzərənin açıldığını, mədəni və bədii nöqteyi-nəzərdən otağın çox cəlbedici olmaqla yanaşı, həm də çox praktiki olduğunu söyləyən Laurent Tomas vurğuladı ki, otaq BMT binaları üçün tətbiq olunan ən yüksək təhlükəsizlik tədbirlərinə cavab verir. Laurent Tomas FAO-nun baş direktoru adından təşkilatın öz əhəmiyyətli məqsədlərinə çatması istiqamətində səmərəli fəaliyyət göstərməsi üçün bu faydalı töhfəyə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirdi.

Heydər Əliyev Fondunun vitse-prezidenti **Leyla ƏLİYEVA** dedi:

- Hörmətli baş direktorun müavini Laurent Tomas.

Yaratdığınız bu fürsətə görə sizə təşəkkürümü bildirmək istəyirəm. Biz açılış lentini kəsəndə mən bunun yeni və xüsusi bir başlanğıc olduğunu düşündüm. İnanıram ki, bu açılış FAO ilə münasibətlərimizin yeni mərhələyə qədəm qoymasını təcəssüm etdirir. FAO-nun baş ofisində bir parça Azərbaycanın olması, burada Azərbaycanın mədəniyyətinin və milli ruhunun əks etdirilməsi, şübhəsiz, buraya gələn insanları bizim gözəl ölkəmizi, qonaqpərvər xalqımızı ziyarət etməyə sövq edəcək. Əminəm ki, bu ofis dünyamıza çoxlu müsbət dəyişikliklər gətirəcəkdir. Çox sağ olun.

* * *

Məlumat verildi ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Romadakı baş ofisində "Azərbaycan otağı" Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə təsis edilib. FAO-nun ofisində müxtəlif ölkələrin otaqları mövcuddur. Burada MDB ölkələri arasında ilk dəfə məhz Azərbaycanın adını daşıyan otaq yaradılıb. Otağın tərtibatında Azərbaycanın milli ornamentlərindən, musiqi alətlərindən, xalçalarından istifadə olunub. Qədim tariximizin, zəngin mədəni irsimizin, ümumilikdə, ölkəmizin təbliği baxımından bu cür layihələr mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, Azərbaycan 1995-ci ildən FAO-nun üzvüdür. Ölkəmizdə qurumun layihə əlaqələndirmə ofisi 2007-ci ildən fəaliyyət göstərir. Azərbaycanda təşkilatın ilk əlaqələndirmə və tərəfdaşlıq ofisi də var.

Xatırladaq ki, Leyla Əliyeva humanitar və ekologiya sahəsindəki fəaliyyətinə görə FAO-nun xoşməramlı səfiri adına layiq görülüb. Bu qurum dünyada aclıqla mübarizə, ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatının səmərəliliyinin artırılması, sağlam ərzaq sistemlərini yaratmaq kimi vəzifələri qarşısına məqsəd qoyub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın fəaliyyəti isə bu məqsədlərə nail olmağa töhfə verir.

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan ədliyyəsi ölkədə hüququn aliliyinin təmin edilməsinə layiqincə xidmət edir

Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqı özünün azadlığı və müstəqilliyi uğrunda daim mübarizə aparıb, nəhayət XX əsrin əvvəllərində, dünyanın siyasi xəritəsinin yenidən formalaşdırıldığı bir vaxtda öz istiqlaliyyətini elan edib. 1918-ci il may ayının 28-də Şərqdə ilk demokratik dövlət quruluşu kimi yaranan Azərbaycan Xalq Cümhuriyyəti yeni yüzillikdə müstəqillik tariximizin başlanğıcı kimi tarixə yazılıb. Bu dövlət cəmi 23 ay mövcud olmasına baxmayaraq xalqımızın milli dövlətçilik salnaməsini zənginləşdirib, müstəqil yaşaya bilməyə qadir olmasını sübuta yetirib.

Xalq Cümhuriyyətinin qəbul etdiyi "İstiqlal Bəyannaməsi" əhəmiyyətinə, hüquqi prinsiplərin əhatəliyi və zənginliyinə görə Konstitusiya aktına bərabər olan ilk hüquqi sənəd olub. Həmin sənəddə Azərbaycan ərazilərinin hüdudları müəyyənləşdirilib, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri, demokratik dövləti səciyyələndirən əsas xüsusiyyətlər - hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqları, eləcə də Şərqdə ilk dəfə qadınlara seçki hüququ verilməsi əks olunub. Bəyannamədə Xalq Cümhuriyyətinin əsas məqsəd və niyyətinin hüquqi dövlətin qurulması olması təsbit edilib.

Cümhuriyyət yarandıqdan sonra qısa mövcudluğu dövründə, Azərbaycanda parlamentli respublika idarəçilik forması qurulub, parlament və hökumət münasibətləri formalaşıb, dövlətin siyasi aparatının yaradılması və inkişafı istiqamətində fəal, ardıcıl və məzmunlu tədbirlər həyata keçirilib. Hüquq sisteminin inkişafı üzrə görülən işlər xüsusilə qeyd olunmalıdır. O dövrdə hüquq sisteminin fəaliyyətinə böyük əhəmiyyət verilərək Ədliyyə Nazirliyi ölkənin yaradılması ilə bir gündə - 1918-ci il may ayının 28-də təsis edilmişdi. Bu mənada Azərbaycan ədliyyəsinin şanlı tarixi məhz Cümhuriyyətin yaranması ilə başlanır. Təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdu. Nazirlik yarandığı vaxt yalnız nazirdən ibarət olmuş, ştat vahidləri olmamış, 2018-ci ilin noyabr ayının 22-də Əsasnaməsi təsdiq edilərək, onun funksiya və səlahiyyətləri, həmçinin ştatları müəyyənləşdirilmişdi.

Ədliyyə Nazirliyi yaranarkən, Azərbaycanda məhkəmə sistemi də dağınıq vəziyyətində olub. Çarizm dövründə fəaliyyət göstərən məhkəmə idarələri fəaliyyətlərini dayandırmışdılar. Həmin vaxtlar azərbaycanlı hüquqşünasların yetişdirilməsinə törədilən maneələr, təhsilin aşağı səviyyədə olması müstəqillik illərində kadr çatışmazlığı ilə müşayiət olunurdu. Belə bir vaxtda Nazirlər Şurasının qərarları ilə 1918-ci il oktyabr ayının 1-də Bakı Dairə Məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa olundu. Daha sonra Məhkəmə Palatasının təsis edilməsinin labüdlüyü nəzərə alınaraq noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edildi.

Cümhuriyyətin 2-ci hökumətinin tərkibində Baş nazir Fətəli xan Xoyski həm də ədliyyə naziri vəzifəsini icra edirdi. Cümhuriyyət parlamentinin 26 dekabr 1918-ci il tarixli iclasında hökumətin qəbul etdiyi deklarasiyada qeyd edilirdi ki, ədliyyə hökumətin diqqət mərkəzində olan mühüm sahələrdən biridir. Məhkəmələr ədliyyənin daxilində olduğundan hətta qeyd olunurdu ki, məhkəmə orqanları olmadan heç bir dövlət mövcud ola bilməz. O dövrdə parlamentə təqdim olunmuş qanun layihələrindən 32-si məhz Ədliyyə Nazirliyi tərəfindən hazırlanmışdı.

1920-ci il aprel ayında Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra Ədliyyə Nazirliyi ləğv edildi, əvəzində isə Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil olundu. Lakin 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verildi. 1933-cü ildə Xalq Ədliyyə Komissarlığı növbəti dəfə təşkil edildi, amma 1959-cu ildə yenidən ləğv olundu.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq sabit fəaliyyəti təmin edildi. Nazirlik məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmişdi. Ümumiyyətlə, o dövrdə ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün əlverişli zəmin yaranmışdı.

Azadlığı uğrunda mübarizə aparan Azərbaycan xalqı 1991-ci ildə dövlət müstəqilliyini bərpa edə bildi. Buna baxmayaraq, müstəqilliyin qorunub saxlanılması çox çətinləşmiş, ölkənin məruz qaldığı hərbi təcavüz və bunun ağır nəticələri, ölkə daxilində qarşıdurmanın, anarxiyanın hökm sürməsi Azərbaycan xalqının ümidini sarsıtmış, yenicə əldə etdiyi müstəqilliyi itirmək təhlükəsi qarşısında qoymuşdu. Xalqın tələbi ilə 1993-cü ildə respublikaya rəhbərliyə qayıdan ulu öndər Heydər Əliyev nadir və iti dövlətçilik zəkası, cəsarəti və sarsılmaz iradəsi ilə xalqımızı və dövlətimizi böyük təhlükələrdən xilas etdi, Xalq Cümhuriyyəti dövründə təməli qoyulmuş müstəqil Azərbaycan ideyasını gerçəkləşdirdi, müstəqilliyimizi dönməz və əbədi etdi.

Ədliyyənin inkişafına xüsusi diqqət böyük öndər Heydər Əliyevin müstəqil Azərbaycanın rəhbərliyinə qayıdışından sonra da davam etdi. Hüquq sistemində inqilabi demokratik dəyişikliklərə səbəb olan məhkəmə-hüquq islahatı çərçivəsində Ədliyyə Nazirliyinin funksiya və səlahiyyətləri genişləndirildi. Məhz Heydər Əliyevin rəhbərliyi nəticəsində 1993-2003-cü illərdə hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edən ədliyyə orqanlarının inkişafına daim qayğı göstərildi, ədliyyə fəaliyyətinin yeni qanunvericiliyin tələbləri səviyyəsində qurulması məqsədilə müvafiq struktur dəyişiklikləri aparıldı, yeni qurumlar yaradıldı, onların işinin təşkili üzrə zəruri tədbirlər görüldü. Bütün bunların nəticəsində ədliyyə orqanlarının cəmiyyətdəki rolu daha da yüksəldi.

Ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması məqsədilə ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli sərəncamı ilə 22 noyabrın - 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edildiyi gün ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis olundu.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə və uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti daha da qüdrətlənir, möhkəmlənir, ölkədə müasir hüquq və idarəetmə sistemləri formalaşaraq hüquq münasibətləri modernləşdirilir. Təbii ki, hüquqi dövlətin uğurlu inkişafı möhkəm ədliyyə sisteminin formalaşdırılması ilə sıx bağlıdır. Bu baxımdan ədliyyə sisteminin müasirləşdirilməsi və müstəqil məhkəmə hakimiyyətinin daha da gücləndirilməsi üzrə mühüm addımlar atılıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı bir sıra mühüm sənədlər qəbul olunub, Ədliyyə Nazirliyinə yeni vəzifələr həvalə edilib, strukturu təkmilləşdirilib. Müstəqillik dövründə ilk dəfə olaraq dövlət başçısının 18 aprel 2006-cı il tarixli fərmanı ilə Ədliyyə Nazirliyi haqqında əsasnamə təsdiq edilərək ona hüquq-mühafizə orqanı statusu verilib, habelə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının 26 may 2006-cı il tarixli qanunu qəbul olunub və ölkə Prezidenti tərəfindən "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli fərman imzalanıb. Dövlət başçısının 6 fevral 2009-cu il tarixli sərəncamı ilə "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" təsdiq edilərək həyata keçirilib.

Ədliyyə Nazirliyi qanunvericilik sahəsində fəal iştirak edir, hüquqi aktların layihələrini insan hüquq və azadlıqları əsas meyar kimi rəhbər tutularaq onların beynəlxalq hüquqi sənədlərə uyğunluğuna xüsusi diqqət yetirilməklə hazırlayır, layihələr üzrə rəy verir, normativ-hüquqi və normativ xarakterli aktların hüquqi ekspertizasını aparır. "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu ilə nazirliyə yeni mühüm vəzifələr, o cümlədən Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin yaradılması və onun aparılması həvalə edilib.

Son illərdə penitensiar və icra xidmətlərində islahatlar davam etdirilərək işin səmərəli təşkili üçün mövcud olan problemlərin aradan qaldırılması, kadrların məsuliyyət hissinin artırılması üzrə ciddi tədbirlər həyata keçirilib, bu sahədə müvafiq qanunvericilik bazası təkmilləşdirilib. Məhkəmələrin infrastrukturunun yeniləşdirilməsinə böyük diqqət yetirilib. Ən başlıcası isə yeni nəsil hakim korpusu formalaşdırılıb. Artıq bir neçə ildir ki, ölkəmizdə regional inzibati-iqtisadi məhkəmələr də işə başlayıb, qısa müddət ərzində onlar üçün inzibati binalar ayrılıb, maddi-texniki təchizatla təmin edilib.

Bu il bir çox dövlət qurumları kimi Ədliyyə Nazirliyinin də yaranmasının 100-cü ildönümüdür. 1918-ci ildə yaranan, sovet dövründə dəfələrlə ləğv olunan, müstəqillik dövründə yeni formada fəaliyyət göstərən ədliyyə orqanları bu gün müstəqil Azərbaycan dövlətinin inkişafına, ölkədə hüququn aliliyinin təmin edilməsinə layiqincə xidmət edirlər. Öz işini Azərbaycanın dinamik inkişafı ilə uyğunlaşdıran ədliyyə orqanları ulu öndər Heydər Əliyevin ideyalarını, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrini rəhbər tutaraq bundan sonra da dövlətimizin və xalqımızın maraqlarının keşiyində şərəflə dayanacaqlar.

***Marif KAZIMOV,***
***Gədəbəy Rayon Məhkəməsinin hakimi***










## Ermenegildo Zegna - uğur və status simvolu

**Mükəmməl kişi kostyumu necə olmalıdır?**

- Yüksək keyfiyyətli nazik yun parçadan hazırlanmalıdır;
- Əl işi istifadə olunaraq, bədəninizə qüsursuz oturdulub, ustad dərzi tərəfindən tikilməlidir;
- Müasir və seçilən detalları olmalıdır;
- Zövqünüzü və statusunuzu nümayiş etdirməlidir.

Bütün bu tələblərə cavab verən kostyumları dünya şöhrətli Ermenegildo Zegna brendi istehsal edir. Bu brendə üstünlük verən kişi - özünə qayğı göstərən, ən yaxşısını seçən, dəbdəbəni sevən biridir. Ermenegildo Zegna pərəstişkarları arasında Con Travolta, Şon Penn, Cek Nikolson, Bryus Uillis, Plasido Dominqo, Met Deymon kimi məşhurlar var.

27-28 sentyabr tarixlərində Siz Ermenegildo Zegna brendindən məhz sizin üçün biçilib tikilmiş kostyum əldə edə biləcəksiniz. İki gün ərzində İtaliyadan xüsusilə dəvət olunmuş peşəkar dərzi müştərilərin ölçülərini götürəcək və seçim üçün eksklüziv parçalar təklif edəcək. Tədbirdə yalnız öncədən yazılmaq şərti ilə iştirak etmək olacaq.

Eksklüziv parçalardan söz açdıqda, Ermenegildo Zegna elit kişi geyimləri bazarında özünün istehsal etdiyi parçalardan istifadə edən yeganə brenddir. Bu parçalar üçün xammal bilavasitə onların vətənindən gətizdirilir: merinos yunu - Avstraliyadan, kəşmir - Monqoliyadan. Sirr deyil ki, Ermenegildo Zegna parçalarından başqa tanınmış brendlər də alıb istifadə edirlər, lakin bəzi nümunələrdə brend eksklüzivlik saxlayır. Bu, xüsusilə fərdi tikilişdə təklif olunan parçalara aiddir, məsələn, 11 mikron naziklikdə yun və ya çirki və suyu özünə hopdurmayan parça. Bunu nəzərə alaraq Ermenegildo Zegna kostyumlarının nüfuz və statusa bərabər olması təbiidir. Həmçinin bu kostyumlar tək geyim yox, həm də sərmayədir - onlardan 10 ilə qədər müddət ərzində istifadə etmək mümkündür.

**Ermenegildo Zegna 80-dən artıq ölkədə, 555 butikdə satılır. Bakıda siz brendin son kolleksiyası ilə Neftçilər pr-ti, 89 ünvanında tanış ola bilərsiniz.**
**Tədbirə yazılmaq üçün: tel: +99412 497 89 23; +99412 497 89 24; +99450 520 80 46**


# "Açıq mikrofon" paytaxtda əhali ilə ən səmərəli ünsiyyət vasitəsinə çevrilir





Ölkə rəhbəri cənab İlham Əliyevin tapşırığına əsasən Bakı şəhərinin bütün rayonlarında əhali ilə səyyar görüşlər olan "Açıq mikrofon" praktikası geniş sürətdə tətbiq edilir. Əsas məqsəd əhali ilə sıx təmasda olmaq, onların problemlərini və suallarını dinləməkdən və problemləri operativ aradan qaldırmaqdan ibarətdir.

Növbəti belə səyyar görüş rayon rəhbərliyinin, kommunal strukturların, idarə, müəssisə və təşkilatların nümayəndələrinin iştirakı ilə paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsində Şahin Xəlilov küçəsində olmuşdur. Burada həm də yeni təmir edilmiş abad məhəllənin və 300 nəfərlik xeyir-şər evinin açılışı keçirilmişdir.

Açılış mərasimində çıxış edən Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında əvəzolunmaz xidmətləri, onun siyasi irsinin təbliğinin əhəmiyyəti, ulu öndərin siyasi-iqtisadi və sosial kursunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və digər aktual məsələlərdən danışaraq, ölkə başçısının yerli icra hakimiyyətləri və yerli özünüidarəetmə orqanları qarşısında əhalinin sosial problemlərinin həlli istiqamətində zəruri tədbirlərin görülməsinə dair verdiyi tapşırıqlar, bu sahədə kompleks tədbirlərin keçirilməsinə xidmət edən Dövlət Proqramlarının icrası vəziyyətinə də toxunmuşdur.

Yeni salınmış abad məhəllə ərazidə yerləşən çoxmərtəbəli bina sakinlərinin istifadəsinə verilmişdir. Bu məhəllədə olan binaların 1100 kv.m dam örtüyü təmir edilmiş, 2000 kv.m asfalt örtüyü salınmış, 500 kv.m tamet, 4000 p/m bordür quraşdırılmışdır. Bloklarda 26250 kv.m, binaların fasadlarında 20000 kv.m emulsiya işləri görülmüş, 46 ədəd küçə işıqları, 268 ədəd blok işıqları quraşdırılmışdır. 3 dəst uşaq meydançası, 6 ədəd kölgəlik burada yaşayan ailələrin asudə vaxtlarını keçirmək üçün quraşdırılmışdır. Binaların ətrafında 16 ədəd izləyici kameralar quraşdırılmışdır. Ətrafda yaşıllaşdırma işləri aparılmış, 5000 kv.m ərazi yaşıllaşdırılmış, ağac və gül kolları əkilmişdir.



Açılış mərasimində iştirak edən ağsaqqallar burada yaşayan 500-ə yaxın ailə adından çıxış edərək əhalinin sosial problemlərinin həlli istiqamətində Qaradağ rayonunda müsbət təcrübənin olduğunu və bu işlərin bundan sonra da davam etdirilməsinin zəruriliyini qeyd etdilər. Çıxış edən sakinlər nümunəvi abad məhəllənin yaradılmasına görə ölkə rəhbərliyinə minnətdarlıqlarını çatdırdılar.

Görüşdə çıxış edən 20 nəfər sakin onları narahat edən məsələlərin həlli üçün müraciət etdilər və onların qaldırdıqları problemlərin həlli istiqamətində Qaradağ rayon icra hakimiyyəti başçısı aidiyyəti üzrə Rayon İcra Hakimiyyəti başçısı aparatı, kommunal strukturların, idarə, müəssisə və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verdi.

Daha sonra sakinlərə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan Dövlət Proqramı çərçivəsində qəsəbə ərazisində görüləcək işlər barədə ətraflı məlumat verilmişdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müxtəlif məsələlərlə bağlı problemlərinin həllinə köməklik göstərirlər.

Növbəti belə qəbul sentyabrın 25-də Astara Mərkəzi Rayon Xəstəxanasında keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbul zamanı nazir Oqtay Şirəliyev Astara, Lənkəran, Lerik və Masallı rayonlarından olan 28 vətəndaşın sağlamlıq problemləri, işlə təminatı və digər məsələlərlə bağlı müraciətlərini dinləyib.

Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

* * *

Mədəniyyət naziri Əbülfəs Qarayevin vətəndaşlarla növbəti görüşü sentyabrın 25-də Qusar şəhərində olub.

Nazir Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonlarından olan sakinləri qəbul edib. Heydər Əliyev Mərkəzində keçirilən qəbulda vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri səslənib.

Qəbulda vətəndaşların müraciətlərinin bir qismi həllini tapıb, digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

* * *

Sentyabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Mingəçevirdə Ağdaş, Bərdə rayonlarından, eləcə də Yevlax və Mingəçevir şəhərlərindən olan vətəndaşları qəbul edib.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda 20-dək vətəndaşın müraciətinə baxılıb. Vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar bu icmalara vəsaitlərin ayrılması, məscidlərin dini ədəbiyyatla təmin olunması və digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşlar dövlət komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən diqqətlə dinlənilib və bir çox müraciətlər yerindəcə həll olunub.

Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib.

# Bakıda IX Azərbaycan-Rusiya Regionlararası Forumu keçiriləcək

Sentyabrın 27-də Bakıda növbəti Azərbaycan-Rusiya Regionlararası Forumu keçiriləcək.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək IX Azərbaycan-Rusiya Regionlararası Forumu 2 gün davam edəcək. Tədbirdə Azərbaycan və Rusiya tərəfdən dövlət qurumlarının, parlamentlərin, icra hakimiyyəti orqanlarının nümayəndələrinin, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarların və KİV nümayəndələrinin iştirakı nəzərdə tutulur.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, forum çərçivəsində rəsmi şəxslərin və işgüzar dairələrin iştirakı ilə Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar Şuralarının geniştərkibli iclası, sənaye və energetika, turizm, kənd təsərrüfatı, kiçik və orta sahibkarlıq, nəqliyyat və tranzit, qadın sahibkarlığı və humanitar sahələrdə əməkdaşlığa dair "dəyirmi masa"lar, plenar iclas keçiriləcək.

Rusiya nümayəndə heyəti, həmçinin Azərbaycanda fəaliyyət göstərən bir sıra istehsal və emal müəssisələri ilə tanış olacaq.

# Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqanın Azərbaycana işgüzar səfəri

## Neft Fondunun gəlirlərinin şəffaf idarə edilməsi istiqamətində təcrübəsi yüksək qiymətləndirilib

Sentyabrın 25-də Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) icraçı direktoru Şahmar Mövsümov ölkəmizdə işgüzar səfərdə olan Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Şahmar Mövsümov ARDNF-in yaranma tarixi, milli neft strategiyası, Neft Fondunun məqsəd və vəzifələri, idarəetmə və büdcə sistemi, Fondun vəsaitlərinin idarə edilməsi və investisiya siyasəti, maliyyələşdirilən layihələr, şəffaflıq və hesabatlılığın təmin edilməsi sahəsində gördüyü işlər, makroiqtisadi sabitliyin və fiskal dayanıqlığın tənzimlənməsi istiqamətində atılan addımlar barədə təqdimatla çıxış edib.

Prezident İlham Əliyevin dəvəti ilə ölkəmizə səfər etdiyini qeyd edən Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa Azərbaycan ilə Monqolustan arasındakı mövcud əlaqələr barədə məlumat verib. ARDNF barədə təqdimatla tanış olan Monqolustan Prezidenti Neft Fondunun neft və qaz gəlirlərinin şəffaf idarə edilməsi istiqamətində mövcud təcrübəsini yüksək qiymətləndirib. Görüşdə mövcud və gələcək investisiya imkanları, əməkdaşlıq perspektivləri və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Xaltmaaqiyn Battulqa Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın biznes missiyasının cari ilin oktyabr ayında Monqolustana səfərinin nəzərdə tutulduğunu qeyd edib. O, Monqolustanda mövcud olan investisiya imkanlarının nəzərdən keçirilməsi üçün ARDNF-in nümayəndə heyətinin də qeyd olunan missiya tərkibində Monqolustana dəvət edib.

ARDNF-in icraçı direktoru Monqolustan Prezidentinə dəvət üçün təşəkkürünü bildirib. Şahmar Mövsümov ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu və Monqolustan Prezidentinin Azərbaycana səfərinin mövcud əlaqələrin daha da möhkəmlənməsinə təkan verəcəyini deyib.

Nümayəndə heyəti Neft Fondunun binası və muzeyi ilə tanış olub.

## Monqolustan Prezidenti AMEA-nın Yüksək Texnologiyalar Parkı ilə tanış olub

Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa sentyabrın 25-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Yüksək Texnologiyalar Parkı (YTP) ilə tanış olub.



AZƏRTAC xəbər verir ki, Monqolustan Prezidentinə AMEA-nın Yüksək Texnologiyalar Parkının fəaliyyəti barədə ətraflı məlumat verildi. Bildirildi ki, Yüksək Texnologiyalar Parkı elm və istehsalat adamlarının bir araya gəldiyi məkana çevrilməkdədir. Yüksək Texnologiyalar Parkı Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı il 8 noyabr tarixli sərəncamı ilə yaradılıb. AMEA-nın təcrübə-sənaye zavodunun ərazisində yaradılan bu parkda müxtəlif mühərrik, kompressor və hidravlik yağlar, plastik sürtkü materialları kimi məhsullar istehsal olunur. Qeyd edildi ki, YTP-nin əsas fəaliyyət istiqaməti elmlə istehsalat arasında birbaşa əlaqənin yaradılması, təcrübə və təcrübə-sənaye miqyasında yeni texnoloji proseslərin mənimsənilməsi, eyni zamanda, neft-kimya və texniki təyinatlı məhsulların istehsalından ibarətdir.

Diqqətə çatdırıldı ki, parkda hazırda 60 adda məhsul istehsal olunur və bu məhsullar xaricdən idxal edilən məhsullardan keyfiyyətcə qat-qat üstündür. Eləcə də "Zavod elmi-tədqiqat sınaq laboratoriyası"nda Yüksək Texnologiyalar Parkında istehsal edilən məhsulun, xammalın və yarımfabrikatların keyfiyyətinə nəzarət olunur.

Monqolustan Prezidenti AMEA-nın Yüksək Texnologiyalar Parkı ilə tanışlıqdan məmnun qaldığını bildirib.

## Heydər Əliyev Mərkəzi ilə tanışlıq

Azərbaycanda işgüzar səfərdə olan Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa sentyabrın 25-də Heydər Əliyev Mərkəzində olub.





AZƏRTAC xəbər verir ki, ali qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verilib. Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və ulu öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərin beynəlxalq aləmdə təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edir.

Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyi Monqolustan Prezidentinin böyük marağına səbəb olub. Ali qonağın diqqətinə çatdırılıb ki, ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində açılmış bu muzeyin "Fotoşəkillərdə əks olunmuş həyat", "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs, nailiyyətlər" adlı bölmələrində ulu öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur. Hər bir mövzu üzrə materiallar Azərbaycan və ingilis dillərində təqdim edilir.

Xaltmaaqiyn Battulqa mərkəzdə "Azərbaycan inciləri" sərgisi ilə də tanış olub. Bildirilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirilir. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimiz orijinal şəkildə - səsli formada təqdim olunur. Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Heydər Əliyev Mərkəzi ilə tanışlıq Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqada xoş təəssürat yaradıb.

## "Azər-İlmə" Xalçaçılıq Mərkəzi ilə tanışlıq ali qonaqda xoş təəssürat yaradıb

Azərbaycan Respublikasına işgüzar səfəri çərçivəsində Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa sentyabrın 25-də "Azər-İlmə" Xalçaçılıq Mərkəzində olub.



AZƏRTAC xəbər verir ki, ali qonaq burada xalçaçılıq emalatxanasına, tədris mərkəzinə və "Sehrli ilmələr" qalereyasına baxıb.

Monqolustan Prezidentinə məlumat verildi ki, respublikanın müstəqilliyinin ilk illərində yaranmış "Azər-İlmə"nin əsas məqsədi Azərbaycanın dərin tarixi köklərə malik xalçaçılıq sənətinin ənənələrini yaşatmaq və beynəlxalq miqyasda təbliğ etməkdir. Burada peşəkar xalçaçı-rəssamlar, toxucular, bərpaçı və boyaqçılardan ibarət yaradıcı kollektiv çalışır. Azərbaycan xalçalarının Bakı, Qazax-Borçalı, İrəvan, Naxçıvan, Qarabağ, Gəncə, Quba, Təbriz, Şirvan xalça qruplarının çeşniləri əsasında toxunan yüksək sıxlıqlı, orijinal tərtibatlı, şux koloritli yun və ipək xalçalar ABŞ, Almaniya, Rusiya, Fransa, Türkiyə, Avstraliya, Yaponiya, İsveçrə, İtaliya, Norveç, Cənubi Afrika və s. kimi ölkələrdə milli xalçaçılıq sənətimizi layiqincə təmsil edib, yüksək mükafatlara layiq görülüb.

Bildirilib ki, mərkəzdə xalçaçılıq tarixinə dair elmi-fundamental tədqiqatların nəticəsi olaraq müxtəlif kitablar, broşürlər, "Azərbaycan xalçaları" elmi-publisistik jurnalı nəşr olunur, televiziya filmləri istehsal edilir. Azərbaycan Milli Elmlər Akademiyasının "Xalçaşünaslıq" sektoru da məhz "Azər-İlmə" Xalçaçılıq Mərkəzinin bazası əsasında fəaliyyət göstərir.

Ali qonaq "Sehrli ilmələr" qalereyasında saxlanılan Azərbaycanın qədim xovlu və xovsuz xalça nümunələri ilə tanış oldu.

Sonra Prezident Xaltmaaqiyn Battulqa xalça emalatxanasında Azərbaycan xalçalarının toxunma prosesinə baxdı.

Xalçaçılıq Mərkəzi ilə tanışlıq ali qonaqda xoş təəssürat yaratdı.

## Monqolustan Prezidenti cüdo üzrə dünya çempionatının yarışlarına baxıb

Azərbaycanda işgüzar səfərdə olan Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa sentyabrın 25-də Milli Gimnastika Arenasında cüdo üzrə dünya çempionatının yarışlarına baxıb.




AZƏRTAC xəbər verir ki, çempionatda kişilər arasında 100 kiloqram çəki dərəcəsində çıxış edən monqolustanlı idmançı Otqonbaatar Lxaqvasuren yarımfinal mərhələsində gürcüstanlı Varlam Liparteliani ilə qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə Monqolustan idmançısı məğlub olub. Otqonbaatar Lxaqvasuren bürünc medal uğrunda qarşılaşmada yaponiyalı Aaron Volfa qalib gələrək çempionatı üçüncü pillədə başa vurub.

Qeyd edək ki, dünya çempionatında 125 ölkədən 800-dək cüdoçu birincilik uğrunda mübarizə aparır.

## Azərbaycanın müdafiə naziri bolqarıstanlı həmkarı ilə görüşüb



Sentyabrın 25-də müdafiə naziri general-polkovnik Zakir Həsənov Bakı Ekspo Mərkəzində keçirilən "ADEX 2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün ölkəmizə gələn Bolqarıstan Respublikası baş nazirinin ictimai asayiş və təhlükəsizlik üzrə müavini - müdafiə naziri Krasimir Karakaçanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Bolqarıstan arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri, təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərin təşkili, həmçinin ölkələrin yerləşdiyi regionlardakı hərbi-siyasi vəziyyət müzakirə olunub.

## Azərbaycanın müdafiə nazirinin "ADEX 2018" sərgisi çərçivəsində bir sıra ölkələrin nümayəndə heyətləri ilə görüşü olub

Sentyabrın 25-də Bakı Ekspo Mərkəzində keçirilən "ADEX 2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində müdafiə naziri general-polkovnik Zakir Həsənov bir sıra ölkələrin nümayəndə heyətləri ilə görüşlər keçirib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Zakir Həsənovun Türkiyə Respublikasının milli müdafiə nazirinin müavini Muhsin Dərənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə regional təhlükəsizlik, Azərbaycan ilə Türkiyə arasında hərbi əlaqələrin əsas istiqamətləri, hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın inkişaf etdirilməsi, ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili, eləcə də maraq doğuran digər məsələlər müzakirə olunub.

* * *

Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin müavini, general-leytenant Malik Zəfər İqbalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə müdafiə naziri Zakir Həsənovun görüşündə Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, regionda təhlükəsizlik, hər iki dövlətin orduları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, o cümlədən birgə tədbirlərin keçirilməsi məsələləri müzakirə olunub.

* * *

Zakir Həsənovun İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək nazirinin sənaye və tədqiqat üzrə müavini Reza Müzəffəriniyanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə isə regional təhlükəsizlik məsələləri, Azərbaycan ilə İran arasında hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil üzrə əməkdaşlığın inkişaf perspektivləri, ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili barədə fikir mübadiləsi aparılıb.

* * *

Müdafiə naziri Z.Həsənov Belarus Respublikasının Dövlət Hərbi Sənaye Komitəsinin sədri Roman Qolovçenko və Belarus müdafiə nazirinin silahlanma üzrə müavini - Silahlı Qüvvələrin silahlanma rəisi, general-mayor Sergey Simonenko ilə də görüşüb.

Görüşdə tərəflər Azərbaycan ilə Belarus arasında hərbi və hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri, müasir hərbi texnologiyaların tətbiqi imkanları, təcrübə mübadilələrinin keçirilməsi və qarşılıqlı maraq kəsb edən digər məsələləri müzakirə ediblər.

## *XİN:* "Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində növbəti təxribatçı addımı ağır fəsadlara yol aça bilər"

Kütləvi informasiya vasitələrinin yaydığı məlumata əsasən, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində sentyabrın 25-28-də hərbi aviasiyanın iştirakı ilə hərbi təlimlər keçiriləcək. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində növbəti təxribatçı addımı vəziyyətin daha da gərginləşməsinə və ağır fəsadlara yol aça bilər.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə sentyabrın 26-da Nyu Yorkda planlaşdırılan görüşü ərəfəsində Ermənistanın atdığı bu addım həmsədrlərin fəaliyyətinə və ümumiyyətlə, münaqişənin həlli üzrə danışıqlar prosesinə xələl gətirmək məqsədini güdür. Bir daha xatırladırıq ki, cəbhə bölgəsində vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət tam şəkildə Ermənistan rəhbərliyinin üzərinə düşür.

## *Müdafiə Nazirliyi:* Düşmənin istənilən uçuş vasitəsi tərəfimizdən dərhal neytrallaşdırılacaq

Azərbaycanın Müdafiə Nazirliyi bəyanat yayıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan hərbi-siyasi rəhbərliyi qoşunların qarşıdurma xəttində vəziyyətin gərginləşdirilməsinə yönəlmiş növbəti təxribat xarakterli addım atır. İşğal olunmuş ərazilərimizdə hərbi aviasiyanın cəlb olunması ilə təlim uçuşlarının keçirilməsi barədə düşmən tərəfinin yaydığı məlumat bunun əyani sübutudur.

Müdafiə Nazirliyi bəyan edir ki, ön xətdə yerləşən bölmələrimizin mövqelərinə yaxınlaşmağa cəhd göstərən düşmənin istənilən uçuş vasitəsi tərəfimizdən dərhal neytrallaşdırılacaq. Baş verə biləcək itkilərə görə məsuliyyət tamamilə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcək.

## Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edirlər

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 82 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara, Qızılhacılı, Bala Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Qaraqaşlı, Sarıcalı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycan-Ermənistan dövlət sərhədində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 26-da Azərbaycan və Ermənistan dövlət sərhədinin Gədəbəy rayonu istiqamətində növbəti monitorinqin keçirilməsi planlaşdırılır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru aparacaqlar.

# Azərbaycanın daxili işlər naziri İranda səfərdə olub





İran İslam Respublikasının daxili işlər naziri Əbdülrza Rəhmani Fəzlinin dəvəti ilə Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 24-25-də bu ölkədə rəsmi səfərdə olub.

AZƏRTAC xəbər verir ki, səfərin ilk günü Əbdülrza Rəhmani Fəzli general-polkovnik Ramil Usubov və onu müşayiət edən şəxslərlə görüşüb.

Qonaqları səmimi salamlayan, dəvətini qəbul etdiyinə görə nümayəndə heyətinə təşəkkürü bildirən İranın daxili işlər naziri son dövrlər qarşılıqlı səfərlərin intensivləşməsinin ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin inkişafından xəbər verdiyini, hər iki ölkə prezidentlərinin xalqlarımızın mənafeyini nəzərə alaraq qarşılıqlı münasibətlərin yaxınlaşmasına nail olduqlarını vurğulayıb.

Ölkələrimiz arasında qarşılıqlı hörmətə və dostluğa əsaslanan münasibətlərin qurulmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətlərini, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışarkən İrana səfərini xatırladan Əbdülrza Rəhmani Fəzli məhz bu böyük şəxsiyyətin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə dövlətlərimiz arasındakı qarşılıqlı münasibətlərin inkişaf mərhələsinə qədəm qoyduğunu məmnunluqla diqqətə çatdırıb. Qeyd edib ki, bu gün Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün istiqamətlərdə əldə olunan böyük uğurlar onları da sevindirir. Azərbaycanın təhlükəsizliyi və tərəqqisi İranın təhlükəsizliyi və inkişafı kimi qəbul olunur.

Əbdülrza Rəhmani Fəzli ölkəsində mövcud kriminogen durum, cinayətkarlıqla, o cümlədən narkotik maddələrin qaçaqmalçılığına qarşı hüquq mühafizə orqanlarının apardıqları mübarizədən danışaraq təkcə ötən il 800 ton narkotik maddənin müsadirə edildiyini, əlverişli coğrafi məkanda yerləşməsi səbəbindən İranın qaçaqmalçılar tərəfindən tranzit kimi istifadə olunduğunu, bu mübarizədə 3 mindən çox polis və sərhədçinin həlak olduğunu bildirib.

Səmimi görüşə, qonaqpərvərliyə, ətraflı məlumata və xoş sözlərə görə minnətdarlığını bildirən nazir Ramil Usubov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyini, dövlət başçılarının siyasi iradəsinin nəticəsi olaraq bu gün Azərbaycan-İran əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini, iki ölkənin münasibətlərinin səmimi dostluq və strateji tərəfdaşlıq xarakteri daşımasının xalqlarımızın və dövlətlərimizin mənafelərinə uyğun olduğunu diqqətə çatdırıb.

Bu gün regionda cərəyan edən proseslərin qarşılıqlı şəkildə transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi zərurətini meydana çıxardığını qeyd edən Ramil Usubov belə cinayətlərin, xüsusən narkotik qaçaqmalçılığına, insan və qanunsuz silah alverinə, beynəlxalq terrorçuluğa qarşı səmərəli mübarizə aparmaq üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin, informasiya mübadiləsinin artırılmasının əhəmiyyətini vurğulayıb.

Sonra nazir Ramil Usubov ölkəmizdə cinayətkarlıqla mübarizə sahəsində həyata keçirilən qətiyyətli tədbirlər, müstəqilliyin ilk illərində üzləşdiyimiz problemlər, Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun doğurduğu fəlakətli nəticələr, ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra həyata keçirilən islahatlar, onun rəhbərliyi ilə ölkəmizdə ictimai-siyasi sabitliyin, əmin-amanlığın bərpası istiqamətində hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının gördükləri qətiyyətli tədbirlər barədə məlumat verərək bu gün də həmin siyasətin milli mənafeyimizə uyğun olaraq uğurla davam etdirildiyini bildirib.

General-polkovnik Ramil Usubov bu günlərdə İranın Əhvaz şəhərində törədilmiş terror aktı nəticəsində çoxsaylı insan tələfatına görə həlak olanların ailələrinə başsağlığı verib, bu hadisənin Azərbaycanda da böyük kədər doğurduğunu diqqətə çatdırıb.

İki gün davam edən səfər çərçivəsində nazir Ramil Usubov İran İslam Şurası Məclisinin sədri Əli Laricani, Milli Təhlükəsizlik üzrə Ali Şuranın katibi Əli Şəmxani, Sərhəd Mühafizə Xidmətinin komandanı, general Qasem Rezayi və digər rəsmi şəxslər ilə görüşlər keçirib.

Daxili işlər naziri mütəşəkkil cinayətkarlıqla səmərəli mübarizə aparmaq üçün qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulmasının zəruriliyini vurğulayıb, bu istiqamətdə polis orqanları arasında təcrübə və informasiya mübadiləsinin aparılmasının əhəmiyyətindən söz açıb.

İranın narkotik maddələrin qaçaqmalçılığına qarşı apardığı qətiyyətli mübarizədə kifayət qədər təcrübə topladığını qeyd edən nazir Ramil Usubov Azərbaycan polisinin bu təcrübədən faydalana biləcəyini deyib, vətəndaşlarımızın gediş-gəlişlərinin artması, eləcə də turizmin inkişafı ilə əlaqədar hər iki ölkədə əmin-amanlığın, ictimai təhlükəsizliyin yüksək səviyyədə təmin olunmasında birgə səylərin bundan sonra da davam etdirilməsinin vacibliyini bildirib.

Görüşlərdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov görüşlərdə iştirak edib.

# Azərbaycanın XİN rəhbəri GUAM-Yaponiya Nazirlər görüşündə iştirak edib

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 73-cü sessiyası çərçivəsində keçirilmiş GUAM-Yaponiya Nazirlər görüşündə iştirak edib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasın yekununda "GUAM-Yaponiya mətbuat açıqlaması" qəbul edilib.

Mətbuat açıqlamasında tərəflər BMT Nizamnaməsində əks olunmuş prinsiplər də daxil olmaqla, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərini bir daha təsdiq ediblər və GUAM məkanındakı münaqişələrin suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət prinsipləri əsasında tezliklə həllinə yönəlik beynəlxalq səylərinin əhəmiyyətini vurğulayıblar.

Həmçinin, tərəflər regional və regionlararası müstəvilərdə sülh, təhlükəsizlik və sabitliyin təmin olunması məqsədi daşıyan genişləndirilmiş GUAM-Yaponiya əməkdaşlığının mühüm əhəmiyyətini qeyd ediblər və əlaqələrini gələcəkdə daha da genişləndirmək və möhkəmləndirməyə davam edəcəkləri öhdəliklərini bir daha təsdiq ediblər.

Hər iki tərəf yalnız GUAM-Yaponiya əməkdaşlığı üzrə deyil, həmçinin bir sıra regional və qlobal məsələlər üzrə yüksək səviyyəli dialoqu qoruyub saxlamağa maraqlı və hazır olduqlarını bir daha təsdiq ediblər.

# İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvlərindən biri kimi Azərbaycan onun əsas məqsəd və vəzifələrini həmişə dəstəkləyib

Regionumuzda və onun ətrafında son hadisələr xalqlarımız arasında daha sıx regional əməkdaşlığı inkişaf etdirmənin vacibliyini bir daha sübut etdi. Bu xüsusda İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) unikal rolu danılmazdır. İƏT-in fəal üzv dövlətlərindən biri kimi Azərbaycan təşkilatın əsas məqsəd və vəzifələrini həmişə dəstəkləyib və nəqliyyat, enerji, ticarətin asanlaşdırılması və sair sahələrdə regional sinerji və müxtəlif tərəfdaşlıq çərçivələrinin genişləndirilməsi istiqamətində xüsusi fəaliyyətlər formasında əhəmiyyətli töhfə verib.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Nazirlər Şurasının qeyri-rəsmi görüşündə söyləyib.

Nazir deyib ki, iqtisadiyyat və ticarət haqqında danışarkən, nəqliyyat və bağlılıq məsələsi göz önünə gəlir. Həm istehsalçı, bazar, həm də nəqliyyat dəhlizi kimi regionun rəqabətliliyinin artırılması məqsədilə regional infrastrukturun inkişafı adekvat şəkildə həll edilməlidir. Nəqliyyat imkanları İƏT regionunun vacib strateji rəqabət üstünlüyüdür. Ələlxüsus yol və dəmir yolu sektorunda bağlılığımızın genişləndirilməsi istiqamətində əməkdaşlığımız olduqca vacibdir.

Nazir bildirib ki, Azərbaycan nəqliyyat sistemini və xidmətləri iqtisadiyyatın əsas müqayisəli üstünlüklərindən birinə çevirərək özünün tranzit və logistika potensialını daha da genişləndirmək niyyətindədir. Biz bu vəzifənin artan effektinə qəti şəkildə inanırıq və bu səbəbdən biz bunu regional miqyasda layihələşdirmək istərdik. Bununla yanaşı, Azərbaycan Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin qarşılıqlı əlaqəsinə xidmət edəcək nəqliyyat infrastrukturunun modernləşdirilməsinin və diversifikasiya edilməsinin üzərində işləyir. Bundan başqa, ölkəmizdəki bütün nəqliyyat marşrutlarının konvergensiya nöqtəsi olan yeni Beynəlxalq Dəniz Ticarəti Limanı və onun Beynəlxalq Logistika Mərkəzinin tikintisi, Ələtdə azad iqtisadi zona ilə bağlı qanunun qəbulu region ölkələrinin tranzit qabiliyyətinin və beynəlxalq ticarət dəhlizlərinin rəqabətliliyini əhəmiyyətli dərəcədə artıracaq. Biz ticarət imkanları ilə bir-birimizə yardım etməliyik.

Buna görə də Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb nəqliyyat dəhlizlərinin təşviqi vasitəsilə İƏT regionunun tranzit potensialının artırılmasına töhfə verməkdədir. Azərbaycan və Türkiyə keçən il istifadəyə verilmiş və Çini Avropaya daha da yaxınlaşdıran strateji Bakı-Tbilisi-Qars dəmir yolunun iki vacib son məntəqələridir.

Həmçinin biz strateji məqsədi regionumuzda bir sıra ölkələrin qarşılıqlı şəkildə maraqlarını gücləndirmək olan Lapis-Lazuli nəqliyyat marşrutu vasitəsilə Avropa və Mərkəzi Asiya arasında davamlı logistikanın qurulması məqsədilə Əfqanıstan, Türkmənistan, Gürcüstan və Türkiyədəki tərəfdaşlarımızla işləyirik. Biz inanırıq ki, İƏT dəmir yolu şəbəkəsinin əlaqələndirilməsi və bölgənin birgə dəmir yolu infrastrukturunun inkişafı üzrə addımların atılması İƏT gündəliyinin prioritet məsələlərindən biri olmalıdır. İnanırıq ki, "Şimal-Cənub nəqliyyat dəhlizi"nin çatışmayan və vacib halqası olan Qəzvin-Rəşt-Astara (İran)-Astara (İran) layihəsinin erkən başa çatdırılması iqtisadi inkişafa yeni təkan verəcək, cəlb olunmuş ölkələrin, eləcə də bütün regionun nəqliyyat imkanlarını genişləndirəcək.

Yenilənmiş İnformasiya-Kommunikasiya Texnologiyaları (İKT) infrastrukturu olmadan müasir cəmiyyətlər rəqabətədavamlı ola bilməzlər. İKT qarşılıqlı uzlaşmanın ayrılmaz tərkib hissəsidir və fəxr edirəm ki, Azərbaycan, həmçinin müvafiq regional layihələrin inkişaf etdirilməsinə fəal cəlb olunub. Trans-Avrasiya Super İnformasiya Magistralı (TASIM) bunun bariz nümunəsidir.

Elmar Məmmədyarov deyib ki, Azərbaycan İƏT regionunda İKT əməkdaşlığının inkişafına sadiqdir və bu sektorda regional əməkdaşlığı asanlaşdırmaq istiqamətində səylərinin davamı olaraq Azərbaycan 2017-ci ildə müvafiq nazirlərin görüşünü təşkil etdi. Əminəm ki, nazirlərin müzakirələrinin nəticəsi İKT sahəsində ortaq məqsədlərə nail olunmasına töhfə verəcək.

Nazir qeyd edib ki, enerji əməkdaşlığı regional əməkdaşlıq proseslərinin əsasını təşkil edir. Bütün bunlar Azərbaycan yeni enerji strategiyası və enerji əməkdaşlığına yeni baxışla ortaya çıxdıqda başladı. Azərbaycan daha geniş regionda enerji təhlükəsizliyinin təmin edilməsində vacib tərəfdaş oldu. Biz boru kəməri infrastrukturunun diversifikasiyasının pioneri olduq. Biz Xəzər, Qara və Aralıq dənizlərini əlaqələndirdik. Bu gün Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum əməkdaşlığın əsl ruhunun simvolu olaraq qalır. Hazırda biz Transadriatik boru kəmərindən (TAP) və Transanadolu boru kəmərindən (TANAP) ibarət "Cənub qaz dəhlizi"nin üzərində çalışırıq. Biz 2020-ci ilə qədər "Şahdəniz" yatağından qazımızı Avropa İttifaqına çatdırmağı planlaşdırırıq. Bu enerji layihələrinin reallaşması enerji resurslarını diversifikasiya edəcək, eləcə də region daxilində və onun hüdudlarından kənarda enerji təminatını və nəqlini artıracaq.

Təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi uğurlu cəmiyyət və regional əməkdaşlığın qurulması baxımından vacib komponentdir. Təəssüf ki, son görüşümüzdən bəri regionda sabitlik və təhlükəsizlik daha da həssas olub, yeni münaqişə ocaqları peyda olub və regionun inkişafının perspektivləri ciddi şəkildə pozulub. Təəssüflər olsun ki, Ermənistan regional təhlükəsizliyi və sabitliyi təhlükə altına almaqla, eləcə də tammiqyaslı regional əməkdaşlığa maneə törətməklə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinin 20 faizinin işğalını davam etdirir. Ermənistan təcavüzkar siyasətində daha da irəli gedərək indi də işğal olunmuş Azərbaycan ərazilərində biznes, ticarət və sərmayələr cəlb etmək vasitəsilə qanunsuz işğala digər ölkələri cəlb etmək cəhdi göstərir.

Əməkdaşlığımız üçün çox vacibdir ki, bütün ölkələr Ermənistanın belə niyyətlərindən xəbərdardırlar və işğal olunmuş Azərbaycan torpaqlarında hər hansı növ sosial, iqtisadi və mədəni cəlbolunmalardan imtina edirlər. Mən bütün İƏT üzv dövlətlərini Azərbaycan Respublikasının işğal olunmuş torpaqlarında və ya oradakı rejimlə ticarət, iqtisadi və sərmayə fəaliyyətlərinə cəlb olunmaqla bağlı hər hansı cəhdlərin qarşısını almağa çağırıram.

Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılması və qaçqınların və məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışının təmin edilməsi təkcə Cənubi Qafqaz regionunda sülhə və təhlükəsizliyə töhfə verməyəcək, həmçinin genişmiqyaslı regiondaxili əməkdaşlığı möhkəmləndirəcək.

"Nəqliyyat və ticarət məsələlərimizə nə daxildir? Bu vəzifələr üzrə bizi nə istiqamətləndirə bilər? Belə ki, biz İslamabad Sammiti Bəyannaməsini, ən son isə Düşənbə Kommunikesini qəbul etmişik. Çıxışımda qeyd etdiyim bütün məsələlər orada əks olunub. Bizim, sadəcə, onlara fikir verməyimizə ehtiyac yoxdur, faktiki olaraq biz onları reallığa çevirməliyik", - deyə Elmar Məmmədyarov bildirib.

# Azərbaycanın xarici işlər naziri Nyu Yorkda bir sıra görüşlər keçirib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Nyu Yorkda Venesuela Bolivar Respublikasının xarici işlər naziri Jorge Areaza və Baham Adaları Birliyinin xarici işlər naziri Daren Alan Henfild ilə ikitərəfli görüşlər keçirib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nazirlər ikitərəfli münasibətləri müzakirə edib, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər, həmçinin BMT Baş Assambleyasının 73-cü sessiyasının gündəliyi üzrə fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 73-cü sessiyası çərçivəsində Yunanıstanın xarici işlər naziri Nikos Kotzias və Qananın xarici işlər və regional inteqrasiya naziri xanım Şirli Botçvey ilə görüşüb.

Xarici İşlər Nazirliyindən bildiriblər ki, görüşlərdə Azərbaycan-Yunanıstan və Azərbaycan-Qana əlaqələrinin mövcud səviyyəsi və inkişaf perspektivləri müzakirə edilib, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, o cümlədən beynəlxalq təşkilatlarla seçkilərdə qarşılıqlı dəstək mövzuları barədə fikir mübadiləsi aparılıb.

# "Fransızdilli" Ermənistanın Frankofoniya sərgüzəştləri

"newtimes.az" portalında oktyabr ayında İrəvanda keçirilməsi nəzərdə tutulan Beynəlxalq Frankofoniya Təşkilatının 17-ci zirvə görüşünün keçirilməsinin həm mahiyyət, həm də kontekst baxımından yanlış olduğu barədə "Fransızdilli" Ermənistanın Frankofoniya sərgüzəştləri" sərlövhəli analitik məqalə dərc edilib. AZƏRTAC məqaləni təqdim edir.

Məlum olduğu kimi, dünyanın 5 fərqli qitəsindən 890 milyon insanın yaşadığı 58 dövlətin təmsil olunduğu Beynəlxalq Frankofoniya Təşkilatının (BFT) 17-ci zirvə görüşünün 11-12 oktyabr tarixlərində Ermənistanın paytaxtı İrəvanda keçirilməsi planlaşdırılır. Təşkilatın Nizamnaməsinə əsasən, dövlətləri bu təşkilat çərçivəsində birləşdirən əsas amil fransız dili və fransız mədəniyyətinə yaxınlıq olsa da, dünyada sülhün və əmin-amanlığın, insan hüquq və azadlıqlarının təşviq edilməsi arzusu da BFT-nin missiyasını və fəaliyyətinin əsas prinsiplərini təşkil edir.

Elə əsl problem də buradan başlanır. Tədbirin Ermənistanda keçirilməsi iki nöqteyi-nəzərdən yanlışdır: birincisi mahiyyət, ikincisi isə kontekst baxımından.

Belə ki, əsası humanizm, sülh, insan hüquq və azadlıqları kimi dəyərlər üzərində qoyulmuş bir təşkilat XX əsrin ən böyük faciələrindən birini - Xocalı soyqırımını törətmiş və bunu ən yüksək səviyyədə dəfələrlə utanmadan və qürur duyaraq etiraf etmiş bir dövlətin ərazisində nəinki özünün zirvə görüşünü keçirməklə, hətta bu dövləti üzvlüyə qəbul etməklə nizamnaməsinə xəyanət etmişdir.

BFT-nin növbəti zirvə görüşünün başqa bir ölkənin beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərini pozmuş, ərazisinin bir hissəsini uzun illərdən bəri işğal etmiş, minlərlə günahsız insanı qətlə yetirmiş bir dövlətin ərazisində keçirilməsi təşkilatın təbliğ etdiyi dəyərlərə və prinsiplərə ciddi ziddiyyət təşkil edir. Axı soyqırımı törətmiş, təcavüzkar, terrorist bir dövlətlə bu təşkilata üzv olan digər dövlətləri bir-biri ilə hansı "ortaq dəyərlər" yaxınlaşdıra, bağlaya bilər?

2010-cu ildə İsveçrənin Montrö şəhərində keçirilmiş zirvə görüşündə təşkilat Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamə qəbul etmiş və qətnamədə iştirak edən dövlətlər ATƏT-in Minsk qrupunun səylərini dəstəklədiklərini və münaqişənin sülh yolu ilə həll olunmasını vurğulamışdılar.

Həmçinin təşkilat üzvlərinin ayrı-ayrılıqda və ya beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını tanıması faktı xüsusi qeyd edilməlidir. Belə ki, BFT üzvləri Rumıniya və Cibuti, həmçinin təşkilata müşahidəçi dövlətlər Meksika, Sloveniya, Bosniya və Herseqovina Xocalıda baş vermiş qətliamı rəsmi şəkildə soyqırımı kimi tanımışlar. Bununla yanaşı, üzvlərin bir qismi Avropa Şurasında və digər bir qismi İslam Əməkdaşlıq Təşkilatında Dağlıq Qarabağın işğal faktını təsdiqləmişdir. Hər iki təşkilata üzv dövlətlərin mötəbər bir təşkilatın işğalçı bir dövlətin ərazisində keçirilən zirvə görüşündə iştirakı təəccüb doğurur və həmin dövlətlərin əvvəlki siyasi bəyanatları ilə ziddiyyət təşkil edir.




Onu da nəzərə almaq lazımdır ki, BFT təməlində adından göründüyü kimi, fransız dili durur. Görəsən Ermənistan rəhbərliyinin yarıtmaz siyasəti nəticəsində yoxsul vəziyyətdə yaşayan və güzəranının qeydinə qalan Aşot dayı ilə Hayqanuş xala nə vaxtdan frankafon olublar? Faiz hesabı ilə götürsək, Ermənistanda əhalinin bəlkə də 0,01 faizi fransız dilində danışar və ya danışmaz. Özü də hələ hansı səviyyədə? Bu, bir əlavə sualdır.

Bununla yanaşı, siyasi və iqtisadi böhranla üzləşmiş Ermənistan dövlətinin zirvə görüşünü uğurla təşkil etməsi və iştirakçıların təhlükəsizliyini təmin edə bilməsi ciddi şübhələr doğurur. İqtisadi baxımdan, Köçəryan-Sarkisyan mafioz rejimi iqtidarda olduğu dövrdə aparılan təcavüzkar siyasət nəticəsində ölkəni təcrid vəziyyətinə salıb, dövlətin olub-qalan büdcəsini tamamən talayıb. Bunun nəticəsidir ki, Ermənistan bir ölkə olaraq hazırda səfalət içərisində yaşayır. Sıravi erməni vətəndaşlar ailələrini dolandırmaq üçün xarici ölkələrə üz tutur, oralarda nökərçilik edirlər. Ermənistan dövləti isə xarici ianələr hesabına mövcudluğunu davam etdirir. Belə bir vaxtda bu qədər xarici qonağı qəbul etməyə Ermənistanın nə maddi imkanı, nə də logistik şəraiti var. Bu səbəblə xalq bu qədər istənməyən qonağın onların çörəklərinə şərik çıxmasına narazıdır. Lakin Ermənistanda hökm sürən diktatura rejiminin xofu onlara narazılıqlarını ifadə etməyə əngəl olur.

İctimai-siyasi baxımdan, Sarkisyan mafioz rejiminin devrilməsinə baxmayaraq, yeni hakimiyyətin ölkədə "mütərəqqi" dəyişikliklər etməsi arzusu həm hökumət daxilində, həm də parlamentdə olan oliqarx qüvvələrin təzyiqi ilə reallaşmamış və ölkəni daha ağır vəziyyətin astanasına gətirmişdir. Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanesyan və Xüsusi İstintaq Xidmətinin rəhbəri Sasun Xaçatryan arasındakı telefon danışığı yeni hökumətin demokratiya və yenidənqurma pərdəsi altında həyata keçirdiyi siyasətin iç üzünü göstərir. Paşinyan hakimiyyəti dövründə Ermənistan nəinki irəliyə bir addım atıb, hətta ölkə dərəbəyliyə və xaosa sürüklənib. Ölkədə kimin kimə və nəyə xidmət etdiyi məlum deyil. Öz vətəndaşlarının təhlükəsizliyini təmin edə bilməyən bir dövlət bu qədər qonağın təhlükəsizliyini necə təmin edə biləcək? Tək-millətli və tək-dinli bir cəmiyyət bu qədər fərqli etnik struktura, inanca, dünya görüşünə malik insanlara nə qədər dözümlülük göstərə biləcək? Təhlükə hiss etdikdə öz xalqını belə güllələbaran etməyə çəkinməyən Ermənistan güc strukturları nümayəndə heyətinin qeydinə qalacaqmı?

Əldə olunan məlumatlara görə, hər hansı böyük tədbirə evsahibliyi etmək təcrübəsi və logistika imkanları olmayan Ermənistan və xüsusilə paytaxt Yerevan şəhəri ciddi çətinliklər məngənəsindədir. Nümayəndə heyətlərini qarşılamaq üçün xüsusi avtomobillər, həmçinin qonaqların yerləşdirilməsi üçün mehmanxana belə tapılmır. Tədbirə hazırlıq məqsədilə bu ölkəyə gələn yüksək səviyyəli nümayəndə heyətlərindən biri gündüz vaxtları Yerevan küçələrində soyğunçuluğa və zorakılığa məruz qalıb. Yerli polisə müraciət edən xarici nümayəndə heyəti polislə kriminal qrupların əlbir fəaliyyət göstərdiyi qənaətinə gəlib. Etik qaydalardan çıxış edərək bu nümayəndə heyətinin hansı ölkəni təmsil etməsi barədə məlumat vermirik. Digər bir halda isə öz ölkəsinin rəhbərinin səfərini hazırlamaq üçün Yerevana gələn protokol rəsmilərinin mehmanxana otaqlarından, demək olar ki, hər şeyləri oğurlanmışdır. Əksər ölkələr öz dövlət və hökumət başçılarının həyatını təhlükə altına qoymamaq və ya "sürpriz" hallarla üzləşməmək üçün bu tədbirdə aşağı səviyyəli nümayəndə heyətləri ilə təmsil olunmaq qərarına gəliblər.

Bundan başqa, tədbirin özü də müəmmalarla doludur. Məlum olmuşdur ki, təşkilat üzvləri arasında yekun sənədlə bağlı fikir ayrılıqları yaranmışdır və yekun sənədin qəbul edilməmə ehtimalı yüksəkdir. Digər tərəfdən, istisna edilmir ki, Ermənistan hər zamankı kimi təxribatçı əməllərə əl atmağa, tədbirin gündəliyinin siyasiləşdirilməsinə çalışa bilər. Nəzərə almaq lazımdır ki, sammitdə iştirak edən üzv dövlətlər arasında Azərbaycana dost münasibətdə olan İslam Əməkdaşlıq Təşkilatı üzv dövlətləri də vardır. Bu mənada Ermənistan yekun sənədə Azərbaycanın maraqlarına zidd olan müddəa təklif edərək həmin ölkələrin Azərbaycanla münasibətlərinə də zərbə vurmağa çalışacaq. Lakin Avropa Şurası və İƏT-ə üzv, eləcə də digər dost ölkələrin sammitdə iştirak etməsi həm tədbirin gedişində, həm də yekun sənəddə Ermənistan hakim dairələrinin Azərbaycana qarşı propaqanda məqsədli addımına mane olacaqdır. Elə Frankofoniya təşkilatının lideri hesab olunan Fransa özü Minsk qrupunun həmsədri kimi neytrallığını, imicini və bir tərəfdaş kimi Azərbaycandakı iqtisadi maraqlarını qorumaq naminə Ermənistanın özündə belə bir təxribatçı addımı əngəlləyən əsas ölkə olacaqdır. Bu isə Fransanı özünə qardaş hesab edən Ermənistanın özü üçün ən böyük zərbə olacaqdır.

**Newtimes.az**

# Azərbaycan yoxsulluğun 5 faizdən aşağı enməsinə nail olan 29 ölkə sırasındadır

"Qloballaşmanın intensivləşməsi dünyada yeni çağırışlar doğurur, bu yeni çağırışlara cavab vermək isə dövlətlər, hökumətlər qarşısında vacib tələblərdən biri kimi dayanır. Azərbaycan yoxsulluğun 5 faizdən aşağı enməsinə nail olan 29 ölkə sırasında yer alıb".

Bu fikirləri sentyabrın 25-də parlamentdə "Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində Milli Məclisin rolu" mövzusunda keçirilən konfransda parlamentin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov söyləyib.

Komitə sədrinin sözlərinə görə, ölkələr, hökumətlər və beynəlxalq təsisatlar bu çağırışlara vaxtında cavab vermək, yaranan yeni imkanlardan yararlanmaq üçün birgə fəaliyyətə məcburdurlar. Bu baxımdan BMT-nin kənd təsərrüfatına, ərzaq təhlükəsizliyinə dair həyata keçirdiyi uzunmüddətli tədbirlər təqdirəlayiqdir.

Azərbaycanda yoxsulluğun azaldılmasına, ərzaq təhlükəsizliyinin təmin edilməsinə dair dövlət proqramlarının təsdiq edildiyini söyləyən komitə sədri vurğulayıb ki, bu proqramların uğurla həyata keçirilməsi nəticəsində ölkəmizdə bu sahədə köklü dəyişikliklər baş verib: "Prezident İlham Əliyev hər zaman siyasətimizin mərkəzində insan amilinin olduğunu deyir. Bunun əyani sübutu kimi təkcə onu demək kifayətdir ki, son 15 ildə ölkədə ümumi daxili məhsul hər il orta hesabla 10-10,6 faiz, əhalinin hər nəferinə düşən ümumi daxili məhsul 3,8 dəfə artıb, minimum sosial standartların səviyyəsi, əhalinin gəlirləri dəfələrlə yüksəlib, inflyasiyanın aşağı səviyyədə saxlanılması təmin edilib. Bununla belə, dayanıqlı inkişaf məqsədlərində nəzərdə tutulan hədəflərə çatmaq üçün Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında Fərman imzalayıb".

BMT-nin İnkişaf Proqramı və BMT-nin Əhali Fondunun rezident nümayəndəsi Qulam İshaqzai bildirib ki, üç il əvvəl dünya liderləri aclığın, yoxsulluğun, ayrı-seçkiliyə gətirən amillərin aradan qaldırılması kimi bir sıra məqsədləri qəbul ediblər. Bunun mərkəzini təşkil edən əsas məsələ kənd təsərrüfatı və qidalanmadır. Bu sahədə Azərbaycanın konkret addımlar atması çox sevindiricidir.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) ölkəmizdəki Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmak bildirib ki, FAO Azərbaycanla əməkdaşlığını çox yüksək qiymətləndirir. Ona görə də FAO ilk dəfə olaraq 2015-ci ildə Azərbaycanda Tərəfdaşlıq və Əlaqələndirmə Ofisini açıb. Yeni Azərbaycan FAO-dan kömək alan deyil, tərəfdaş bir ölkə kimi dəyərləndirilir.

Azərbaycanın hər zaman beynəlxalq təşkilatlarla əməkdaşlıq etdiyini, ölkəmizlə BMT və onun bütün qurumları, o cümlədən FAO arasında çox geniş əməkdaşlığın olduğunu söyləyən iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova isə bildirib ki, BMT-nin Minilliyin İnkişaf Məqsədlərinin icrası ərəfəsində Azərbaycan əhəmiyyətli irəliləyişlərə nail olub. Ölkəmizdə ifrat yoxsulluq tamamilə aradan qaldırılıb, son 15 ildə mütləq yoxsulluq səviyyəsi on dəfə azalıb, ümumi daxili məhsul üç dəfədən, əhalinin gəlirləri on dəfədən çox artıb, işsizlik isə 5 faizə endirilib.

Kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talibov isə müzakirəyə çıxarılan "2030 Gündəliyi"nin bütün dünyada yüksək dəyərləndirildiyini diqqətə çatdırıb. Onun fikrincə, bu sənəd inkişaf səviyyəsindən asılı olmayaraq bütün dövlətləri fəaliyyətə səsləyir.

Konfransda mövzu ətrafında müzakirələr aparılıb, Milli Məclisin deputatları bir sıra təkliflər irəli sürüblər.

*Fərizə ƏHMƏDOVA,*
*"Azərbaycan"*

# Bakıda Çinin milli bayramı qeyd edilib





Sentyabrın 25-də Çinin Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Çin Xalq Respublikasının yaradılmasının 69-cu ildönümü münasibətilə rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət himnləri səsləndirildikdən sonra səfir Vey Cinhua çıxış edərək Çinin 69 il ərzində keçdiyi inkişaf yolundan danışıb, ölkədə iqtisadi və mədəni sahələrdə böyük tərəqqiyə nail olunduğunu söyləyib. O deyib ki, ötən 69 il ərzində Çin kasıb və zəif ölkədən dünyada ikinci güclü iqtisadiyyata malik bir ölkəyə çevrildi. 2018-ci il Çinin dünyaya açıq elan edilməsinin 40-cı ildönümüdür.

Səfir ölkəsində keçirilən böyük tədbirlər, reallaşdırılan mühüm layihələr barədə məlumat verib. O əlavə edib ki, bu il, həmçinin "Bir kəmər, bir yol" təşəbbüsünün fəaliyyətə başlamasının 5-ci ildönümüdür. Bu təşəbbüs çərçivəsində bir çox layihələr həyata keçirilib. 2018-ci ilin iyul ayınadək Azərbaycan ilə Çin arasında qarşılıqlı ticarət dövriyyəsi 616 milyon dollara çatıb. Çin Azərbaycanın 7-ci ən fəal ticarət tərəfdaşına çevrilib. Çin dövləti "Bir kəmər, bir yol" çərçivəsində iki ölkə arasında əlaqələri yeni səviyyəyə qaldırmaq üçün çalışmağa davam edəcək.

Bu gün Çin və Azərbaycan arasında diplomatik münasibətlərin sürətlə inkişaf etdiyini vurğulayan səfir ötən illər ərzində ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən Çin ilə əlaqələrin inkişaf etdirilməsi üçün böyük işlər görüldüyünü diqqətə çatdırıb. Səfir deyib ki, Çin və Azərbaycan sadiq dost və etibarlı tərəfdaşlardır. Diplomatik münasibətlər qurulduğu gündən ölkələrimiz arasında dostluq əlaqələri qarşılıqlı inam və hörmət əsasında inkişaf edir. Çin Azərbaycanın ənənəvi dostluq və səmərəli əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirir.

Diplomat əmin olduğunu bildirib ki, birgə səylər nəticəsində ikitərəfli münasibətlər xalqlarımızın mənafeyinə və maraqlarına uyğun olaraq bundan sonra daha da inkişaf edəcək.

Rəsmi qəbulda çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan hökuməti adından Çin xalqını təbrik edib, sülh və firavanlıq arzularını çatdırıb.

Çinin Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğunu deyən nazir ikitərəfli əməkdaşlığın bir çox sahələrdə sürətlə inkişaf etdiyini deyib. Şahin Mustafayev iki ölkə arasında genişmiqyaslı turizm müqaviləsinin imzalanması barədə razılığa gəlindiyini diqqətə çatdırıb. O, yüksək səviyyəli qarşılıqlı səfərlərin, imzalanan çoxsaylı sənədlərin əlaqələrimizin daha da dərinləşməsinə töhfə verdiyini söyləyib.

Nazir bildirib ki, 2015-ci ildə Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində ÇXR rəhbəri Si Cinpin ilə görüşü iki ölkə arasında əməkdaşlığın genişləndirilməsinə böyük töhfə verdi. Bu gün Çin Azərbaycanın ən böyük ticarət tərəfdaşlarındandır. Bu gün Azərbaycanda 110-dan çox Çin şirkəti qeydiyyatdan keçib. Çin Azərbaycan iqtisadiyyatına 779 milyon dollar investisiya yatırıb. Bizim ölkəmiz Çin və Avropa arasında vacib tranzit ölkə rolu oynayır. "Bir yol, bir kəmər" layihəsi çərçivəsində bir çox önəmli layihələr həyata keçirilir.

Qəbulda rəsmi şəxslər, Milli Məclisin deputatları, diplomatlar, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Psixoloji yardımla bağlı qanun layihəsi hazırlanıb

Sentyabrın 25-də Milli Məclisin Səhiyyə komitəsinin payız sessiyası çərçivəsində ilk iclası keçirilib. Komitə sədri Əhliman Əmiraslanov əvvəlcə 2018-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə hesabatı təqdim edib. Bildirilib ki, hesabat dövründə komitənin 7 iclası keçirilib. Bu iclaslarda 11 məsələ, 6 qanun layihəsi müzakirə edilib. Hesabat dövründə komitəyə 205 müraciət daxil olub, 86 vətəndaş qəbul edilib.

İclasda komitənin hesabat dövründəki fəaliyyəti məqbul qiymətləndirilib.

Gündəlikdəki məsələlərə toxunan Əhliman Əmiraslanov komitənin payız sessiyası üçün iş planı barədə məlumat verərək bildirib ki, bu müddət ərzində "Psixoloji yardım haqqında" qanun layihəsi və "İnsan orqan və ( və ya) toxumalarının transplantasiyası haqqında" qanuna dəyişikliklərin edilməsi barədə" qanun layihəsinin işlənməsi nəzərdə tutulub. Bundan başqa, bu ilin noyabr ayında 2019-cu il dövlət büdcəsi haqqında qanun layihəsinin Milli Məclisdə müzakirəyə çıxarılması gözlənilir.

Komitə sədrinin sözlərinə görə, payız sessiyası ərzində "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanun layihəsinin təkmilləşdirilməsinə və icbari tibbi sığiortanın tətbiqi ilə bağlı normativ-hüquqi aktlara dəyişikliklərin edilməsinə dair dinləmələr keçiriləcək.

Əhliman Əmiraslanmov icbari tibbi sığorta haqqında qanuna köklü dəyişikliklər edilməsinin vacibliyini qeyd edərək vurğulayıb ki, icbari tibbi sığortanın gələn il bütün respublikada tətbiqini asanlaşdırmaq üçün Milli Məclisin Səhiyyə komitəsi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi birgə müəyyən işlər görməlidir.

Komitə sədri bildirib ki, dərman vasitələri ilə bağlı narazılıqlar tam həllini tapmayıb və bununla bağlı qanunda müəyyən dəyişikliklər edilməlidir. Bundan başqa, sessiya ərzində "Vərəmlə mübarizə haqqında", eləcə də "Sanitariya epidemioloji salamatlıq haqqında" qanunlara dəyişikliklər edilməsi də nəzərdə tutulub.

İclasda çıxış edən deputat Qənirə Paşayeva 2019-cu ilin dövlət büdcəsinin müzakirələrində koxlear implantasiya və süni mayalanma kimi məsələlərin də nəzərə alınmasını təklif edib. O sağlamlıqla bağlı əhali arasında maarifləndirilmə işlərinin artırılması üçün komitə və media rəhbərləri arasında dinləmələr keçirilməsini məsləhət bilib.

Deputat Məlahət İbrahimqızı isə çıxış edərək gələn il bütün respublikada icbari tibbi sığortanın tətbiq olunacağı təqdirdə "Ailə həkimi haqqında" qanun layihəsinin yaz sessiyasında müzakirəyə çıxarılmasını təklif edib.

Deputat Rəşad Mahmudov da ürək-damar xəstəliklərinin icbari tibbi sığortaya daxil edilməsini təklif edib.

Komitənin sədr müavini Musa Quliyev isə hesab edir ki, icbari tibbi sığorta ilə bağlı ailə həkimi institutunun yaradılmasının hüquqi bazası olmalıdır və pasient hüquqları haqqında qanun mütləq qəbul edilməlidir. Hər iki məsələ ilə bağlı işçi qrupunun yaradılması təklif edilib.

İclasda həmçinin xarici tələbələrin icbari tibbi sığortası, pasientlərin hüquqlarının qorunması haqqında qanun layihələrinin hazırlanmasının vacibliyi qeyd edilib.

Yekunda komitənin payız sessiyası üçün İş Planı təsdiq edilib. Müzakirələrin yekununda baxılan məsələlər Milli Məclisin plenar iclasına tövsiyə olundu.

*F.ƏHMƏDOVA,*
*"Azərbaycan"*

# Mingəçevirdə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda regional konfrans keçirilib

Sentyabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Mingəçevir Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda regional konfrans keçirilib.

Dövlət komitəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə DQİDK və şəhər icra hakimiyyətinin rəhbər şəxsləri, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, yerli hüquq mühafizə orqanlarının rəhbərləri, YAP Mingəçevir şəhər təşkilatının fəalları, dini icma sədrləri, din xadimləri iştirak ediblər.

Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən birinci müavin İlham İsmayılov mövzunun aktuallığından danışaraq bildirib ki, ölkəmizdə dövlət quruculuğu prosesləri, dövlət-din münasibətlərinin tənzimlənməsi, cəmiyyətdə ictimai-siyasi sabitliyin bərqərar olunması, iqtisadiyyatın inkişafının dönməz xarakter alması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin diqqət yetirdiyi sahələrdən biri də xalqımızın milli-mənəvi dəyərlərə qayıdışının sürətlənməsi, dini abidələrə qayğı, dini bayramların dövlət səviyyəsində qeyd olunması istiqamətində görülən mühüm işlər idi. Bu siyasi kurs bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

İ.İsmayılov qeyd edib ki, ölkəmizdə sosial-iqtisadi inkişaf yüksək dinamika ilə davam edir. Azərbaycan regionun iqtisadi cəhətdən inkişaf etmiş lider dövlətinə çevrilməklə yanaşı, özünün dövlət-din münasibətləri modeli, tolerant və multikultural mühiti ilə də dünyanın bir çox dövlətlərinə nümunədir. Müxtəlif dini konfessiyaların nümayəndələri ölkəmizdə sərbəst şəkildə öz dini ayinlərini icra edirlər. Dövlət dini ibadət yerlərinə daim diqqət və qayğı göstərir.

DQİDK sədri Mübariz Qurbanlı çıxış edərək bildirib ki, müstəqilliyimizin bərpasından sonra dövlət-din münasibətləri, xalqımızın milli-mənəvi dəyərlərinin öyrənilməsi və təbliği yeni keyfiyyət mərhələsinə qaldırılıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük tarixə malik məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük xidmətdir. Nümunəvi siyasətin bu gün yeni formada özünü göstərdiyini deyən dövlət komitəsinin sədri Prezident İlham Əliyevin dinə qayğısından danışaraq vurğulayıb ki, Mənəvi Dəyərlərin Təbliği Fondunun və Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu diqqət və qayğının parlaq nümunəsidir. Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti olduqca təqdirəlayiqdir. Uğurla həyata keçirilən "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkədəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılır. Bütün bunlar ölkəmizdə dinə dövlət qayğısının bariz nümunəsi, ümumiyyətlə, dövlət-din münasibətlərinin ən yüksək məcrada davam etməsinin təzahürüdür.

Ölkəmizdə din sahəsində fəaliyyətin əsasən maarifləndirmə istiqamətində olduğunu qeyd edən M.Qurbanlı din adı altında müxtəlif zərərli qrupların fəaliyyətinin qarşısının alınmasında ideoloji müstəvidə görülən işlərin mühüm rol oynadığını vurğulayıb. DQİDK sədri dinin əsas fundamental dəyərlərindən kənara çıxaraq, zərərli təşviqatlar aparmaqla, xurafat yaymaqla insanları din adı altında başqa məqsədlərə yönəldən, onları silahlı münaqişələrə cəlb edən, digər mədəniyyətlərə və dinlərə qarşı qoyan radikal qruplaşmaların qarşısının alınmasının vacibliyinə diqqət çəkib. Bildirib ki, belə məqamlarda milli-mənəvi və islami dəyərlərimizin qorunub saxlanılmasına və təşviqinə böyük ehtiyac vardır.

Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi, Şirvan bölgəsi üzrə qazisi Əli Məmmədov dinə dövlət qayğısından, dini ibadətgahların inşa və təmir edilərək yenidən xalqın ixtiyarına verildiyindən bəhs edib. Natiq din xadimlərinin fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını, dövlət tərəfindən mütəmadi olaraq dini maarifləndirmə işinin təşkilinin daha da yaxşılaşdırılması məqsədilə maliyyə vəsaitinin ayrıldığını deyib.

Tədbirdə dini radikalizmə qarşı mübarizə, cəmiyyətin, xüsusən gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasının qarşısının alınmasında dini maarifləndirmənin rolu və önəmi kimi məsələlərə toxunulub, müzakirələr aparılıb.

# Uşaqlar zərərli informasiyadan qanunla qorunacaq

Ötən gün Milli Məclisdə Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirildi. İclasda komitə sədri Aqiyə Naxçıvanlı bildirdi ki, gündəlikdə yaz və növbədənkənar sessiyalar dövründə komitədə görülən işlər barədə hesabat, payız sessiyası üçün iş planının layihəsi və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun layihəsi haqqında məsələlər öz əksini tapıb.

Yaz və növbədənkənar sessiyalar dövründə komitənin 3 iclasının keçirildiyini deyən Aqiyə Naxçıvanlı məlumat verdi ki, bu müddət ərzində 4 məsələ və 2 qanun layihəsi müzakirə olunub. Bu ilin may ayının 23-də Milli Məclisdə "Azərbaycan ailə modeli: müasirlik və dəyərlər" mövzusunda geniş tədbir keçirilib. Tədbirdə əsasən ailə institutunun möhkəmləndirilməsi, gənc nəslin sağlam ruhda tərbiyə olunması, erkən nikahlar, boşanmalar, qeyri-rəsmi nikahlar və s. məsələlər ətrafında geniş müzakirələr aparılıb.

Komitə sədri qeyd etdi ki, yaz sessiyası ərzində komitənin ünvanına 149 məktub daxil olub, ərizə və şikayətlərin 69-u araşdırılmaq üçün aidiyyəti orqanlara göndərilib. Hesabat dövründə Milli Məclisdə 98 nəfər vətəndaş qəbul edilib.

"Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun layihəsi haqqında məlumat verən Aqiyə Naxçıvanlı söylədi ki, sənəd Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim olunub. Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub və sənədə birinci oxunuşda konseptual baxımdan qiymət verilərək bəzi təkliflər nəzərə alınmaqla ikinci oxunuşda müzakirə olunması üçün qərar qəbul edilib: "Bu qanun layihəsi sosial sifarişin nəticəsidir. Uşaqların sosial həyatına və sağlamlığına ziyan vuran məsələlərlə bağlı müddəaların qanunvericilik aktlarında təsbit olunmasına böyük ehtiyac var. Ölkəmizdə uşaqlara qarşı zorakılıq hallarının, pis vərdişlərin, erkən nikahların, uşaqların cinsi və sui-istifadə istismarının aradan qaldırılması məqsədi ilə qanunvericilik təkmilləşdirilməli və uşaqlara valideynlərin, müəllimlərin, ümumilikdə ictimai və dövlət nəzarəti gücləndirilməlidir".

Qanun layihəsi Azərbaycan Respublikasının Konstitusiyasına, "Uşaq hüquqları haqqında", "İctimai Televiziya və və Radio Yayımı haqqında", "Kütləvi İnformasiya Vasitələri haqqında" qanunlara, Uşaq Hüquqları Bəyənnaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq hazırlanıb. Sənəd uşaqların hüquq və azadlıqlarının, sağlamlığının və inkişafının qorunması, onların mənəviyyatına, psixi, fiziki, sosial inkişafına ziyan vuran informasiya məhsullarından müdafiə olunması sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir.

Deputatlar tərəfindən müsbət qarşılanan yeni qanun layihəsi ikinci oxunuş üçün Milli Məclisin plenar iclasına tövsiyə edildi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ermənistan yalnız Azərbaycan ərazilərini deyil, Göyçədəki mədəni mühitimizi də işğal edib

Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) oktyabrın ortalarında Strasburqda baş tutacaq payız sessiyası ərəfəsində qurumun mədəniyyət, elm, təhsil və media komitəsinin Tbilisidə növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, təhsil, mədəniyyət və mətbuatın bir sıra aktual problemlərinin müzakirə edildiyi bu toplantıda AŞ PA deputatları ilə yanaşı, Gürcüstandan da müxtəlif sahələr üzrə ekspertlər iştirak ediblər.

Toplantıda ən geniş müzakirələr və maraq doğuran mövzulardan biri "Avropanın qeyri-maddi mədəni irsinin qorunması və gücləndirilməsi" olub.

Həm siyasi, həm mədəni baxımdan yetərincə həssas olan həmin məsələ ilə əlaqədar müzakirələrdə AŞ PA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü, Azərbaycan Milli Məclisinin Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov çıxış edərək ölkəmizin bu sahədə əldə etdiyi uğurlardan bəhs edib. Bildirib ki, mahiyyəti etibarı ilə qeyri-maddi mədəni irs bilavasitə xalqların ruhu ilə bağlı dəyərlər silsiləsidir. Qeyri-maddi irs nümunələri bir xalqın, millətin simasını, özlüyünü müəyyənləşdirən incilərdir. Eyni zamanda, ortaq qeyri-maddi irs nümunələri də var ki, doğma, qohum insanlar bir-birinə bənzəyən kimi belə nümunələr də məhz xalqlar arasındakı yaxınlığın, bənzərliyin, tarixi ortaqlığın göstəricisidir. Bu baxımdan Azərbaycan çox zəngindir.

Deputat deyib: "Azərbaycanın UNESCO-da rəsmən qeydiyyatdan keçmiş 11 qeyri-maddi irs nümunəsi var. Bu sırada Azərbaycan muğamı və aşıq sənəti, Azərbaycan tar ifaçılığı, Çövkən oyunu, Novruz bayramı, Lahıc misgərliyi, lavaş ənənəsi, kəlağayı mədəniyyəti və digərlərini qeyd etmək olar. Daha bir neçə əhəmiyyətli qeyri-maddi irs nümunəsi isə qeydəalma prosesindədir. Bütövlükdə isə Azərbaycanın gələcəkdə UNESCO siyahılarında yer almalı onlarla dəyərli qeyri-maddi irs örnəkləri mövcuddur".

Daha sonra akademik Rafael Hüseynov avropalı deputatların diqqətini Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinə yönəldərək bunun bir çox başqa sahələrə olduğu kimi, mədəniyyətə, konkret olaraq, qeyri-maddi mədəni irsə vurduğu ağır zərbələrdən danışıb: "Bu gün Avropa Şurasının qeyri-maddi mədəni irsi qorumaq və gücləndirmək üçün səyləri birləşdirməyə çağırdığı əsnada mən son dərəcə narahatedici və kədərli bir məqama da diqqət yönəltməyi vacib hesab edirəm. Dünyada və Avropada qaçqınların, öz daimi yaşayış yerini itirən insanların sayı durmadan artır. Bunun nə qədər ağır faciə olduğunu gündəlik müşahidələrim əsasında öz xalqımın taleyindən bütün acısı ilə dərindən bilirəm. 300 mindən artıq azərbaycanlı artıq 30 ildir ki, Ermənistan ərazisində tarixən yaşadığı torpaqlardan deportasiya edilib. Bununla da Ermənistan hələ Azərbaycan ərazilərini zəbt etməzdən daha əvvəl Göyçə mahalındakı Azərbaycan mədəni mühitini işğal edib. 1990-cı illərin əvvəllərində isə 700 minə yaxın insan yenə təcavüzkar Ermənistan və onlara dəstək verən qüvvələr tərəfindən işğal edilmiş Dağlıq Qarabağ və onun ətrafındakı daha 5 Azərbaycan rayonundan zorla çıxarılaraq öz vətənində məcburi köçkünə çevrilib. Bu gün yüz minlərlə belə müdhiş həyat yaşayan insan ortaq evimiz olan Avropanın başqa ölkələrində də var. İnsan öz doğulub böyüdüyü mühitdən uzun illər boyu ayrı düşəndə axı həm də onun ənənələri, milli-mədəni dəyərləri, qeyri-maddi irsinin misilsiz nümunələri tədricən aşınmaya uğrayır, dağılır, unudulur, məhv olur. Fəlsəfi etibarı ilə isə bu, təcavüzkarların elə insanlığa qarşı cinayət törətməsi deməkdir".

Milli Məclisin deputatı sonda həm Avropa Şurasını, həm UNESCO-nu qeyri-maddi irsi daha səylə qorumağa, ona xələl gətirməyə, məhv etməyə yönəlmiş fəsadların qarşısını almağa çağırıb: "Düşünürəm ki, Avropa Şurası və ilk növbədə, UNESCO hərbi münaqişələr nəticəsində zədələnmək, itmək, yox olmaq təhlükəsi ilə qarşı-qarşıya qalan qeyri-maddi mədəni irs nümunələrinin qeydə alınması, mühafizəsi, bərpası və inkişaf etdirilməsi istiqamətində ciddi və miqyaslı iş aparmalıdır. İndi dünyada çoxlu ölü və ölüb getməkdə olan dillər var. Hansısa tayfalar, xalqlar yaşayır, tükənib yox olur, onların dilləri də beləcə ömrünü başa vurur. Lakin münaqişələr nəticəsində vətənini, doğma yerlərini itirən insanlar ömrünü hər halda davam etdirir. Onlar, sadəcə, vaxtilə Ermənistanda, öz tarixi torpaqlarında, Göyçə mahalında yaşamış azərbaycanlılar kimi doğma mədəni mühitlərini itirirlər. Qaçqına çevrilən insanlar müxtəlif yerlərdə sığınacaq tapdıqları üçün onların birbiri ilə təmasları qırılır. Bu minvalla, tədricən ortaq mühitdə, onların daim sıx ünsiyyətdə olduğu məkanda mövcud olan qeyri-maddi mədəni irs nümunələri də yox olur. Elə həmin ömrünü başa vuran dillər kimi ölür. Gözəlliklər ölür və bu, çox acınacaqlıdır. Ona gərə də yaşamaq haqqı olan belə inciləri qorumaq, onlara qarşı olan təcavüzlərə son qoymaq mötəbər beynəlxalq təşkilatların ali vəzifəsi və borcudur".

# Dövlətçiliyin və qanunçuluğun keşiyində

**Bu il may ayının 28-də müsəlman Şərqində ilk demokratik və parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam oldu. 100 il əvvəl cümhuriyyətin elan edilməsi imperiya əsarətində ağır məşəqqətlərə məruz qalmış xalqımızın milli azadlıq mübarizəsinin qanunauyğun nəticəsi, dərin tarixi kökləri olan milli dövlətçilik ənənələrimizin davamı idi.**

## Tariximizə ehtiramın nümunəsi

Tarixə nəzər salanda 1918-ci ildə Azərbaycanı müstəqilliyə aparan yolların heç də asan və hamar olmadığı aydın görünür. Amma ömrü boyu xalqının işıqlı sabahını düşünərək bütün həyatını bu müqəddəs amala həsr edən, müstəqil dövlətçilik ideyasını gerçəkləşdirmək arzusu ilə alışıb yanan, yazdığı məqalələrdə, ictimai və siyasi fəaliyyətində bu hislərini fəxarətlə büruzə verən vətənpərvər insanların yorulmaz səyləri nəticəsində müstəqilliyə aparan yollardakı maneələr dəf edildi. Məhz o insanların müstəqil dövlətçiliyin bərpa olunmasına xidmət edən əqidə və məslək birliyi son nəticədə öz sözünü dedi və 1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən "İstiqlal Bəyannaməsi" qəbul edildi.

Prezident İlham Əliyevin hələ ötən il may ayının 16-da imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" sərəncamına əsasən Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilməkdədir.

Nazirlər Kabinetinin bu il yanvarın 10-da keçirilən iclasında isə Prezident İlham Əliyev 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etdi və müvafiq sərəncam imzaladı. Hər kəs bu sərəncamı ölkə rəhbərinin milli dövlətçilik tariximizə olan xüsusi diqqəti və ehtiramı kimi dəyərləndirir və təşəkkürünü ifadə edir. Prezident İlham Əliyevin ötən 15 illik fəaliyyətində diqqəti çəkən məqamlardan biri dövlətçilik tariximizin öyrənilməsi, araşdırılması və gələcək nəsillərə çatdırılmasıdır. Bu sırada Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı görülən işlər xüsusi qeyd edilməlidir. Tarixçilərə bu istiqamətdə verilən göstərişlərlə yanaşı, Bakıda "İstiqlal Bəyannaməsi" abidəsinin ucaldılması, hər il Respublika Gününə həsr olunmuş qəbulun keçirilməsi Prezident İlham Əliyevin tariximizə, dövlətçilik irsimizə olan böyük ehtiramının göstəricisidir.

Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasında bu barədə söylədiyi fikirlər xalqımıza, onun tarixinə və bugününə verilən ən gözəl dəyərdir: *"Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq".*

Təəssüf ki, 1920-ci ilin aprelində yaranmış tarixi şərait xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan verməmişdir. Lakin qarşısına müstəqil, azad və demokratik respublika qurmaq kimi şərəfli vəzifə qoymuş ilk milli hökumətimiz cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, onun şüurlara aşılamış olduğu müstəqillik ideyaları, bütün məhrumiyyətlərə baxmayaraq, xalqımızın yaddaşından heç vaxt silinmədi. Azərbaycanın dövlətçilik tarixində bu varislik ənənəsini xalqımız cümhuriyyətin süqutundan sonrakı 70 illik sovet hakimiyyəti dövründə də qəlbində və şüurunda yaşatmışdır.

Ötən əsrin 70 ili ərzində Azərbaycanda mövcud olan dövlət quruluşunun da xalqımızın milli-mədəni tərəqqisində özünəməxsus rolu inkar edilə bilməz. Tarixçilərin və politoloqların haqlı olaraq "ikinci respublika" adlandırdıqları, formal müstəqilliyə malik həmin dövlətin, xüsusən 1969-1982-ci illərdəki nailiyyətləri yaxın tariximizin səhifələrinə pozulmaz sətirlərlə yazılmışdır. Əlbəttə, bu nailiyyətlər Heydər Əliyevin möhtəşəm və çoxşaxəli fəaliyyəti ilə bağlıdır. Respublikamıza rəhbərlik etdiyi həmin dövrdə Heydər Əliyev Azərbaycanın təkcə keçmiş İttifaqda deyil, hətta dünya miqyasında tanınmasına, nüfuz qazanmasına nail olub. Bu dövrdə sosial-iqtisadi, mədəni həyatımızın bütün sahələrində baş verən yüksəlişin, sürətli inkişafın milli dövlətçilik baxımından əhəmiyyəti misilsizdir. Hazırda yeni, müstəqil Azərbaycanın iqtisadi yüksəlişində baza rolunu oynayan sənaye və kadr potensialı ulu öndər Heydər Əliyevin o illərdəki məqsədyönlü, düşünülmüş, uzaqgörən fəaliyyəti sayəsində təşəkkül taparaq formalaşıb.

Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamızda uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsinə və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

Bu dövrdə xalqımızın sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində baş verən yüksəlişin, sürətli inkişafın milli dövlətçilik ideallarının bərpası və gələcək müstəqillik baxımından əhəmiyyəti misilsiz idi.

Üçrəngli bayrağımızın da Heydər Əliyevin təşəbbüsü ilə hələ sovet hakimiyyətinin mövcud olduğu 1990-cı ilin noyabrında Naxçıvan MR-in dövlət bayrağı olması barədə qərarın qəbul edilməsi ulu öndərin müstəqillik ideallarına nə qədər bağlı olduğunu göstərirdi.

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi demək idi. Xalqımız cümhuriyyətin dövlətçilik ənənələrini davam etdirərək bu tarixi varislik üzərində öz dövlətini yaratdı. O dövrü şərh edən ulu öndər Heydər Əliyev demişdir: *"Əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi olaraq Üzeyir Hacıbəyovun və Əhməd Cavadın yaratdıqları Dövlət himnini, Xalq Cümhuriyyətinin üçrəngli bayrağını və gerbini bərpa elədi. Bu dövlətçilik atributları bu gün də hər bir Azərbaycan vətəndaşı üçün olduqca əzizdir... Bu dövlət, bu quruluş 1918-ci ildə yaranmış ilk Xalq Cümhuriyyətinin varisidir".*

1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə xalqımız yenidən istiqlalına qovuşmuşdur. Lakin həmin dövrdə hakimiyyət dairələrinin səbatsız və qətiyyətsiz adamların əlində olması milli dövlətçiliyimizin taleyini təhlükə altında qoymuşdu. Ölkədə yaranmış anarxiyadan cana doymuş, ən başlıcası isə müstəqilliyimizin itirilməsindən ehtiyatlanan xalqın çağırışı və təkidli tələbi ilə 1993-cü ilin iyununda yenidən siyasi hakimiyyətə qayıdan və dövlətçiliyimizin sükanını öz etibarlı əllərinə alan ümummilli lider Heydər Əliyev xilaskarlıq missiyasını müdrikliklə, yenilməz iradə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirməyə başladı. Bu gün cəsarətlə demək olar ki, əgər belə bir məqamda Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan adlı məmləkət dünya xəritəsindən silinə bilərdi.

Heydər Əliyev xalqımıza əbədi müstəqillik bəxş etdi. Prezident İlham Əliyev isə öz uğurlu siyasəti ilə müstəqilliyimizi daha da möhkəmləndirir, sarsılmaz edir. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan heç vaxt indiki tək qüdrətli olmamışdır. Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, dünya birliyində söz sahibi kimi qəbul olunması məhz müstəqilliyimizin və müstəqil siyasətin bəhrəsidir.

Bu gün Azərbaycan dünyanın inkişaf edən ölkələri sırasında öncül yerlərdən birində dayanır. Təbii ki, bütün bunlar Azərbaycanın azad ölkə olmasının və yeritdiyi qətiyyətli, müstəqil siyasətin nəticəsidir. Prezident İlham Əliyev hər bir sahədə Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirir. Eyni zamanda dövlət başçısı xalqımızın zəngin dövlətçilik tarixinin, əzəmətli keçmişinin öyrənilməsi və dövlət müstəqilliyimizin geniş miqyasda təbliğ olunması kimi məsələləri hər zaman diqqət mərkəzində saxlayır. Bir neçə il öncə "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın dövlət qayğısı ilə yüksək səviyyədə nəşri, o cümlədən İrəvan xanlığının tarixinin araşdırılması barədə Prezidentin tapşırıqları bunun təsdiqidir. 28 may - Respublika Günü ərəfəsində hər il Prezident İlham Əliyevin adından rəsmi qəbullar təşkil olunur. Bakının mərkəzində cümhuriyyətə həsr olunmuş abidənin ucaldılması isə tariximizə və irsimizə verilən ən yüksək dəyərdir. Bu bir daha göstərir ki, Azərbaycan dövləti və cəmiyyəti öz tarixinə ən yüksək ehtiramı göstərir.

Cümhuriyyətin 23 aylıq fəaliyyəti onu göstərdi ki, müstəqilliyi əldə etmək kifayət deyil. Çalışıb onu daha da möhkəmləndirmək lazımdır. Bu gün Azərbaycan dövlətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirdiyi siyasət və qazanılan möhtəşəm nailiyyətlər əminliklə deməyə əsas verir ki, müstəqilliyimiz heç zaman itirilməyəcək.

## 100 yaşlı prokurorluq

Xalq Cümhuriyyətinin qurucularının imza atdığı "İstiqlal Bəyannaməsi"ndə Azərbaycanın hüquqi dövlət olması təsbit olunmuşdur. Təsadüfi deyil ki, cümhuriyyətin ömrü qısa olsa da, o illərdə Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində çox mühüm işlər həyata keçirildi. Bu sırada ölkənin hüquq mühafizə orqanlarının və güc strukturlarının formalaşdırılması xüsusilə diqqəti cəlb edir. Elə buna görədir ki, bu il bir çox dövlət təsisatlarının yaranmasının 100-cü ildönümü tamam olur.

Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının da tarixi Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra başlayır. Ölkəmizdə ilk prokurorluq orqanı isə Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində yaradılmaqla fəaliyyətə başlamışdı. Olduqca mürəkkəb və ağır şəraitdə fəaliyyət göstərən Xalq Cümhuriyyətinin Məhkəmə palatasında, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində olan prokurorluq orqanları öz səlahiyyətləri imkanında böyük işlər görmüşdülər. Cümhuriyyətin dövlət xadimlərindən F.X.Xoyski, X.Xasməmmədov, A.Safikürdski, T.Makinski ilk müstəqil respublikamızın ədliyyə nazirləri, eyni zamanda baş prokurorları olmuşlar.

1920-ci il aprel ayının 28-də bolşevik işğalı nəticəsində Xalq Cümhuriyyəti süquta yetirildi və Azərbaycan Sovet Sosialist Respublikası elan edildi. Müstəqil dövlətçiliyimiz süquta yetirildikdən sonra dövlət orqanları ilə yanaşı, prokurorluq və istintaq orqanları da ləğv edildi. Bu, Azərbaycan İnqilab Komitəsinin 12 may 1920-ci il tarixli "Xalq məhkəməsi haqqında" dekreti ilə həyata keçirildi.

Bu dövrdə bütün hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət funksiyasını həyata keçirməli olan xüsusi orqanın yaradılması ehtiyacını nəzərə alaraq Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 11 iyul 1922-ci il tarixli "Azərbaycan SSR-in dövlət prokurorluğu haqqında" dekreti ilə Azərbaycan SSR-də sovet prokurorluğunun əsası qoyuldu. Sovet dövründə, 70 ilə yaxın müddətdə Azərbaycan Prokurorluğu Sovet İttifaqının dövlət siyasətini həyata keçirməsinə baxmayaraq, təşkilati cəhətdən mühüm dövlət strukturu kimi təşəkkül tapmış, milli kadrlarımız böyük təcrübə və yüksək peşə hazırlığı əldə etmişlər.

Əvvəldə qeyd edildiyi kimi, dövlət müstəqilliyimiz bərpa edildikdən sonra məlum səbəblərdən respublikamız müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Siyasi hakimiyyətin səbatsızlığı səriştəsiz idarəçilik, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün doğurduğu siyasi-iqtisadi tənəzzül, separatist meyillərin güclənməsi gündən-günə Azərbaycanı yenidən əsarətə və parçalanmağa doğru aparırdı. Yaranmış cəzasızlıq şəraiti nəticəsində cinayətkarlıq görünməmiş vüsət almış, insanların hüquq və azadlıqlarının pozulması kütləvi hala çevrilmişdi.

Yalnız ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtmasından sonra həyata keçirilən təxirəsalınmaz və qətiyyətli tədbirlər nəticəsində ölkəmizdə dövlət çevrilişləri cəhdləri, vətəndaş müharibəsi və separatizm təhlükəsi aradan qaldırıldı, cinayətkarlığa qarşı barışmaz mübarizə elan edilməklə dayanıqlı ictimai-siyasi sabitlik təmin edildi, demokratik hüquqi dövlət quruculuğu prosesinə başlandı.

## Prokurorluqda fəaliyyətin keyfiyyətcə yeniləşməsinə yol açan islahatlar

Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətində həm də demokratik-hüquqi islahatların banisidir. Azərbaycan Prokurorluğunun dünya standartlarına uyğun, demokratik cəmiyyətdə özünəməxsus yeri olan və müasir tələblərə cavab verən orqan kimi formalaşması, dövlət idarəetməsində mühüm rola malik olması da ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin ölkəyə rəhbərliyə başlaması, demək olar ki, bütün sahələrdə islahatların başlanmasına səbəb oldu. Bir vaxtlar məhv olmuş, müasir tələblərə cavab verməyən hüquq sistemi də ulu öndərin hakimiyyətə gəlişindən sonra inkişaf yoluna qədəm qoydu, bu sahədə fəaliyyət göstərən dövlət təsisatları ən yüksək standartlara müvafiq şəkildə yenidən formalaşdırıldı. Təbii ki, islahatlar hüquq sisteminin aparıcı qolu olan prokurorluq orqanlarını da əhatə etdi. Qısa müddətdə Azərbaycanın prokurorluq orqanlarının tam yenidən qurulması təmin edildi. Prokurorluq fəaliyyətində qanunçuluğu, dövlətçiliyi, siyasi bitərəfliliyi, obyektivliyi və qərəzsizliyi rəhbər tutan nüfuzlu orqana çevrildi.

Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyası hakimiyyət bölgüsü prinsiplərini özündə ehtiva etməklə zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və müasirləşməsinə ciddi təminat yaratdı. Bu mənada prokurorluq orqanlarının qanunçuluğun və hüquq normalarının etibarlı təminatı sahəsində nüfuzlu təsisata çevrilməsi, yenidən təkmilləşdirilərək fəaliyyətini yeni dövrün tələbləri səviyyəsində qurması məhz Heydər Əliyevin rəhbərliyi altında aparılmış mütərəqqi islahatlar nəticəsində mümkün oldu.

Ümummilli lider Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-i respublikamızda prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü elan olunmuş, bu əlamətdar hadisə fəaliyyətimizə verilən yüksək qiymətin təcəssümü kimi tarixilik qazanmışdır. Belə ki, mövcudluğuna və fəaliyyət göstərməsinə baxmayaraq, milli prokurorluq orqanlarının yaranması tarixi uzun müddət diqqətdən kənarda qalmış və prokurorluq işçilərinin peşə bayramı təsis edilməmişdir. Prokurorluq işçilərinin peşə bayramının təsis edilməsi prokurorluq orqanlarının formalaşmasında və inkişafında müstəsna rolu olmuş ümummilli lider Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində gerçəkləşmişdir. Peşə bayramı gününün təsis edilməsi prokurorluğa böyük qayğının ifadəsi olmaqla yanaşı, prokurorluq əməkdaşlarının fəaliyyətinin layiqincə dəyərləndirilməsinin təzahürüdür.

Ulu öndər Heydər Əliyev həmçinin 28 noyabr 1998-ci ildə respublikamızda ilk dəfə olaraq prokurorluq orqanlarının yaradılmasının 80 illiyinə həsr olunmuş yubiley tədbirinin yüksək təntənə ilə keçirilməsinə göstəriş vermişdir. Həmin dövlət tədbirində ulu öndər dərin məzmunlu tarixi nitq söyləyərək prokurorluq işçilərinə dəyərli tövsiyələrini verməklə prokurorluq orqanları qarşısında dayanan əsas vəzifələri müəyyən etmişdir. Ulu öndərin prokurorluq peşəsi ilə bağlı vurğuladığı "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız" sözləri prokurorluq işçilərinin gündəlik həyat devizinə çevrilməklə bizləri daim böyük ruh yüksəkliyi və iftixar hissi ilə öz peşə fəaliyyətimizə daha yüksək tələbkarlıqla və məsuliyyətlə yanaşmağa səfərbər edir.

2000-ci il aprelin 26-da Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə tarixi görüş isə Azərbaycan Prokurorluğunun inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Məhz bu görüşdən sonra həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində prokurorluq orqanlarında köklü islahatlar və struktur dəyişiklikləri aparılmış, demokratik mahiyyətdə tamamilə yenidən formalaşdırılmış bu orqanın səmərəli fəaliyyəti üçün qanunverici əsaslar yaradılmışdır. Həmin görüşdə dərin məzmunlu nitq söyləyən ümummilli lider Heydər Əliyev prokurorluq orqanlarının fəaliyyətində əvvəllər yol verilmiş nöqsanların və çatışmazlıqların aradan qaldırılması üçün konkret tapşırıqlar vermişdir. Bunun nəticəsi olaraq prokurorluqda hərtərəfli islahatlara start verilmiş, ulu öndərin proqram xarakterli çıxışından irəli gələn tövsiyələr çərçivəsində görülməsi vacib olan işlərin əsas istiqamətləri müəyyənləşdirilmişdir. Belə ki, ulu öndərin tövsiyə və göstərişlərinə müvafiq olaraq həyata keçirilən tədbirlər sayəsində prokurorluğun demokratik məzmunda yeniləşdirilməsi, neqativ təzahürlərin aradan qaldırılması, müasir standartlar səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması, son nəticədə cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi işinin zəruri tələblər səviyyəsinə qaldırılması təmin edilmişdir. Prokurorluğun səlahiyyətləri və fəaliyyət istiqamətləri ilə yanaşı onun yeni strukturu hazırlanmış, dövrün tələblərindən irəli gələrək bir sıra yeni idarələr, şöbələr yaradılmışdır.

2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmiş, bununla da onun hüquq sistemindəki yeri və rolu daha da güclənmişdir. Bu, prokurorluq orqanlarına insan hüquq və azadlıqları sahəsində praktiki fəaliyyətlə yanaşı, qanunyaradıcılığı və vətəndaş quruculuğu prosesində fəal iştirak etmək imkanları yaratmışdır.

Ümumilikdə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" və digər qanunvericilik aktlarının qəbul edilməsi, normativ sənədlərin təsdiqi prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənməsi prosesinin beynəlxalq standartlara uyğunlaşdırılması baxımından əhəmiyyətli olmuşdur.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hüquqi dövlət quruculuğu və strateji inkişaf konsepsiyası bu gün də davam etdirilir. Prezident İlham Əliyev tərəfindən ötən 15 ildə həyata keçirilən köklü islahatlar, idarəetmə mexanizminin dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi, səmərəli dövlət idarəçiliyinin tətbiqi, dövlətin təhlükəsizliyinin və cəmiyyətin sabitliyinin təmin olunması üçün atılan addımlar müstəqilliyimizi daha da möhkəmləndirir. Bütün bunlar həm də inkişafın davamlılığının təmin olunmasına, əmin-amanlığın və insanların sosial rifah halının daha da yüksəlməsinə yol açır.

Dahi öndər Heydər Əliyevin layiqli siyasi davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bütün hüquq mühafizə orqanlarına, o cümlədən prokurorluğa daim diqqət və qayğı göstərilir, fəaliyyətimizin daha da təkmilləşdirilməsi, əməkdaşlarımızın maddi-sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülür. Mütəmadi olaraq prokurorluq əməkdaşlarının yüksək dövlət mükafatlarına və ali xüsusi rütbələrə layiq görülməsi, onların sosial-maddi vəziyyətinin yaxşılaşdırılması və prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən tədbirlər fəaliyyətimizin səmərəliliyinin artırılmasında əhəmiyyətli rol oynayır.

Ümumiyyətlə isə, ölkədə hüquqi islahatların zamanın çağırışlarına uyğun olaraq davam etdirilməsi Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Dövlət başçısının hələ 10 il əvvəl - 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" bu dövlət orqanının müasir dövrün yüksək tələbləri səviyyəsində inkişafında xüsusi əhəmiyyətə malik olmuşdur. Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşmə dövrünün əsasını qoymuş bu mühüm dövlət sənədinin icrası ilə əlaqədar həyata keçirilmiş tədbirlər nəticəsində hüquqi dövlət quruculuğunda və hüquq sisteminin inkişafında, qanunçuluğun, cəmiyyətin və dövlətin maraqlarının qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində prokurorluğun rolu artmışdır. Eyni zamanda onun fəaliyyətində şəffaflıq prinsiplərinin rəhbər tutulmasına, müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməklə son informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə, prokurorluq orqanlarının işinin onun qarşısında dayanan vəzifələrə və tələblərə uyğun olaraq yüksək səviyyədə qurulmasına, ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində və dövlət ittihamının müdafiəsində peşəkarlığın artırılmasına, vətəndaşların müraciətlərinə daha həssas və diqqətli yanaşılmasına nail olunmuşdur.

Beləliklə, zamanın ruhuna, yeni reallıqlara uyğun olaraq həyata keçirilən hüquqi islahatlar nəticəsində prokurorluq orqanlarının statusunda, səlahiyyətlərində və fəaliyyətində köklü dəyişikliklər baş vermiş, kadr siyasətində ciddi dönüşün yaradılması və şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Prokurorluq orqanlarında sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir. Bir sözlə, prokurorluq tam yenidən qurulmaqla müasir dövrün tələblərinə cavab verən, fəaliyyətində qanunçuluq, dövlətçilik, siyasi bitərəflilik, obyektivlik və qərəzsizlik prinsiplərinə əsaslanan demokratik məzmunlu bir orqana çevrilib. Prokurorluq orqanlarında yeniləşmə prosesi indi də gedir, gənc kadrlar işə qəbul edilir, vəzifədə irəli çəkilir, yeni iş ruhu, canlanma və inkişaf hiss olunur.

## Bakı Şəhər Prokurorluğu cinayətkarlıqla mübarizədə bundan sonra da əzmkar olacaq

Ölkəmizdə həyata keçirilən hüquqi islahatların nəticəsi olaraq Bakı Şəhər Prokurorluğu da inkişaf yolu keçmiş, qarşısında dayanan vəzifələrin yerinə yetirilməsi istiqamətində uğurlar əldə etmişdir. Ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq, Azərbaycan Respublikası Baş prokurorunun nəzarəti ilə həyata keçirilən köklü islahatlar Azərbaycan Prokurorluğunu və onun əsas tərkib hissələrindən olan Bakı Şəhər Prokurorluğunu insan hüquq və azadlıqlarının layiqli qarantına çevirən etibarlı dövlət orqanı kimi formalaşdırmışdır. Hazırda Bakı Prokurorluğu və ona tabe rayon prokurorluqları Azərbaycan Konstitusiyasını, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunvericilik aktlarını, Baş prokurorun əmr, sərəncam və göstərişlərini rəhbər tutaraq Bakı şəhərində cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməkdədir.

Bunun nəticəsidir ki, 2018-ci ilin birinci yarısında paytaxtın prokurorluq orqanlarının keçirdiyi istintaq tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş bir çox cinayətlərin, o cümlədən qəsdən adamöldürmə, qəsdən adam öldürməyə cəhd cinayətlərinin, quldurluq, bağlı qalmış ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin açılması, narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyədən çıxarılması və bir sıra digər qanun pozuntularının qarşısının alınması təmin edilib.

Ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında əhalinin müraciətlərinə qayğı ilə yanaşılaraq vətəndaşların qəbulu məsələlərinə xüsusi diqqət göstərilir. Bu məsələ Bakı Şəhər Prokurorluğunun daim diqqətindədir. Bakı Şəhər Prokurorluğunda, eləcə də tabe rayon prokurorluqlarında vətəndaşların qəbulu işinə xüsusi əhəmiyyətlə yanaşılaraq yerlərdə və şəhər prokurorluğunda vətəndaşların mütəmadi olaraq prokurorluğun rəhbərliyi tərəfindən qəbul edilməsi, mahiyyətinə görə xüsusi əhəmiyyət kəsb edən müraciətlərin nəzarətə götürülməklə qısa müddət ərzində araşdırılması təmin edilməkdədir.

Bütövlükdə Bakı Şəhər Prokurorluğu cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparan, bu sahədə daim profilaktik tədbirlər görən bir orqan kimi öz vəzifələrinin öhdəsindən layiqincə gəlmək üçün səlahiyyətləri çərçivəsində bütün addımları atır.

## Qarşımızda mühüm vəzifələr dayanır

2018-ci ilin birinci yarımilində ölkəmizdə bir sıra uğurlu nəticələr əldə edilmişdir. Təbii ki, bunlardan ən mühümü aprel ayında keçirilmiş prezident seçkiləridir. Bu seçkidə Azərbaycan xalqı Heydər Əliyev siyasi kursunun davamçısı cənab İlham Əliyevə səs verməklə öz layiqli seçimini etmişdir.

Eyni zamanda 2018-ci il həm də müsbət sosial-iqtisadi göstəricilərlə əlamətdardır. Bu mənada Prezidentin rəhbərliyi altında uğurla həyata keçirilən siyasi, sosial-iqtisadi, hüquqi islahatların və sabitliyin qorunub saxlanılması hüquq mühafizə orqanlarının qarşısında da mühüm vəzifələr qoyur. Bu mühüm vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Bakı Şəhər Prokurorluğu qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində bundan sonra da fəal mövqe tutmalı, dövlətə və dövlətçilik ideyalarına daha sədaqətlə xidmət göstərməlidir. Bizə göstərilən etimadı doğrultmaq üçün var gücümüzlə çalışmalı və işimizlə nümunə olmalıyıq. Bunun üçün hər bir rayon prokuroru, rayon prokurorluqlarının, eləcə də şəhər prokurorluğunun əməkdaşları məsuliyyətlərini dərk edirlər.

Bu il bir çox dövlət qurumları kimi, prokurorluq orqanlarının da yaranmasının 100-cü ildönümü tamam olur. Hər bir prokurorluq əməkdaşı üçün əlamətdar, həm də kifayət qədər məsuliyyətli olan bu dövrdə də qarşımızda mühüm vəzifələr dayanır. Çünki qarşıdan yubileyimizin gəlməsi bütün prokurorluq orqanlarını öz fəaliyyətlərini daha səmərəli təşkil etməklə, daha böyük əzm və vicdanla işləməklə indiyədək əldə ediləndən də yüksək nəticələr və uğurlar qazanmağa sövq edir. İnanıram ki, ölkənin bütün prokurorluq orqanları, o cümlədən Bakı Şəhər Prokurorluğu yubiley ili olan 2018-ci ili də nailiyyətlərlə başa vuracaq.

***İlqar ABBASOV,***
***Bakı şəhər prokuroru,***
***III dərəcəli dövlət ədliyyə müşaviri***




# Güclü dövlət, iqtisadi inkişaf vətəndaşın sosial müdafiəsinin təminatıdır

## Yeni iş yerlərinin açılması prosesinin davamlı olması bunu bir daha təsdiqləyir

İqtisadi cəhətdən inkişaf etməyən ölkə əhalinin sosial müdafiəsini yüksək səviyyədə təmin edə bilməz. Bunun üçün ilk növbədə iqtisadi islahatlar aparılmalı, daha çox istehsal və xidmət sahələri yaradılmalıdır. Bu, son 15 ildə Azərbaycan dövləti tərəfindən həyata keçirilən iqtisadi siyasətin əsas məqsədlərindən biridir. Belə ki, ölkəmizdə yeni müəssisə və xidmət sahələri yarandıqca əhalinin məşğulluq problemi də həll olunur. Bunun nəticəsidir ki, ölkədə işsizliyin səviyyəsi 5 faizədək azalıb. İndi dünyada baş verən siyasi və iqtisadi gərginlik dövründə bu, yüksək rəqəmdir.



Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında əhalinin məşğulluğuna xüsusi önəm verərək demişdir: "Bizim özünüməşğulluq proqramına böyük ümidlərimiz var. Bu proqram həm iqtisadi inkişafımıza təkan verəcək, xüsusilə regionlarda həm məşğulluq probleminin həllini sürətləndirəcək, eyni zamanda, bəzi vətəndaşlarımızı ələbaxımlıq vərdişindən çəkindirəcək. Özünüməşğulluq proqramını icra etmək üçün indi kifayət qədər vəsait var. Hesab edirəm ki, hər il 6-7 min insan bu proqrama cəlb olunarsa, bir neçə ildən sonra heç sosial yardıma da ehtiyac qalmayacaq və insanlar öz halal zəhmətləri ilə pul qazanacaqlar, ailələrini saxlayacaqlar və ölkə iqtisadiyyatına töhfələrini verəcəklər".

Qarşıya qoyulan məqsədə çatmaq üçün dövlət tərəfindən iqtisadiyyatın kapitallaşması və kreditləşməsi siyasəti həyata keçirilir. Dövlət iqtisadiyyatın müxtəlif sahələrinə və infrastrukturun inkişafına sərmayə qoymaqla yanaşı, özəl sektoru da unutmur. Bu məqsədlə sahibkarlara güzəştli şərtlərlə kreditlər ayrılır. Son 15 ildə sahibkarlara 2,2 milyard manat güzəştli kredit verilib. Bu proses davamlıdır. Hər il sahibkarlar dövlətin bu dəstəyindən faydalanır. Alınan həmin kreditlər nəticəsində sahibkarlar tərəfindən 163 min yeni iş yeri açılıb.

Cari ildə dövlət tərəfindən sahibkarlara 170 milyon manat güzəştli kredit ayrılıb. Artıq bu kreditlərin çox hissəsi sahibkarlara verilib. Bu proses ilin sonunadək davam edəcək. Eyni zamanda, sahibkarların maliyyə resurslarına əlverişli şərtlərlə çıxışının təmin edilməsi üçün layihələrinin ümumi dəyəri 468 milyon manat olan 611 sahibkara geri qaytarılan vəsaitlər hesabına 100 milyon manat güzəştli kredit verilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,6 dəfə çoxdur. Həmin kreditlər hesabına ötən illə müqayisədə 3 dəfə çox olmaqla 7 mindən artıq yeni iş yerinin açılması imkanı yaranır.

Aqrar sektor əhalinin ən çox məşğul olduğu sahələrdəndir. Kənd təsərrüfatı həm əhatə dairəsinə, həm də məhsul istehsalına görə qeyri-neft sektorunda üstün mövqedədir. Buna görə də aqrar sektorda çalışan əhalinin işlə təminatı diqqət mərkəzindədir. Dövlət kəndlinin öz torpağından səmərəli istifadəsini və onun məşğulluğunu təmin etmək üçün müəyyən tədbirlər görür. Məsələn, şəkər tozu istehsalının yerli xammal təminatının artırılması məqsədilə 7 min hektar sahədə şəkər çuğunduru əkini üçün illik 3 faizlə 7 milyon manat güzəştli kredit verilib, 1500 fermerlə müqavilə bağlanılıb. Həmin müqavilələrin icrası kənd təsərrüfatında əlavə olaraq 3600 iş yerinin açılmasına imkan yaradıb.

Qeyri-neft sektorunun inkişafı və sənayeləşmə siyasəti də yeni iş yerlərinin açılmasına səbəb olub. Sənaye parklarının və məhəllələrinin yaradılması buna örnəkdir. İndiyədək sənaye parklarına 2,6 milyard dollar investisiya yatırılıb ki, tikintidə və istehsal sahələrində 11 minə yaxın yeni iş yeri açılıb. Növbəti mərhələdə bu sahəyə əlavə olaraq 1,1 milyard dollardan çox investisiya yatırılacaq. Yatırılan bu sərmayə əlavə 7500-dək yeni iş yerinin açılmasına imkan verəcək.

Müsbət haldır ki, sənaye parkları ilə yanaşı, bölgələrdə sənaye məhəllələri də tikilir. Bu da regionda mövcud olan işsizliyin azalmasına və əhalinin məşğulluğunun təmin edilməsinə dəstək göstərəcək. Təkcə Neftçala Sənaye Məhəlləsinin fəaliyyətə başlaması həmin rayonda 500 nəfəri işlə təmin edib. Masallı Sənaye Məhəlləsinin tikintisi başa çatdırılıb, Hacıqabul və Sabirabad sənaye məhəllələrinin tikintisi ilin sonunadək başa çatacaq. Bu müəssisələrin fəaliyyətə başlaması həmin rayonlarda yeni iş yerlərinin açılmasına səbəb olacaq. Hədəf qarşıdakı illərdə ölkənin bütün rayonlarında belə müəssisələrin açılmasıdır. Bu cür yanaşma həm ölkənin ümumi inkişafına, həm də məşğulluğun təmin edilməsinə geniş imkanlar yaradacaq.

"Azərxalça" ASC-nin fəaliyyətə başlaması uğurlu iqtisadi siyasətin bir hissəsidir. Ona görə ki, xalçaçılıqda xammal kimi əvvəllər istifadəsiz qalan yundan istifadə edilir. Beləliklə, kəndli öz məhsuluna satış bazarı əldə etmiş olur. Digər tərəfdən, "Azərxalça"nın rayonlarda filiallarının açılması qadınların məşğulluğunun təminatında böyük rol oynayır. Bu, eyni zamanda çoxəsirlik xalçaçılıq sənətimizin yenidən dirçəldilməsi və xalçalarımızın dünya bazarına çıxarılmasıdır. Xalça təkcə əmtəə deyil, həm də xalqımızın mədəni və estetik səviyyəsini nümayiş etdirmək üçün bir vasitədir. Ermənilərin hər vəclə xalçalarımızı öz adlarına çıxarmaq istəməsi də bununla bağlıdır. "Made in Azerbaijan" brendi ilə xalçalarımızın dünya bazarına yenidən ixracı qonşularımızın məkrli niyyətlərinə də son qoyacaq.

Prezident İlham Əliyevin Nazirlər Kabinetinin ilin 6 ayının yekunlarına həsr olunan iclasında toxunduğu sahələrdən biri də iş yerlərinin bağlanmasıdır. Dövlət başçısı qeyd etdi ki, 58 min yeni iş yeri açıldığı halda 20 min iş yeri də bağlanıb. Bağlanan iş yerlərinin səbəblərinin araşdırılması barədə aidiyyəti dövlət qurumlarına tapşırıq verilib. Bu fakt onu göstərir ki, Prezident əhalinin məşğulluğuna xüsusi önəm verir, yeni iş yerlərinin açılmasında maraqlıdır. Bununla belə, iş yerlərinin bağlanmasının qarşısının alınması üçün də müvafiq tədbirlər görülməsini tələb edir.

Prezidentin tənqid etdiyi sahə isə qeyri-formal məşğulluğun kütləvi hal almasıdır. Qeyd edək ki, belə vəziyyət bütün dünyada mövcuddur. Bəzi yerli sahibkarlar bu yolla dövlətə vergi, Sosial Müdafiə Fonduna vəsait ödəməkdən yayınırlar. Bundan ən çox əziyyət çəkən isə ölkə vətəndaşıdır. Belə ki, müqaviləsiz işlədiyi üçün Sosial Müdafiə Fonduna vəsait ödənilmir. Nəticədə həmin vətəndaş yaşlaşdıqda dövlətdən pensiya ala bilmir və ya aşağı səviyyədə pensiya almağa məcburdur. Bunun üçün də belə neqativ hala qarşı mübarizə aparmaq vacibdir. Ölkə rəhbəri bu problemin həlli üçün müvafiq dövlət qurumlarından ciddi tədbirlərin görülməsini tələb etdi.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari il iyulun 1-i vəziyyətinə olan məlumata əsasən iqtisadi fəal əhalinin sayı 5108,9 min nəfər olub ki, onların da 4856,5 min nəfəri məşğul əhalidir. Bu dövrdə muzdla işləyənlərin sayı 1545,4 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 886,8, qeyri-dövlət sektorunda isə 658,6 min nəfər təşkil edib. İşçilərin çoxu istehsal və xidmət sahələrində çalışırlar.

İşsiz vətəndaşların sosial qayğıları da diqqət mərkəzindədir. Hesabat dövründə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilən şəxslərin sayı 36,6 min nəfər olub ki, onların da 36,9 faizi qadınlardır. Bu dövrdə həmin kateqoriyadan olan insanların sosial müdafiəsini təmin etmək üçün dövlət tərəfindən verilən işsizlik müavinətinin və işsizlikdən sığorta ödənişinin orta məbləği 287,2 manat olub.

Qeyd etdiyimiz kimi, dövlətin göstərdiyi dəstək sayəsində sahibkarlıq subyektlərinin sayı artır. Belə ki, bu ilin yanvar-iyun ayları ərzində müəssisə və təşkilatların sayı 4,7 faiz artaraq cari ilin iyulun 1-i vəziyyətinə 124178 olub.

Özəl sektorda yeni müəssisələrin yaradılması ticarət, nəqliyyat vasitələrinin təmiri, müxtəlif sahələrdə xidmətlərin göstərilməsi, tikinti, kənd təsərrüfatı və balıqçılıq, peşə, elmi və texniki fəaliyyət, emal sənayesi sahələrində daha yüksək olub.

Ölkəmizdə olan münbit investisiya mühiti xarici sahibkarların Azərbaycan iqtisadiyyatına investisiya yatırmasını təşviq edir. Hesabat dövründə reyestr qeydiyyatından keçmiş statistik vahidlərdə tam xarici investisiyalı və ya birgə müəssisələr əsasən Türkiyə, Böyük Britaniya, İran, Rusiya, ABŞ, Almaniya sahibkarlarına məxsus olub. Xarici investorların ölkə iqtisadiyyatına sərmayə qoyaraq istehsal və xidmət müəssisələrini açması, eyni zamanda yeni iş yerlərinin yaradılması deməkdir. Bu da dövlətin həyata keçirdiyi investisiya təşviqi siyasətinin nəticəsidir.

Dövlətin özəl sektora göstərdiyi dəstək, yeni iş yerlərinin açılmasına, əhalinin əməkhaqqının və gəlirlərinin artırılmasına müsbət təsir göstərir. Cari ilin yanvar-may aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 4 faiz artaraq 541 manat təşkil edib. Dövlət müəssisələrində çalışanlar 421,5, özəl sektorda işləyənlər isə 703,9 manat əməkhaqqı alırlar. Bu proses əhalinin gəlirlərinin artmasına da müsbət təsir göstərir. Belə ki, cari ilin yanvar-iyun aylarında ölkə əhalisinin nominal gəlirləri keçən ilin müvafiq dövrünə nisbətən 9,3 faiz artaraq əhalinin hər nəfərinə orta hesabla 2623,8 manat düşüb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Məqsəd reallığa çevrilir

## *8 ayda iqtisadiyyatın əksər sahələri üzrə yüksək artım qeydə alınmışdır*

Dövlət Statistika Komitəsi cari ilin yanvar-avqust ayları üzrə ölkənin sosial-iqtisadi inkişafını əks etdirən hesabatını açıqlayıb. Hesabatda bildirilir ki, qeyd edilən müddətdə ölkə üzrə 50 milyard 521,9 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur ki, bu da ötən ilin eyni dövründəkinə nisbətən 0,7 faiz çoxdur. 8 ay ərzində ÜDM istehsalı iqtisadiyyatın qeyri-neft sektorunda 0,9, neft sektorunda 0,4 faiz artmışdır.

Hesabatda həmçinin bildirilir ki, 8 ay ərzində istehsal olunmuş əlavə dəyərin 46,3 faizi sənaye, 9,6 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6,3 faizi tikinti, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,4 faizi kənd və meşə təsərrüfatları, balıqçılıq, 2,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə, 14 faizi digər sahələrin payına düşmüşdür. Bu dövrdə məhsula və idxala xalis vergilər ÜDM-in 7,9 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi 5153,1 manata bərabər olmuşdur.

Hesabat dövründə ölkədə 31,6 milyard manatlıq (keçən ilin eyni dövründəkindən 1,9 faiz çox) sənaye məhsulları istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 10,8 faiz artmışdır. Artım neft sektorunda da qeydə alınmışdır - 0,6 faiz. Məhsulların 73 faizi mədənçıxarma, 22,3 faizi emal, 4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə neft hasilatında 0,9, əmtəəlik qaz hasilatında 0,5 faiz artım müşahidə olunmuşdur.

Emal sektorunda avtomobil, qoşqu və yarımqoşquların istehsalı 32, tütün məmulatları istehsalı 2,6, poliqrafiya məhsulları istehsalı 2,8, mebel istehsalı 2,1, elektrik avadanlıqları istehsalı 3 dəfə, dəri və dəri məmulatları, ayaqqabı istehsalı 54, toxuculuq sənayesi məhsulları istehsalı 63, tikinti materialları istehsalı 31,7, metallurgiya sənayesi məhsulları istehsalı 13,4, geyim istehsalı 0,5, əczaçılıq məhsulları istehsalı 20,2, hazır metal məmulatları istehsalı 18,2, içkilərin istehsalı 9,3 faiz artmışdır. Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında müşahidə olunmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-avqust aylarında əsas kapitala 8 milyard 953,6 milyon manat vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitin 69,6 faizi məhsul istehsalı və 22,9 faizi xidmət obyektlərinin, 7,5 faizi ümumi sahəsi 1,2 milyon kvadratmetrdən çox olan yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 59,4 faizi daxili sərmayələr olan bu vəsaitlərin 69,2 faizi bilavasitə tikinti-quraşdırma işlərinə yönəldilmişdir. Xarici sərmayəyə gəldikdə, hesabat dövründə onların həcmi 3 milyard 631,1 milyon manata çatmışdır. Bu vəsaitin 80,4 faizi Böyük Britaniya, İsveçrə, Türkiyə, Malayziya, ABŞ, Yaponiya, Çexiya, Rusiya və İran kimi ölkələrə məxsusdur. Hesabatda həmçinin bildirilir ki, yanvar-avqust aylarında qeyri-neft sektorunun inkişafına 4,9 milyard manatdan çox vəsait sərf olunmuşdur. Həmin vəsaitin 10,6 faizindən (944,8 milyon manatından) qeyri-neft sənayesi sektorunda istifadə edilmişdir.

Bütün bu vəsaitlər hesabına ilin əvvəlindən ötən 8 ay ərzində ölkə ərazisində çoxsaylı və müxtəlif təyinatlı müəssisə və obyektlər tikilib istifadəyə verilmişdir. Onların sırasında paytaxtda "Yasamal-1", "Qobu" və 120 saylı elektrik yarımstansiyaları, Yüksəkgərginlikli Avadanlıqlar Zavodu, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binası, Bakı Statistika İdarəsinin inzibatı binası, "Bona Dea" beynəlxalq hospital, Bakı Beynəlxalq Ticarət Limanı Kompleksi, "Dinamo" hoteli, "Abşeron" Logistika Mərkəzi, Bakı Kitab Mərkəzi, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağı, Sumqayıtdakı Kimya Sənaye Parkında Polipropilen Zavodu, Mingəçevir Sənaye Parkında iplik istehsalı üzrə 2 müəssisə, Neftçala Sənaye Məhəlləsində "Xəzər" avtomobil zavodu, Xaçmazda "Azərxalça" ASC-nin filialı, Naxçıvan MR-də 922 şagirdlik 3 ümumtəhsil məktəb binası və ambulator-poliklinika, Təmizləyici Qurğular Kompleksi, Naxçıvan Müəllimlər İnstitutunun yeni binası, Naftalanda şəhər mərkəzi xəstəxanası, Goranboyda "Region Aqropark", Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsi, "Dəliməmmədli" elektrik yarımstansiyası, Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolu, İsmayıllıda heyvandarlıq kompleksi, aqropark, elektrik yarımstansiyası, "Azərxalça" ASC-nin filialı, eləcə də Muğanlı-İsmayıllı-Mingə-Keyvəndi-Şəbiyan-Bəhliyan avtomobil yolu, Şamaxıda Üzümçülük və şərabçılıq kompleksi, Dəmirçi Arxeologiya Muzeyi, Dəmirçi-Lahıc avtomobil yolu, həmçinin Bakı, Şəki, Abşeron, Balakən və Şamaxıda ümumilikdə 5816 şagirdlik 5 məktəb binası və digər bu kimi vacib obyektlər var.

Ölkənin ümumi inkişafı nəqliyyat, informasiya və rabitə sektorlarına da təsir göstərib. Hesabat dövründə ölkə üzrə 151,8 milyon ton yük və 1,2 milyard nəfərdən çox sərnişin daşınmışdır və bu, ötən ilin eyni dövründəkindən müvafiq olaraq 1,2 və 1,3 faiz çoxdur. İnformasiya və rabitə müəssisələri isə bu dövrdə 1 milyard 188,4 milyon manatlıq müxtəlif xidmətlər göstərmişdir ki, onların da 72,4 faizindən əhali istifadə etmişdir. Keçən ilin müvafiq aylarına nisbətən dəyər ifadəsində 7,6 faiz artan həmin xidmətlərdən əldə olunan gəlirin 81,5 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Pərakəndə ticarət dövriyyəsində də artım qeydə alınmışdır. Belə ki, sözügedən dövrdə ölkədəki pərakəndə ticarət şəbəkəsindən əhaliyə 22,9 milyard manatlıqdan çox məhsul satılmış, 5,4 milyard manatlıq ödənişli xidmətlər göstərilmişdir. Ötən ilin eyni dövrünə nisbətən əmtəə dövriyyəsi 2,7, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə edilən gəlir 2,8 faiz artmışdır.

Sözsüz ki, bu artımda qiymətlərlə bərabər, əhalinin gəlirlərinin çoxalması da müəyyən rol oynamışdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-iyul aylarında muzdla işləyənlərin nominal əməkhaqqı 3,7 faiz artaraq 542,3 manata çatmışdır. Ümumilikdə əhalinin gəlirləri 8 ay ərzində nominal ifadədə 9,5 faiz çoxalaraq 34 milyard 786,3 milyon manat olmuşdur.

Qiymətlərə gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-avqust aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2,7, o cümlədən ərzaq 2,7, qeyri-ərzaq 3,2, ödənişli xidmətlərin tarifləri 2,4 faiz bahalaşmışdır.

Bir neçə cümlə də xarici ticarət əlaqələri barədə: gömrük orqanlarına qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla yanvar-iyul aylarında ölkənin xarici ticarət dövriyyəsinin həcmi 17 milyard 774,7 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin 66,9 faizini ixrac, 33,1 faizini idxal məhsulları təşkil etmişdir ki, bu da 5,9 milyard dollarlıqdan çox müsbət saldo deməkdir. Ötən ilin 7 ayı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 35,6, real ifadədə 0,7, o cümlədən ixrac 0,8, idxal 0,5, faiz artmışdır. Qeyri-neft məhsullarının ixracında da artım kifayət qədər yüksək olmuşdur. Faktiki qiymətlərlə 13,5, real ifadədə 3,8 faiz artan bu cür məhsulların ixracının ümumi dəyəri 968 milyon dolları üstələmişdir.

***"Azərbaycan"***

# İlməni ilməyə bağlayanların ruzisi

## *Bölgələrdə açılan yeni xalçaçılıq müəssisələrində yüzlərlə qadın çalışır*

Azərbaycan qədim zamanlardan xalçaçılıq sənəti sahəsində dünyanın aparıcı ölkələrindən biri kimi tanınıb. Son illərdə bu sənətin daha da inkişafına göstərilən dövlət qayğısı xalçaçılığın ölkə sənayesində önəmli yer almasına imkan verib. Xalça istehsalının çoxalması qədim el sənətinin yaşaması, ölkənin ixrac potensialının və nəticədə qazanılan vəsaitin artması, Azərbaycan brendinin geniş şöhrət qazanması ilə yanaşı, həm də qadınların məşğulluq probleminin həllində mühüm rol oynayır.



Bu sahənin inkişafına yönəldilən tədbirlər ardıcıl xarakter daşıyır. Son illərdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva xalçalarımızın dünyada tanınması üçün böyük əmək sərf edib. 2010-cu ildə Azərbaycanın ənənəvi xalçaçılıq sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsin reprezentativ siyahısına salınıb. 2014-cü ildə isə Bakıda Heydər Əliyev Fondunun dəstəyi ilə Xalça Muzeyinin yeni binası istifadəyə verilib. 2016-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti fəaliyyətə başlayıb.

"Azərxalça"nın Azərbaycanın ayrı-ayrı bölgələrində fəaliyyət göstərən filiallarının da sayı artmaqdadır. Xalça emalatxanalarının tikintisi ilkin olaraq Horadiz şəhərində, Ağdam, Ağstafa, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ, Quba, Şəmkir və Tovuz rayonlarında nəzərdə tutulmuşdu. Artıq Horadiz, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı rayonlarındakı müəssisələr uğurla fəaliyyət göstərir. Bu müəssisələrin hər biri Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

İlk filialın məhz cəbhə bölgəsində, düşmənin beş addımlığında fəaliyyətə başlaması böyük məna daşıyır. Belə ki, Horadizdəki bu yeni müəssisə Azərbaycanın tarixi xalçaçılıq mərkəzlərindən birini - Qarabağ xalçaçılıq məktəbini təmsil edir. Füzuli rayonunda belə bir sənaye ocağının yaradılması dövlətin məcburi köçkünlərə qayğısından qaynaqlanır. Burada 150-dən çox işçinin məşğulluq problemi öz həllini tapıb. Toxucular həm Horadiz şəhərinin, həm də Füzuli rayonunun ayrı-ayrı kəndlərinin, o cümlədən hazırda işğal altında olan kəndlərinin sakinləridir.

Prezident İlham Əliyev 2016-cı ilin noyabrında müəssisəni açarkən demişdir: "Bir çox rayonlarda, o cümlədən Füzuli rayonunda "Azərxalça"nın xətti ilə belə gözəl müəssisələr yaradılıb və yaradılır. Hamımız yaxşı bilirik ki, xalçaçılıq sənətini qadınlar yaşadırlar. Bu müəssisələrin yaradılması, fəaliyyətə başlaması qadınlar üçün iş yerlərinin açılması deməkdir. Bu da çox vacibdir. Çünki qadınlar üçün iş yerləri açmaq o qədər də asan məsələ deyil. Ancaq bu gün siz burada işləyirsiniz, yaxşı maaş alırsınız, həm ailə büdcəsinə bunun böyük töhfəsi olur, eyni zamanda qədim sənətimiz yaşayır, yaşayacaq, gənc nəslə də siz öz təcrübənizi öyrədəcəksiniz".

Əslində, ölkədə xalçaçılıq müəssisələrinin sayının artırılmasının əsas məqsədi də budur.

Bu ilin may ayında Xaçmaz, avqust ayında isə İsmayıllı filiallarının da açılışı olub. Xaçmaz filialının 160-dan çox işçisi var ki, onların da əksəriyyəti qadınlardır. Burada öz məşğulluq problemini həll edən qız-gəlinlər əsasən Xaçmazın ayrı-ayrı kəndlərinin sakinləridir. Onlar da digər filialların toxucuları kimi işə kor-koranə başlamayıblar, bir neçə ay ərzində "Azərxalça"nın hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər.

Xalçaçılar müxtəlif ölçülü onlarca dəzgahda çalışırlar. Onlar Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində toxunan tarixi və orijinal Şirvan çeşniləri əsasında xalçaların toxunmasına üstünlük verirlər. Ümumiyyətlə, bütün filiallarda toxunan çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb.

Keçən ay dövlət başçısının iştirakı ilə açılmış İsmayıllı filialında daha 162 nəfərin məşğulluq problemi həll edilib ki, bunlardan da 150-si toxucu qadınlardır. Onlar yaradılan şəraitdən çox razı olduqlarını bildirmişlər. Prezident İlham Əliyev demişdir: "Biz xalçaçılığın inkişafı ilə bağlı çox ciddi tədbirlər görürük. Bölgələrdə xalça fabriklərinin yaradılması bu işlərin bir hissəsidir. Bu, son müddət ərzində açılan sayca beşinci fabrikdir. İlin sonuna qədər daha beş fabrik açılacaq. Ümumiyyətlə, nəzərdə tutulur ki, ölkəmizdə 30 xalçaçılıq fabriki yaradılacaq və minlərlə insan, xüsusilə qadınlar işlə təmin olunacaqlar. Bu fabriklərdə çalışanlar da qadınlardır".

Xalçaçılıqla yanaşı, bu sahə ilə əlaqəsi olan bir sıra digər istehsalat müəssisələrinin inkişafına da xüsusi diqqət yetirilir. Çünki bunsuz xalça fabriklərinin fəaliyyəti mümkün deyil. Odur ki, onların materialla təmin olunması üçün Sumqayıt Kimya Sənaye Parkında Yunəyirici-Boyaq fabrikinin, Horadiz, Şəmkir, Quba və Xaçmazda regional yun və boyaq tədarükü məntəqələrinin inşası davam edir. Dövlət başçısının sərəncamı ilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Sabunçu, Lənkəran, Abşeron, Kürdəmir, Biləsuvar, Goranboy və Tərtər rayonlarında da xalça emalatxanalarının tikintisi və təchizatı işlərinə başlanıb. Gələn il əlavə olaraq on şəhər və rayonda bu cür müəssisələrin tikintisi nəzərdə tutulub. Bu müəssisələrdə də yüzlərlə yeni iş yerləri açılacaq.

Bütün bunlar o deməkdir ki, hazırda Azərbaycan xalça sənəti özünün əsl dirçəliş dövrünü yaşayır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Vyanada görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin xatirəsi anılıb





Sentyabrın 24-də Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində görkəmli yazıçı, ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.

Tədbiri açan mərkəzin direktoru Leyla Qasımova XX əsrdə Azərbaycan elmi, ədəbiyyatı və təhsilinin inkişafında əvəzsiz rol oynamış Mir Cəlal Paşayevin həyat və yaradıcılığından danışıb, bu il yazıçının 110 illik yubileyi münasibətilə həm Azərbaycanda, həm də xarici ölkələrdə silsilə tədbirlərin təşkil edildiyini diqqətə çatdırıb. Bildirib ki, ötən əsr Azərbaycan ədəbiyyat tarixi və ədəbi tənqid məktəbində önəmli yerə malik Mir Cəlal özünü oxuculara ilk növbədə hekayələri ilə sevdirə bilib. Sadə insanların gündəlik həyatı və güzəranı, əxlaqi dəyərlər, sosial problemlər və ictimai mövzular yazıçının hekayələrində dolğun şəkildə öz əksini tapır. Mir Cəlal dövrünün çatışmazlıqlarını adi həyatdan götürdüyü və bəzən də yumorun dili ilə oxucuya çatdırmağı məharətlə bacaran, ictimai tənqidi incə yumorla qələmə alan yazıçı kimi məşhurlaşıb. Məhz buna görə də onu "kiçik janrın böyük ustadı" adlandırırlar.

Qeyd edilib ki, Azərbaycan Mədəniyyət Mərkəzi bu günlərdə vəfatının 40-cı ili tamam olan ədibin yaradıcılığına yenidən müraciət edib. Onun "Kəmtərovlar ailəsi" hekayəsinin motivləri əsasında ekranlaşdırılmış "İki yad adam" bədii filmini Avstriya ictimaiyyətinə təqdim etmək qərarına gəlib. Bu məqsədlə filmin yaradıcı heyəti - əməkdar artist Gülşad Baxşıyeva, layihə müəllifi və prodüser Hüseyn Cavadzadə, ssenari müəllifi Nicat Dadaşov, aktyor Riad Abdulov Vyanaya dəvət edilib.

Filmin layihə müəllifi və prodüseri, "ADDIM" Gənclər Təşkilatının sədri Hüseyn Cavadzadə bildirib ki, bu gün gənc yaradıcı insanların üzərinə böyük ədibin irsini geniş kütləyə tanıtmaq məsuliyyəti düşür. Filmin əsasında duran "Kəmtərovlar ailəsi" hekayəsi 60 il bundan öncə yazılmasına baxmayaraq, bu gün də öz aktuallığını qoruyub saxlayır və məhz buna görə ölkəmizin hüdudlarından kənarda da sevilir, festivallarda mükafatlara layiq görülüb. Film ötən ilin mart ayında ilk dəfə Çinin paytaxtı Pekin şəhərində keçirilən "Grand Asian" film festivalında nümayiş olunub və "Ən yaxşı sosial film" nominasiyasında qalib olub.

Əməkdar artist Gülşad Baxşıyeva film haqqında fikirlərini bölüşərkən qeyd edib ki, müasir həyatla səsləşən hekayədə və onun ekran əsərində əsas qayə insanları şan-şöhrət, var-dövlət dalınca qaçmaqdansa, öz ülvi hislərini yaşamağa, axıb gedən həyatda öz gəncliklərinin və bir-birlərinin qədrini bilməyə çağırmaqdır.

Sonra "ADDIM" Gənclər Təşkilatının sifarişi ilə "Caspian Media Group" şirkəti tərəfindən Mir Cəlal Paşayevin "Kəmtərovlar ailəsi" hekayəsinin motivləri əsasında ekranlaşdırılan "İki yad adam" filmi təqdim olunub.

Filmdə əsas rollarda əməkdar artist Gülşad Baxşıyeva, aktyorlar Duyğu Dəvəli, Riad Abdulov, Faiq Mirzəyev, Fərqanə Quliyeva, Aysel Osmanlı, Vüsalə Məmmədzadə və başqaları çəkiliblər.

Tamaşaçılar tərəfindən böyük maraqla qarşılanan filmin təqdimatından sonra yaradıcı heyətin üzvləri film barədə öz fikirlərini bölüşüb, tamaşaçıların suallarını cavablandırıblar.

***AZƏRTAC***

# Bakıda keçirilən cüdo üzrə dünya çempionatında daha iki çəkidə qalib və mükafatçılar müəyyənləşib

Bakıda keçirilən cüdo üzrə dünya çempionatının altıncı günündə - sentyabrın 25-də daha iki çəki dərəcəsində qalib və mükafatçılar müəyyənləşib.

AZƏRTAC xəbər verir ki, çempionatın altıncı günündə kişi cüdoçular 100, qadınlar isə 78 kiloqram çəki dərəcəsində güclərini sınayıblar. Səksən səkkiz cüdoçunun mübarizə apardığı yarış günündə ölkəmizi "Rio-2016" Yay Olimpiya Oyunlarının gümüş medalçısı Elmar Qasımov və Zelim Kotsoyev təmsil ediblər. Ancaq cüdoçularımız mükafatçılar sırasında yer ala bilməyiblər.





Qadınların final yarışında niderlandlı Guusje Stinhuisə qalib gələn yaponiyalı Asiya çempionu Şori Hamada fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Niderlandlı Marhinde Verkerk və Rusiya idmançısı Aleksandra Babintseva dünya çempionatının bürünc medalına sahib olublar.

Kişilərin yarışında qızıl medal uğrunda görüşdə gürcüstanlı Varlam Liparteliani və Koreya Respublikasından olan cüdoçu Quham Ço üzüzə gəliblər. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə koreyalı idmançı qalib gələrək dünya çempionu adını qazanıb. Rusiya təmsilçisi Niyaz İlyasov və monqolustanlı Otqonbaatar Lxaqvasuren dünya çempionatını üçüncü pillədə başa vurublar.

Çempionatın yeddinci günündə - sentyabrın 26-da kişi cüdoçular 100 kiloqramdan, qadınlar isə 78 kiloqramdan yuxarı çəki dərəcəsində güclərini sınayacaqlar. Yarışda ölkəmizi Uşanqi Kokauri və İrina Kindzerska təmsil edəcəklər.

Qeyd edək ki, çempionatda 125 ölkədən 800-dək cüdoçu birincilik uğrunda mübarizə aparır.

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR

### İsveçin Baş naziri vəzifəsini itirdi

İsveçdə keçirilmiş parlament seçkilərindən yarım ay keçmiş ölkə parlamenti Baş nazir Stefan Lövenə etimadsızlıq elan etmişdir. Dünən hökumət başçısının istefasının lehinə 204 parlamentar səs vermiş, 142 deputat isə Baş naziri dəstəkləmişdir. Bu barədə "Frans Press" agentliyi xəbər verir.

Xatırladaq ki, sentyabrın 9-da keçirilmiş parlament seçkilərində Lövenin rəhbərlik etdiyi hakim qırmızı-yaşıl blokun partiyaları müxalifətçi sağ mərkəzçi alyans üzərində cəmi bir deputat mandatı üstünlüyü ilə qələbə qazanmışdılar. Parlamentdə üçüncü qüvvə milliyyətçi "İsveç demokratları" partiyası olmuşdur. Srağagün qırmızı-yaşıllar parlamentin spikeri vəzifəsi uğrunda mübarizəni uduzmuşlar. "İsveç demokratları"nın dəstəyi ilə bu yeri sağ mərkəzçi alyansın nümayəndəsi tutmuşdur. Onun ilk qərarı hazırkı Baş nazirə etimadsızlıq göstərilməsi ilə bağlı səsvermə gününün elan edilməsi olmuşdur.

Löven Nazirlər Kabinetinin yeni başçısının namizədliyi üzrə koalision danışıqlar bitənədək hökumətə başçılıq edəcək. Yerli qanunvericiliyə görə, Baş nazirin namizədliyi üzrə səsvermə spiker seçkilərindən sonra iki həftə ərzində keçirilməlidir. Namizədlik çoxluq tərəfindən dəstəklənməsə, spiker daha üç dəfə yeni namizəd irəli sürə bilər. Əgər dörd namizəddən heç biri parlamentdən dəstək almasa, sonuncu səsvermədən üç ay sonra ölkədə yeni seçkilər keçirilməlidir.

### Hindistanda 25 nəfər daşqın və torpaq sürüşməsinin qurbanı oldu

Hindistanın şimalında daşqın və torpaq sürüşməsi nəticəsində 25 nəfər həlak olmuşdur. Bu barədə "Anadolu" agentliyi xəbər verir.



Məlumata görə, ölənlər Cammu və Kəşmir, Pəncab, Himaçal-Paradeş və Haryana ştatlarının sakinləridir. Həmçinin bir çox evlər dağılmış, yollar bərbad vəziyyətə düşmüşdür.

ANİ agentliyinin xəbərinə görə, təbii fəlakət nəticəsində azı 45 nəfər itkin düşmüşdür. Onlardan 35-i Rurki şəhərindəki Texnoloji İnstitutun tələbələridir. Axtarış-xilasetmə işləri davam edir.

Xatırladaq ki, bu il Hindistanda musson yağışları mövsümündə baş vermiş daşqınlar nəticəsində 1400 nəfərdən çox adam həlak olmuşdur.

### Nigerdə 22 nəfəri sel apardı

Nigerdə iyul ayından bugünədək leysan yağışların törətdiyi sellər nəticəsində 22 nəfər həlak olmuşdur. Bu barədə yerli KİV xəbər verir.

Məlumata görə, intensiv yağışlar ölkənin paytaxtı Niameydə, habelə Aqadez və Zinder şəhərlərində sellərə və daşqınlara səbəb olmuşdur. Təbii fəlakət 130 min nəfərdən çox adamın normal həyatına mənfi təsir göstərmişdir.

Sellər 30 min baş mal-qaranı tələf etmişdir. Səkkiz min hektar əkin sahəsi su altında qalmışdır.

Xatırladaq ki, ötən il yağışlar mövsümündə baş vermiş sellər nəticəsində ölkədə 56 nəfər həlak olmuşdur. O vaxt təxminən 206 min nəfər əlverişsiz hava şəraitindən zərər çəkmişdir.

### Tailandda Denge qızdırması baş qaldırıb



Tailandda uzun sürən güclü mövsümi yağışlar üzündən baş qaldırmış Denge qızdırması epidemiyası 70 nəfərdən çox adamın həyatına son qoymuşdur. Bu barədə Səhiyyə Nazirliyi məlumat vermişdir.

Nazirliyin daimi katibi Çetsada Çokdamronqsuk bildirmişdir ki, bu ilin yanvarından sentyabrınadək ölkədə 57129 nəfər Denge qızdırmasına yoluxmuşdur. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 50 faiz çoxdur. Ölüm halları da ötənilkindən çox olmuşdur - 71 nəfər. Bu rəqəm 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 30 faiz çoxdur.

Denge qızdırmasının daşıyıcısı dünyanın bütün tropik və subtropik zonalarında rast gəlinən Aedes Aegypti zolaqlı ağcaqanadıdır.

### Bu il Avropaya Aralıq dənizi ilə 80 mindən çox miqrant gəlib



Cari ilin əvvəlindən bəri Avropaya Aralıq dənizi ilə gəlmiş miqrant və qaçqınların sayı 80 min nəfəri ötmüşdür. 1700 nəfərdən çox adam həlak olmuş, yaxud itkin düşmüşdür. Bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı məlumat vermişdir.

Təşkilatın rəsmi nümayəndəsi Coel Millmanın dediyinə görə, yanvarın 1-dən sentyabrın 23-dək Avropaya 80602 miqrant və qaçqın gəlmişdir. 1730 nəfərin Aralıq dənizində ölümü rəsmən qeydə alınmışdır.

Bu il miqrasiyanın əsas istiqaməti İspaniyadır. Gələnlərin 44 faizi (35,6 min nəfərdən çox) bu ölkənin payına düşür. Yunanıstan ilin əvvəlindən bəri 23 minə yaxın miqrant və qaçqın qəbul etmişdir. İtaliyaya 21 mindən çox miqrant və qaçqın gəlmişdir.

Musiqi dünyası

# Gözəl səsi ona böyük sevgi qazandırdı



1928-ci ilin 23 sentyabrında Bakıda dünyaya göz açdı. Əksər azərbaycanlı ailələrdə oğlan övladını nəslin davamçısı hesab edir, dünyaya gəlişinə daha çox sevinir, qohum-əqrəba göz aydınlığı verir. Bu körpə qızın isə bəxti gətirmişdi. Onun atası Yusif kişi qız övladı arzusunda idi. Düşünürdü ki, qızlar daha canıyanan olurlar, ata-ana qayğısını oğlandan çox çəkirlər.

Yalnız atasının deyil, ailənin digər üzvlərinin də sevincinin həddi-hüdudu yox idi. Uşağın adqoyma mərasimi adət-ənənəyə uyğun keçirildi. Yaxın qohumlar yığışdı, məclis quruldu. Tutuxanım nənə körpənin qulağına adını oxuyub xeyir-dua verdi: "Adınla böyüyəsən, Firəngiz balamız".

## Uşaqlıq arzusu

Musiqi onu kiçik yaşlarından öz cazibəsinə saldı. Orta məktəbdə oxuyanda nəğmə dərslərinə xüsusi maraq göstərirdi. Gözəl səsinin ilk pərəstişkarları da o illərdə sinif yoldaşları oldu. Məktəbdə keçirilən şənliklərdə həmişə solist kimi çıxış edir, nənəsindən, anasından eşitdiyi mahnıları həvəslə oxuyurdu. Artıq "Böyüyəndə kim olacaqsan" sualının cavabını da öz aləmində müəyyənləşdirmişdi. Müğənni olacaqdı.

Evdə hər fürsət düşəndə ailə üzvləri və gələn qonaqlar üçün mahnılar oxuyurdu. Atası Yusif kişi də qızının oxumağını çox bəyənirdi: "Hələ uşaqdır, qoy istədiyi qədər oxusun", - deyirdi. Sonralar bu istəyin sevimli qızının sadəcə şıltaqlığı olmadığını, Firəngizin musiqi təhsili almaq arzusunu biləndə özündən çıxacaqdı. Qızı ilə bağlı başqa xəyalları olduğunu söyləyəcəkdi: "Firəngiz həkimlik dalınca getməlidir, aşıqlıq dalınca yox". Ancaq qızın tərəfində dayananlar, Yusif kişiyə yalvar-yaxar edənlər oldu. Nüfuz sahibi olan Mahmud kişinin nəsihətləri, ailənin digər üzvlərinin təkidləri axır ki, atanın ürəyini yumşaltdı.

Atasının müğənni olmasına razılıq verməsi onu dünyanın ən bəxtəvər insanı etmişdi. Orta məktəbi bitirdikdən sonra Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinə daxil oldu. Vokal sənətində ilk dərslərini həmin məktəbdə almağa başladı. Bir müddət sonra Azərbaycan Dövlət Radiosunun xoruna dəvət aldı. Hələ tələbə ikən həmin kollektivdə çalışmağa başladı. Firəngiz Əhmədova 1946-1951-ci illərdə Azərbaycan Dövlət Radiosu xorunun solisti oldu. Orada klassik dünya bəstəkarlarının xor əsərlərində əsas solo partiyaları oxudu.

## Həyatını dəyişən möcüzə

Musiqi məktəbində oxuduğu vaxtlar Firəngiz Əhmədovanın xəyalına belə gətirmədiyi hadisə baş verdi. Məktəb yoldaşı Rəfiqə bir gün ona dedi: "Hamımız bilirik ki, sənin yaxşı səsin var. Mənim bacım Ağabacı konservatoriyada bəstəkarlıq sinfində oxuyur. Bu yaxınlarda Nizaminin sözlərinə romans yazıb. Həmin romansı onun sənət müəlliminin yanında oxumaq lazımdır. "Sən oxuyarsan?". Firəngiz heç düşünmədən cavab verdi: "Oxuyaram". Birlikdə Rəfiqəgilə getdilər. Gələcəyin böyük bəstəkarı Ağabacı Rzayevanı da Firəngiz Əhmədova həmin gün tanıdı. Gərgin məşqlərə başladılar. Firəngiz romansa müəyyən iradlarını da bildirir, gənc müəllif onları nəzərə alırdı. Nəhayət, təyin etdikləri gün konservatoriyaya yollandılar. Ağabacı Rzayeva ona sinif otaqlarının birinin qapısında gözləməyi xahiş edib, özü içəri keçdi. Bir neçə dəqiqədən sonra onu dərs otağına çağırdılar. İçəridə masanın arxasında əyləşmiş eynəkli kişini görəndə çaşıb qaldı. Eynəkli kişi ona ürək-dirək verirmiş kimi gülümsəyib yer göstərdi: "Xoş gəlmisən, qızım. Keç royalın yanına, oxu görək, nə oxuyursan?!"

Oxumağa başladı. Bir neçə dəqiqəlik ətrafında baş verənləri unutdu. İfasını bitirən kimi eynəkli kişiyə nəzər saldı. Ona çox diqqətlə, maraqla baxırdı. "Harada oxumusan, yaxud oxuyursan?" Sual gözlənilməz oldu. Utana-utana cavab verdi: "Bakı Musiqi Məktəbində oxuyuram". Eynəkli kişi bir qədər fikirləşəndən sonra dilləndi: "Qızım, sənin yerin musiqi məktəbi yox, konservatoriyadır. Sən konservatoriyada təhsil almalısan". Eşitdiklərinə inana bilmirdi. Musiqi məktəbi tələbəsinin birbaşa konservatoriya tələbəsi olması üçün qeyri-adi hadisə baş verməli idi. Bu ciddi görkəmli, təmkinli, görkəmindən, danışığında əsilzadəlik yağan adamın onunla zarafat edəcəyi də inandırıcı görünmürdü. Öz-özünə çək-çevir eləməyə ehtiyac qalmadı. Eynəkli kişi qapıya yaxınlaşdı və öz köməkçisini içəri dəvət edərək tapşırıq verdi: "Bu qızın sənədlərini rəsmiləşdir. Bundan sonra konservatoriyada oxuyacaq".

Ağabacı Rzayevadan bu kişinin adını öyrənəndə heyrətdən donub qaldı. İfasını dinləyən, onunla danışan, konservatoriyada oxumağına qərar verən Üzeyir Hacıbəyli idi. Firəngiz Əhmədova üçün əsl möcüzə baş vermişdi. O günün təəssüratı bütün ömrünə işıq salacaqdı...

## Xoşbəxt xatirələr...

Həmin vaxtdan Firəngiz Əhmədovanın müğənnilik fəaliyyətində onu uğurlara aparan bir yol açıldı. Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) professor Marqarita Kolotovanın sinfində vokal təhsili alan gənc qız çox tələbkar müəlliminin tapşırıqlarına cavab vermək, vokal texnikasının sirlərinə tam yiyələnmək üçün var qüvvəsi ilə çalışırdı.

Konservatoriyanın ikinci kursunda oxuyanda onu Opera və Balet Teatrına dəvət etdilər. Firəngiz Əhmədovaya Müslüm Maqomayevin "Şah İsmayıl" operasından Gülzarın partiyasını hazırlamağı tapşırdılar. Çox gənc yaşında çətin bir işin öhdəsindən gəlməli, opera ifaçısı kimi səhnəyə çıxmalı, yüksək vokal ifaçılığı, həm də artistlik qabiliyyəti nümayiş etdirməli idi. Məşqlərdə iştirak edir, yorulmaq bilmədən çalışırdı.

Tamaşa günü gəlib çatdı. O, sevgisi yolunda cəfalar çəkən, bütün çətinlikləri dəf edən gözəl Gülzarı tamaşaçılara böyük məhəbbətlə təqdim etdi. Opera səhnəsindəki ilk çıxışı bəyənildi. Firəngiz Əhmədova bu rolu ilə Azərbaycan opera səhnəsinə çox istedadlı bir ifaçının gəldiyini təsdiq etdi.

Azərbaycan Dövlət Konservatoriyasını 1955-ci ildə bitirdi. Opera səhnəsi yeni uğurlarına meydan vermişdi. Ona bu dəfə Üzeyir Hacıbəylinin "Koroğlu" operasında Nigar partiyasını tapşırdılar. Yenə sevgi dolu, vəfalı, mərd bir qadın rolu - Nigar partiyası ilə səhnəyə çıxacaqdı. Firəngiz Əhmədova öz Nigarı barədə sonralar yazacaqdı: "Mən özümün çox da uzun olmayan aktyorluq dövrümdə çox partiyalar oxumuşam. Cüzeppe Verdinin "Aida" operasında Aida, "Otello" operasında Dezdemona, Müslüm Maqomayevin "Nərgiz" operasında Nərgiz, "Şah İsmayıl" operasında Gülzar, "Arşın mal alan" komik operasında Gülçöhrə, Fikrət Əmirovun "Sevil" operasında Sevil, Corc Bizenin "Karmen" operasında Mikaela, Süleyman Ələsgərovun "Bahadur və Sona" operasında Sona obrazlarını yaratmışam. Müxtəlif xarakterli, insanı həyəcanlandıran, onun qəlbinin dərinliklərinə nüfuz edən bu partiyaların hər biri mənim üçün əzizdir. Lakin mənim çox sevdiyim bir partiya da var - Nigar partiyası. Nigarın ariyaları mənim qəlbimin dərinliklərinə işləmiş və heyranlıq duyğuları yaratmışdır. Sürəkli alqışlar kəsiləndən və pərdə örtüləndən sonra da uzun müddət mən bu obrazın xoş təsiri altında qalıram. Ona görə ki, Üzeyir bəyin mənəvi böyüklüyü onun yaradıcılığında da özünü qabarıq göstərir".

Firəngiz Əhmədova özünü həm də ona görə xoşbəxt hesab edirdi ki, tərəf-müqabili Koroğlunun əvəzsiz ifaçısı, ecazkar səsinə və aktyorluq məharətinə heyranlıq duyduğu Bülbül idi. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündəki çıxışlarını da Firəngiz Əhmədova belə xatırlayırdı: "Moskvada Azərbaycan incəsənətinin dekadası. Ora bizim opera tamaşalarından "Koroğlu" və "Sevil" getmişdi, bir də balet tamaşaları. Açılış "Koroğlu" ilə oldu. "Koroğlu"da mən böyük teatrda Bülbüllə səhnəyə çıxdım. Bundan böyük xoşbəxtlik olarmı?!"

1951-1988-ci illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olan Firəngiz Əhmədova bu teatrda milli və Avropa bəstəkarlarının operalarında çıxış etdi. Repertuarı zəngin idi. Bənzərsiz, ürəyəyatımlı, yaddaqalan, geniş diapazonlu, güclü, məlahətli səsi, ifaçılıq qabiliyyəti, aktyorluq məharəti ilə ifa etdiyi Nərgiz, ("Nərgiz"), Gülzar ("Şah İsmayıl"), Nigar ("Koroğlu"), Sevil ("Sevil"), Səriyyə ("Azad"), Sona ("Bahadur və Sona"), Maro ("Daisi"), Aida ("Aida"), Toska ("Toska") və başqa Azərbaycan və dünya klassiklərinin şah əsərlərində aparıcı partiyaların mahir ifaçısı kimi şöhrət tapdı.

Firəngiz Əhmədova Azərbaycanın opera sənətinin inkişafında çox böyük rol oynadı. Opera tamaşalarında böyük sənətkarlarla - Bülbül, Müslüm Maqomayev, Rauf Atakişiyev və başqaları ilə tərəf-müqabil olan Firəngiz Əhmədova o illərdə Sovet İttifaqına daxil olan respublikalarda, eləcə də Çexoslovakiya, Polşa, Bolqarıstan, Rumıniya və başqa ölkələrdə qastrol səfərlərində oldu, Azərbaycan mədəniyyətini layiqincə təmsil etdi.

Opera sənətində yüksək uğurlar qazanan Firəngiz Əhmədova müxtəlif kamera əsərlərinin və romansların bənzərsiz ifaçısı kimi də tanındı. O, Üzeyir Hacıbəylinin "Sənsiz", Asəf Zeynallının "Ölkəm", Niyazinin "Arzu", Əşrəf Abbasovun "Heyran olmuşam", Ağabacı Rzayevanın "Oxu, gözəl", eləcə də P.Çaykovski, S.Raxmaninov, S.Taneyev və digər klassik rus bəstəkarlarının romanslarını və mahnılarını sənətkarlıqla ifa etdi.

Firəngiz Əhmədova ictimai xadim kimi də tanındı. 4-cü çağırış SSRİ Ali Sovetinə və 5-ci çağırış Azərbaycan Respublikası Ali Sovetinə deputat seçildi.

1989-1997-ci illərdə o, Azərbaycan Opera və Balet Teatrında məşqçi-pedaqoq kimi fəaliyyət göstərdi. Gənc vokal ifaçılarının yetişməsində bilik və bacarığını əsirgəmədi.

Müasir mədəniyyətimizin görkəmli nümayəndələrindən olan Firəngiz Əhmədovanın yaradıcılıq uğurları hər zaman yüksək qiymətləndirildi. O, sovet dövründə Azərbaycan Respublikasının əməkdar artisti, xalq artisti və SSRİ xalq artisti fəxri adlarına layiq görüldü. Ölkəmizin müstəqillik illərində isə Firəngiz Əhmədova "Şöhrət" ordeni ilə təltif olundu.

Azərbaycanın zəngin musiqi tarixində layiqli yer tutan böyük sənətkar 2011-ci il dekabrın 16-da ömrünün 84-cü ilində vəfat etdi. Unudulmaz sənətkarla vida mərasimi uzun illər çalışdığı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında keçirildi. Firəngiz Əhmədova I Fəxri xiyabanda dəfn olundu.

Bu gün - 90 illiyində Azərbaycan mədəniyyətinin görkəmli simalarından biri, məşhur opera müğənnisi, kamera vokal əsərlərinin mahir ifaçısı Firəngiz Əhmədova sevənlərinin görüşünə lent yazılarının yaddaşında qalan əsərləri ilə gəlir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

## "Bakı Metropoliteni" QSC istismar və tikinti sahələrinin normal işinin təşkili üçün zəruri olan malların, işlərin və ehtiyat hissələrinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 20-dən (əlaqələndirici şəxs: Zakir Hacıyev; telefon: 490-00-91) ala bilərlər.

LOT-1: "Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xətti üzrə şərti adı "B03" olan stansiyasında asma tavanın quraşdırılması və stansiyanın işıqlandırılma işlərinin satın alınması.

LOT-2: "N.Nərimanov" adına elektrik deposu ərazisində yerləşən A-12 Yarımstansiyası üçün güc kabellərinin satın alınması.

**İştirak haqqı LOT-1 800 manat**
**LOT-2 300 manat**

**Hesabın adı: "BAKI METROPOLİTENİ" QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *metropolitendə analoji işlər üzrə təcrübə.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 noyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 noyabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 20 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 14 noyabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərişıq" ASC 2018-ci ildə tələb olunan elektrik mallarının və müxtəlif yağ tipli yük altında avtomatik tənzimlənən transformatorların satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

LOT-1

Müxtəlif elekrik mallarının satın alınması - 400 manat

LOT-2

Müxtəlif yağ tipli yük altında avtomatik tənzimlənən transformatorların satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**VÖEN: 9900069391**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93; daxili: 23-32).**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30 oktyabr 2018-ci il saat 16:00**-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **6 noyabr 2018-ci il saat 16:00**-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **7 noyabr 2018-ci il tarixində saat 16:00**-da Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

## İstehlak Mallarının Ekspertizası Mərkəzi MMC *açıq tenderə dəvət edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 - dəftərxana və təsərrüfat mallarının satın alınması.**

**LOT 2 - hesablama texnikası, katric dolumu və servis xidmətləri.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Səbail rayonu, Xaqani, 82 (əlaqələndirici şəxs: Vəliyev Əhməd Zöhrab oğlu, telefon: (012) 493-47-83, daxili: 3117) ünvanından ala bilərlər.

**İştirak haqqı**

**LOT 1 - 100 manat**

**LOT 2 - 100 manat**

| | |
|---|---|
| **Hesab:** | **AZ48IBAZ40060019449384408207** |
| **VÖEN:** | **1700752861** |
| **Bank:** | **Azərbaycan Beynəlxalq Bankının Nəsimi filialı** |
| **Kodu:** | **805614** |
| **VÖEN:** | **9900001881** |
| **M/H:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.I.F.T:** | **IBAZAZ2X** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
10. *Digər sənədlər: iddiaçının tenderdə iştirakına təsir edə biləcək digər müvafiq məlumatlar.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 26.10.2018-ci il saat 17:00-dək, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 05.11.2018-ci il saat 17:00-dək Səbail rayonu, Xaqani, 82 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 06.11.2018-ci il saat 15:00-da Səbail rayonu, Xaqani, 82 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Bildiriş

"Azərbaycan" qəzetinin 22 sentyabr 2018-ci il tarixdə 212 (7939) nömrəsində dərc edilmiş Bakı Turizm İnformasiya Mərkəzinin tender elanındakı tender təklifinin məbləği 1 faiz həcmində hesab edilsin.

***Tender komissiyası***

UNHCR
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

## Layihə təkliflərinin verilməsi üçün müraciət

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyi

➢ QAÇQINLAR, SIĞINACAQ AXTARANLAR VƏ BMT QAK-ın AİDİYYƏTİNDƏ OLAN DİGƏR ŞƏXSLƏR ÜÇÜN TƏHSİL DƏSTƏYİ

fəaliyyətinin həyata keçirilməsi üçün layihə təkliflərini qəbul edir.

Tender ölkədaxilidir.

**Ətraflı məlumatı**
**http://www.azerweb.com**
**internet səhifəsindən əldə edə bilərsiniz.**

Çərşənbə günü, **24 oktyabr 2018-ci il, Bakı vaxtı ilə saat 23:59-a** qədər daxil olan təkliflər etibarlı sayılacaq.

## Request for Project Proposal

The Office of United Nations High Commissioner for Refugees in Baku, Azerbaijan invites to submit project proposalson:

➢ PROVİSİON OF EDUCATION SUPPORT FOR REFUGEES, ASYLUM SEEKERS AND OTHER PERSONS OF CONCERN TO UNHCR;

The tender is open at a country level.

**For details please visit:**
**http://www.azerweb.com website.**

Offers should be submitted by **Wednesday, 24 October 2018 at 23:59 hours** Baku time.

## Bildiriş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 19 sentyabr 2018-ci il tarixdə keçirilmiş "Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtının təşkili məqsədi ilə onların istirahət zonalarına göndərilməsi" adlı təkrar müsabiqənin qalibləri "Turkom" MMC və fiziki şəxs Həsənov Zabit Əhməd oğlu elan edilmişdir.

***Müsabiqə komissiyası***

## Bildiriş

"Azərbaycan" qəzetinin 18 avqust 2018-ci il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına sayğacların quraşdırılması üçün lazım olan mal-materialların satın alınması məqsədilə dərc edilmiş tenderində yetərsay olmadığı üçün tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 8 oktyabr 2018-ci il saat 16:00-a, təkliflərin açılışı isə 9 oktyabr 2018-ci il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs: satınalmaların təşkili və idarə olunması departamentinin satınalmaların idarə olunması şöbəsinin mühəndisi Mirzəyev Ağaəli agali.mirzeyev@azersu.az (431 47 67/2246).

***Tender komissiyası***

## Bildiriş

**"Azərişıq" ASC tərəfindən mal-materialların və elektrik avadanlıqlarının satın alınması** məqsədilə keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarına əsasən qalib elan olunmuş "Tikinti-Təmir-Təchizat-Bərpa" QSC və "Gatdigital" MMC şirkətləri ilə satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## Bildiriş

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən MMC-nin idarəedici təşkilat qismində çıxış etdiyi sənaye parklarında elektrik enerjisinin fasiləsiz təchizatının təmin edilməsi məqsədilə məsləhətçi təşkilatın seçilməsi ilə əlaqədar iş və xidmətlərin satın alınması üzrə kotirovka sorğusu keçirilir. Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 1 oktyabr 2018-ci il saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə təqdim edilməlidir. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65). Zərflər 2 oktyabr 2018-ci il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə və ya www.scip.az saytından əldə edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin HİK-in sədri Rəfail Qafarova atası

**İBRAHİM QAFAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8602
Sifariş 2792